# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

e-ISSN: 2789-6919

AEM

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.864**

**Cild: 3 Sayı: 10**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.864**

**Volume: 3 Issue: 10**

**Bakı – Baku**
**2023**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

---

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
01.03.2021.
Registration № 4336

---

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**E-mail:**
tedqiqat.1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
m_ilham63@mail.ru

## Editor

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
m_ilham63@mail.ru

## Redaktor köməkçisi

**Şamxal ŞABİYEV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
shebiyev85@mail.ru

## Assistant editor

**Shamkhal SHABIYEV**, Azerbaijan Science Center / Azerbaijan
shebiyev85@mail.ru

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

## Language editors

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYINOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA**, Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shafag ABDULLAYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan JABRAYILOV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Institute of Zoology of ANAS / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elza MOLLAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerikan Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

### Təbiət elmləri

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərid NAĞIYEV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

## Riyaziyyat və mexanika elmləri

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

## Texnika elmləri

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Mövlud HÜSEYNOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

# EDITORIAL BOARD

## Humanities and social sciences

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin GULUSOY**, Kafkas University / Turkey
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

## Natural sciences

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey

**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGHAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Farid NAGHIYEV,** Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

## Mathematics and mechanical sciences

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal Institute of Technology / Sweden

## Technical sciences

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Movlud HUSEYNOV,** Azerbaijan State University of Economics / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/26/7-10

**İlahə Əliyeva**
Azərbaycan Turizm və Menecment Universiteti
doktorant
ilaha.92.aliyeva@gmail.com

# ƏRZAQ MƏHSULLARININ MARKETİNQİNİN İDARƏ EDİLMƏSİ

**Xülasə**

Firmalar üçün kommersiya fəaliyyətinin effektivliyini təmin edən idarəetmə sistemi ilə bağlı olan məsələlər getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayıblar.

Belə yanaşma menecerlərin, texniki mütəxəssislərin, istehsalçıların, kommersiya işçilərinin xarici mühitin dəyişikliklərinə çevik reaksiya verilməsi baxımından səylərini birləşdirməyə kömək etməlidir.

Marketinq sadalanmış və başqa problemlərin həlli üçün həqiqi vasitələr təklif edir. İddia etmək olar ki, marketinq – təsərrüfat vahidinin fəaliyyətinin idarə edilməsinin bazar sistemidir.

***Açar sözlər:*** *ərzaq məhsulu, marketinq, konyuktor, idarəedilmə, firma*

**Ilaha Aliyeva**
Azerbaijan University of Tourism and Management
Ph.D student
ilaha.92.aliyeva@gmail.com

# Food marketing management

**Abstract**

For companies, issues related to the management system that ensures the effectiveness of commercial activity have become more and more important.

Such an approach should help to combine the efforts of managers, technical specialists, manufacturers, and commercial workers in terms of flexible response to changes in the external environment.

Marketing offers real solutions to the listed and other problems. It can be argued that marketing is a market system of managing the activity of an economic unit.

***Keywords:*** *food product, marketing, business, management, firm*

## Giriş

Hazırki zamanda firmalar üçün kommersiya fəaliyyətinin effektivliyini təmin edən idarəetmə sistemi ilə bağlı olan məsələlər getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayıblar.

Belə yanaşma menecerlərin, texniki mütəxəssislərin, istehsalçıların, kommersiya işçilərinin xarici mühitin dəyişikliklərinə çevik reaksiya verilməsi baxımından səylərini birləşdirməyə kömək etməlidir.

Marketinq sadalanmış və başqa problemlərin həlli üçün həqiqi vasitələr təklif edir. İddia etmək olar ki, marketinq – təsərrüfat vahidinin fəaliyyətinin idarə edilməsinin bazar sistemidir.

Marketinq dedikdə, idarəetməyə sistemli bir yanaşma, dəqiq müəyyənləşdirilmiş bir məqsədə sahib olmaq, bu məqsədə çatmaq üçün diqqətlə hazırlanmış tədbirlər sistemi və onun həyata keçirilməsi üçün müvafiq təşkilati, texniki, kommersiya və maliyyə dəstəyi başa düşülür (Martyanova, 2010: 52-55).

Digər mühüm müddəa – marketinqin firmanın strateji məqsəd və vəzifələrinə tabe olmasıdır. Bu səbəbdən belə idarəetmə tipi strateji idarəetmə adlanır.

Problemin hərtərəfli öyrənilməsi müəssisələrin marketinq fəaliyyətinin idarə edilməsinin əsas mərhələlərini və texnologiyalarını aşkar etməyə imkan verir (Ryabkov, 2008: 6-16).

- idarəetmənin məqsəd və vəzifələrinin qoyulması;
- bazar konyunkturasının təhlili;
-müəssisənin və onun məhsullarının rəqabət qabiliyyətliliyinin potensialının qiymətləndirilməsi;
- əsas istiqamətlər üzrə marketinq siyasətinin işlənib hazırlanması.

Marketinqin idarəetmə sistemində maliyyə tənzimlənməsi mexanizmi mühüm rol oynayır. İ.V.İvanova bu prosesi aşağıdakı kimi təsvir edir (cədvəl. 1.1).

**Cədvəl 1.1**
**Firmada istehsal və marketinq fəaliyyətinin maliyyə tənzimlənməsi alətlərinin tərkibi (İvanova, 2012: 4-5)**

| Maliyyə təsiri tədbirləri qrupu | Maliyyə tənzimlənməsi yolları |
|---|---|
| İstehsalçıların gəlirlərinin dəstəklənməsi | - fermerlərin gəlirlərinə birbaşa ödənişlər;<br>- müxtəlif əsaslarda kompensasiya ödənişləri;<br>- təbii fəlakətlərdən dəyən ziyana görə ödənişlər;<br>- istehsalın yenidən təşkili ilə bağlı yaranan itkilərə görə ödənişlər; |
| Ərzaq məhsulları bazarına qiymət müdaxiləsi | - ərzaq məhsulları üzə daxili qiymətlərin dəstəklənməsi;<br>- ərzaq məhsullarının idxalı və ixracına kvota və rüsumların təyin edilməsi; |
| İstehsalçıların istehsal vasitələrini almaq üçün çəkdikləri xərclərin kompensasiya edilməsi | - gübrə, yem və pestisidlərin əldə edilməsi üzrə subsidiyalaşma və güzəştli vergiyə cəlbetmə;<br>- kreditlər üzrə faiz ödənişlərinin subsidiyalaşdırılması;<br>- əmlakın sığortalanması üzrə ödənişlərin subsidiyalaşdırılması; |
| Bazarın inkişafına dəstək | - dövlət bazar proqramlarının maliyyələşdirilməsi;<br>- məhsulların saxlanması xərclərinin subsidiyalaşdırılması;<br>- kənd təsərrüfatı məhsullarının daşınması xərclərinin subsidiyası; |
| İstehsal infrastrukturunun subsidiyalaşdırılması | - istehsalın səmərəliliyini artıran uzunmüddətli tədbirlərin maliyyələşdirilməsi;<br>- suvarma və meliorasiya sahəsindəki layihələrin həyata keçirilməsinə verilən subsidiyalar;<br>- fermer birliklərinin yaradılması üçün subsidiyalar; |
| Regional proqramların həyata keçirilməsi | - istehsalın inkişaf etdirilməsi üzrə dövlət proqramlarının maliyyələşdirilməsi; |
| Makroiqtisadi siyasət | - milli valyutaya dəstək;<br>- güzəştli vergi siyasəti;<br>- xarici ticarətin tənzimlənməsi. |

Kənd təsərrüfatı məhsullarının satışından gəlirlilik 0,9%-dən 16,2%-ə (bitkiçilikdə 27,6%-dən 40,4%-ə, heyvandarlıqda 1,8%-dən 5,9%-ə) yüksəlmişdir.

2003-2018-ci illər ərzində bütün məhsul qrupları üçün satışdan gəlirlilik artmışdır: taxıl - 39,3%-dən 56,2%-ə qədər; pambıq - 6,3%-dən 27,2%-ə qədər; şəkər çuğunduru - 10,6%-dən 55,0%-ə qədər; tütün 68,4%-dən 87,7%-ə qədər; kartof - 6,7%-dən 27,5%-ə qədər; tərəvəz - 7,7%-dən 42,8%-ə qədər; bostan - 35,2%-dən 73,6%-ə qədər və s.

**Cədvəl 1.2**
**Kənd təsərrüfatı müəssisələrinin satdıqları məhsulların rentabelliyi, % (AR DSK, 2019: 5)**

| **İllər** | **Taxıl (qarğıdalısız)** | **Pambıq** | **Şəkər çuğunduru** | **Tütün** | **Kartof** |
|---|---|---|---|---|---|
| 2003 | 39.3 | 6,3 | 10.6 | 68,4 | 6,7 |
| 2005 | 35.5 | 26,3 | 6,3 | 37,3 | 25,4 |
| 2010 | 39,8 | 7,5 | 51,8 | 50,0 | 52,5 |
| 2011 | 42,9 | -12,0 | 139,6 | 41,6 | 15,6 |
| 2012 | 47,6 | 12,8 | 154,2 | 22,8 | 22,5 |
| 2013 | 50,2 | - | 83,3 | 68,3 | 4,4 |
| 2014 | 41,0 | 43,6 | 135,4 | 180,2 | 26,2 |
| 2015 | 47,3 | 10,6 | 201,8 | 83,0 | 17,6 |
| 2016 | 45,8 | 7,3 | 71,0 | - | 261,1 |
| 2017 | 53,6 | - | 25,7 | 179,0 | - |
| 2018 | 56.2 | 27.2 | 55,0 | 87.7 | 27,5 |
| **İllər** | **Tərəvəz** | **Bostan bitkiləri** | **Meyvə** | **Üzüm** | **Çay yarpağı** |
| 2003 | 7.7 | 35,2 | 67,7 | 19,8 | 492 |
| 2005 | 20,3 | 19,6 | 20,0 | 1,8 d. | 5,5 |
| 2010 | 40,9 | 43,4 | 11,3 | 22,4 | 3.4 |
| 2011 | 6,8 | 48,3 | 14,3 | -3,8 | 9,5 |
| 2012 | 41,3 | 44,0 | 29,5 | 6,9 | 8,7 |
| 2013 | 84,8 | 41,7 | 4,0 | 14,3 | 2,4 |
| 2014 | 94,3 | 38,1 | 15,8 | 30,8 | 3,3 |
| 2015 | 71.4 | 43,1 | 24,8 | 14,1 | - |
| 2016 | 17,8 | 33,2 | 17,7 | 4,2 | - |
| 2017 | 40,3 | 18,5 | 30,0 | 8.5 | - |
| 2018 | 42,8 | 73.6 | 28,5 | 6,2 | 5 |

Lakin buna baxmayaraq, marketinqin idarə edilməsinin əsası informasiya olaraq qalır (Gerasimov və başqaları. 2012: 7).

## Nəticə

Nəticə etibarilə müasir aqrofirma xarici mühitin güclü təsiri altında olan açıq sistemi əks etdirir. Bu isə təşkilatın müvafiq perspektiv inkişaf strategiyasının işlənib hazırlanmasını şərtləndirir. Buna görə də müəssisənin xarici mühitin dəyişikliklərinə uyğunlaşması problemi hazırki dövrdə xüsusi əhəmiyyət və aktuallıq əldə etmişdir. Müəssisənin iqtisadi davranış və idarəetmə qərarlarının bazarın tələblərinə adekvatlıq dərəcəsi bu gün müəssisənin uzunmüddətli dövrdə uğurlu fəaliyyətinin həlledici amili kimi çıxış edir.

## Ədəbiyyat

1. Martyanova, Yu.I. (2010). Müəssisədə marketinq fəaliyyətinin idarəetmə sistemi. Vestnik SQEU, №5(67), s.52-55.
2. Ryabkov, V.A. (2008). Kənd təsərrüfatı müəssisələrinin marketinq fəaliyyətinin səmərəli idarə edilməsi. Auto can.dis. SPb: SPbGAU. 21 s.
3. İvanova, N.V. (2012). Aqrar-sənaye kompleksində müasir mexanizm. Nijnevolski Aqrouniversitet Kompleksinin Xəbərləri. № 3(27). s.4-5.
4. AR DSK. (2019). Azərbaycanın kənd təsərrüfatı. Bakı, 644 s.
5. Gerasimov, B.I. və başqaları. (2012). Marketinq təhlili. Tambov: TSTU. s.7.

Göndərilib: 12.09.2023 Qəbul edilib: 04.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/11-15

**Seyidmahir Zəkizadə**
Bakı Biznes Universiteti
Doktorant
seyidmahir.1996@gmail.com
ORCID: 0000-0002-5218-9453

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ SƏHİYYƏ İNFRASTRUKTURUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Müasir həyatın əsasını təşkil edən yaşayış şəraitinin yüksək səviyyədə təmin edilməsi üçün bütün sahələrdə quruculuq işlərinin aparılması zəruridir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi inkişaf vəzifələrinin həlli ilə əlaqədar yeni infrastrukturların yaranması, inkişafı və təkmilləşdirilməsi, tərəqqiyə, bazar münasibətlərinə uyğunlaşdırılması vacibdir. Bu infrastruktur layihələrindən ən vacibi də köçürüləcək əhalinin həyat səviyyəsinə müsbət təsir edəcək səhiyyə infrastrukturudur. 44 günlük müharibədən sonra işğaldan azad edilmiş bütün ərazilərdə səhiyyə sahəsi bərbad vəziyyətdə idi, tibb xidmətlərinə çıxış məhdud idi. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərə köçürüləcək olan yerli əhalinin səhiyyə xidmətinə çıxışını yaxşılaşdırmaq üçün zədələnmiş tibb müəssisələrinin yenidən qurulmasını və yenilərinin yaradılmasını prioritet hesab edir. Bu səbəbdən bu ərazilərdə səhiyyə infrastrukturunun yaradılması ölkə üçün vacib məsələdir. Tibbi infrastrukturun təkmilləşdirilməsi müxtəlif çağırışlara cavab verən və yerli əhalinin ehtiyaclarını nəzərə alan hərtərəfli və əlaqələndirilmiş yanaşma tələb edir. Buna görə də tədqiqat işində işğaldan azad edilmiş ərazilərdə tibbi infrastrukturun mövcud vəziyyətini təhlil etməyə və onun necə təkmilləşdiriləcəyinə dair tövsiyələr verilmişdir. Bu prioritetin uğurla həyata keçirilməsi üçün işğaldan azad edilmiş ərazilərdə səhiyyə infrastrukturunun yaradılmasında qiymətləndirmənin aparılması vacib məsələlərdən biridir.

***Açar sözlər:*** *infrastruktur, Qarabağ, səhiyyə, inkişaf, tibb, işğaldan azad edilmiş ərazilər, Azərbaycan*

**Seyidmahir Zakizadeh**
Baku Business University
PhD student
seyidmahir.1996@gmail.com
ORCID: 0000-0002-5218-9453

## Assessment of health infrastructure in the liberated territories of Azerbaijan

**Abstract**

In order to provide a high level of living conditions, which are the basis of modern life, it is necessary to carry out construction work in all areas. It is important to adapt the creation, development and improvement of new infrastructures to progress and market relations in connection with the solution of socio-economic development tasks in the liberated territories of Azerbaijan. The most important of this infrastructure project is the healthcare infrastructure that will positively affect the living standards of the population to be relocated. After the 44-day war, the health sector was in a state of disrepair in all territories liberated from occupation, and access to medical services was limited. The state of Azerbaijan considers the reconstruction of damaged medical facilities and the creation of new ones a priority in order to improve the access to health care of the local population who will be transferred to the liberated territories. For this reason, the creation of health infrastructure in these areas is an important issue for the country. Improving medical infrastructure requires a comprehensive and coordinated approach that addresses the

various challenges and takes into account the needs of the local population. Therefore, in the study, the current state of the medical infrastructure in the liberated territories and recommendations on how to improve it were given. For the successful implementation of this priority, one of the important issues is the assessment of the creation of health infrastructure in the liberated territories.

***Keywords:*** *infrastructure, Karabakh, healthcare, development, medicine, liberated territories, Azerbaijan*

## Giriş

Ölkənin sosial-iqtisadi inkişaf vəzifələrinin həlli ilə əlaqədar yeni infrastrukturların yaranması, inkişafı və təkmilləşdirilməsi tərəqqiyə, bazar münasibətlərinə uyğunlaşdırılmışdır. Hər bir ölkədə infrastrukturlar cəmiyyətin artan tələbatına, ehtiyacların artmasına uyğun formalaşmışdır. İnfrastrukturlar spesifik əlamətlərinə görə başqa sahələrə xidmət göstərən sahə və yardımlar (xidmətlər) məcmusunu ifadə edir (İbrahimov, 2016: 600).

Ötən 30 il ərzində Ümummilli Lider, Ulu Öndər Heydər Əliyevin rəhbərliyə başladığı gündən etibarən ölkəmiz bütün sahələrdə mühüm uğurlar qazanmış, diqqətəlayiq inkişafa və tərəqqiyə nail olmuşdur. Bu tərəqqi öhdəliyi ardıcıl olaraq Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ilə 2023-cü il də daxil olmaqla davam etmişdir. Bu müddət ərzində əhalinin rifah halının yaxşılaşdırılmasına yönəlmiş çoxsaylı sosial obyektlərin tikilib istifadəyə verilməsinin şahidi olmuşuq.

Diqqətəlayiq cəhətlərindən biri də sosial infrastrukturun inkişafına daim diqqət yetirilməsi olmuşdur. Bu sahədə xəstəxana və tibb məntəqələrinin tikintisi mühüm prioritetlərdəndir. Xüsusilə vurğulamaq lazımdır ki, regionlarımızda səhiyyə müəssisələrinin inkişafı və istifadəyə verilməsi davam etdirilir. Bu inkişaf tendensiyasını daha yaxından izah etmək üçün qrafik 1-i nəzərdən keçirmək lazımdır.

**Qrafik 1. Azərbaycanda xəstəxana (çarpayı sayı üzrə) müəssisələrinin istifadəyə verilməsi**




**Mənbə:** *Qrafik Statistika Komitəsinin məlumatları əsasında tədqiqata müvafiq olaraq müəllif tərəfindən tərtib olunub.* (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi)

1990-2021-ci illər arasında xüsusi illər üçün istifadəyə verilmiş xəstəxana çarpayılarının sayı haqqında məlumatların təhlilindən görünür ki, 1990-cı ildə 1366 xəstəxana çarpayısı istifadəyə verilib. 2000-ci ildə bu göstərici əhəmiyyətli dərəcədə azaldı və 40-a çatdı ki, bu da on il ərzində xəstəxana çarpayılarının istifadəyə verilməsinin əhəmiyyətli dərəcədə azaldığını göstərir. 2010-cu ildə xəstəxana çarpayılarının sayı 886-ya qədər artdı, lakin hələ də 1990-cı il səviyyəsindən xeyli

aşağı idi. 2015-ci ildə istifadəyə verilmiş çarpayıların sayında 210-a qədər azalma müşahidə olunub ki, bu da 2010-cu ilin göstəricisindən xeyli aşağıdır. Xəstəxana çarpayılarının istifadəyə verilməsi 2020-ci ildə əhəmiyyətli dərəcədə artaraq 1930-a çatdı, bu, ola bilsin, xüsusi ehtiyaca (məsələn, COVID-19 pandemiyası) cavab olaraq səhiyyə müəssisələrinin əhəmiyyətli dərəcədə genişlənməsini göstərir. 2021-ci ildə bu göstərici 440-a qədər azalıb ki, bu da 2015-ci il göstəricisindən hələ də yüksəkdir, lakin 2020-ci ildən xeyli aşağıdır.

1990-cı ildən 2000-ci ilə qədər xəstəxana çarpayılarının tutumunda ardıcıl azalma olmuşdur. Çarpayıların istifadəyə verilməsi 2000-2010-cu illər arasında artmış, lakin 1990-cı il səviyyəsindən xeyli aşağı qalmışdır. 2015-ci ildə potensialın əhəmiyyətli dərəcədə azalması, ardınca 2020-ci ildə, ola bilsin, pandemiya ilə bağlı tələblər səbəbindən əhəmiyyətli artım oldu. Lakin 2021-ci ildə 2020-ci illə müqayisədə çarpayıların istifadəyə verilməsi sayında azalma olsa da 2015-ci illə müqayisədə hələ də yüksək olub.

Bu illər ərzində ölkədə səhiyyə infrastrukturu inkişaf etsə də işğal altında qalan ərazilərimiz bu artım göstəricilərindən geri qalıb. 2020-ci ildə Dağlıq Qarabağ münaqişəsi başa çatdıqdan sonra Azərbaycan bir neçə onilliklər ərzində işğal altında olan əraziyə nəzarəti bərpa edib. Azərbaycan hökuməti o vaxtdan bu ərazilərdə tibbi infrastrukturun yenidən qurulması və təkmilləşdirilməsi üzərində işləyir.

Dövlət başçısı İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə tibbi infrastrukturun yaxşılaşdırılması və yerli əhalinin keyfiyyətli səhiyyə xidmətlərinə çıxışının təmin edilməsi məsələsində böyük addımlar atır. Prezident İlham Əliyevin imzaladığı - işğaldan azad edilmiş ərazilərdə yerləşən qəsəbə və kəndlərdə ailə sağlamlıq mərkəzləri və tibb məntəqələrinin tikintisi, tibbi xidmətin təşkilini nəzərdə tutan Dövlət Proqramını buna misal göstərmək olar.

Hökumət səhiyyə xidmətlərinin əlçatan, yüksək keyfiyyətli olmasını təmin etmək üçün tibb işçilərinə, avadanlıqlara sərmayə qoyuluşunu hədəfləyir və bu sahədə artıq bir çox addımlar atılır. Buraya həkimlərin, tibb bacılarının və digər səhiyyə işçilərinin təlimi və işə qəbulu, həmçinin tibbi avadanlıq və ləvazimatların satın alınması da daxil edilməlidir.

2023-2025-ci illərdə Səhiyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İTSDA, yerli icra hakimiyyətləri və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi ilə birgə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planında aşağıda qeyd olunan önəmli məsələlər öz əksini tapıb: (Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı, 2022).

- 49 ailə sağlamlıq mərkəzinin tikintisinin başa çatdırılması;
- 39 tibb məntəqəsinin tikintisinin başa çatdırılması.

Eyni zamanda 2021-ci ilin oktyabr ayından etibarən Şuşada 6 palata və 9 çarpayıdan ibarət ilk modul tipli xəstəxana fəaliyyətə başlayıb. Burada təcili tibbi yardım, poliklinika, laboratoriya, funksional diaqnostika, stasionar və reanimasiya şöbələri fəaliyyət göstərir. İşğaldan azad olunmuş 6 ərazidə - Ağdam, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Qubadlı və Hadrutda da modul tipli xəstəxanaların açılması nəzərdə tutulur (Əliyev, 2022).

Səhiyyə Nazirliyində Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, hər bir sahədə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də iki ölkə arasında yüksək səviyyəli əməkdaşlıq mövcuddur: "Uzun illər ərzində tibb sahəsində qarşılıqlı əlaqələrin gücləndirilməsi üçün səmərəli işlər görülüb. Belə ki, ölkələrimiz arasında əczaçılıq sənayesində uğurlu əməkdaşlıq həyata keçirilir, tibb təhsili sahəsində də qarşılıqlı fəaliyyət, o cümlədən ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik məlumatların mübadiləsi üçün yeni imkanlar yaradılıb. Eyni zamanda Azərbaycan Tibb Universiteti Türkiyənin nüfuzlu tibb universitetləri ilə elmi əməkdaşlığı genişləndirir, müxtəlif istiqamətdə ortaq layihələr icra olunur. Bundan başqa, ölkələrimizin mütəxəssis və həkimləri üçün təcrübə mübadiləsi və ixtisasartırma üzrə tədbirlərdə iştirak etmək üçün qarşılıqlı səfərlər təşkil olunur. Səhiyyə sahəsində əldə olunan nailiyyətlərlə yanaşı, problemlər də mövcuddur. Belə ki, güclü maddi-texniki baza ilə yanaşı, savadlı mütəxəssislərə də ehtiyac var. Türkiyədə tibb texnologiyası ən innovativ və

sürətlə inkişaf edən sənayelərdən biridir. Hazırda Azərbaycanda tibbi avadanlıqlar üzrə mühəndislərin yetişdirilməsinə tələbat mövcuddur". Cahit Bağçı 44 gün davam edən Vətən müharibəsində işğaldan azad olunan ərazilərdə ən müasir tibb müəssisələrinin yaradılmasında Türkiyənin köməyini əsirgəməyəcəyini söyləyib (5).

Bu layihələrdən başqa Ağdam Rayon Mərkəzi Xəstəxanasının yaradılması da işğaldan azad edilmiş ərazilərdə səhiyyə infrastrukturunun inkişafında mühüm mərhələdir. 210 çarpayılıq ən müasir xəstəxananın tikintisi orada yaşayan və köçürüləcək əhali üçün müasir tibbi xidmətin yeni dövrünü açaraq yerli əhaliyə göstərilən səhiyyə xidmətində müsbət dəyişiklikləri vəd edir (Prezident İlham Əliyevin Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olduğu zaman çıxışı, 2022).

Bu təşəbbüs həyati əhəmiyyət kəsb edən səhiyyə müəssisələrinin yenidən qurulması üçün zəmin yaratmaqla yanaşı, dövlət başçısı cənab İlham Əliyevin cəmiyyətin rifahı və sağlamlığına göstərdiyi dəyəri təmsil edir. Bu xəstəxananın yaradılması Ağdam və ətraf rayonların sakinləri üçün səhiyyə xidmətinin əlçatanlığını əhəmiyyətli dərəcədə artırır. Xəstəxananın tikintisi və istismarı yerli işçi qüvvəsi üçün iş imkanları yaradır. Eyni zamanda Ağdam Mərkəzi Şəhər Xəstəxanasının tikintisi yerli sakinlərə daha işıqlı, sağlam gələcək vəd edən rayonun səhiyyə infrastrukturunun dirçəldilməsi istiqamətində mühüm addımdır.

İşğaldan azad edilmiş ərazilərdə tibb müəssisələrinin əksəriyyəti böyük şəhərlərdə yerləşirdi və kənd yerlərində səhiyyə xidmətlərinə çıxış məhdud idi. Bundan əlavə, region zəruri tibbi ləvazimat və avadanlıqların əldə edilməsi baxımından maliyyə və maddi-texniki çətinliklərlə üzləşmişdir.

Lakin 2020-ci ildə münaqişə başa çatdıqdan sonra vəziyyət yaxşılaşıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionda tibbi infrastrukturun yenidən qurulmasına və təkmilləşdirilməsinə diqqəti nəticəsində ərazilərə çoxlu sərmayə qoyulub.

Bu sahədə görülən işlərlə yanaşı, yenidənqurma prosesində həll edilməli olan bəzi problemlər də var. Əsas problemlərdən biri səhiyyə sektoruna investisiya qoyuluşu üçün mövcud olan məhdud maliyyə resurslarıdır. Keyfiyyətli səhiyyə xidmətləri göstərmək üçün, lazımi infrastrukturun, avadanlıqların və personalın mövcud olmasını təmin etmək üçün dövlət-özəl tərəfdaşlığı nəticəsində regiona daha çox vəsait ayrılmalıdır.

Digər problem azad edilmiş ərazilərdə tibbi infrastrukturun hazırkı vəziyyəti haqqında etibarlı məlumatların olmamasıdır. Bu, resursların səmərəli planlaşdırılmasını, bölüşdürülməsini çətinləşdirir və yerli əhalinin ehtiyacları ilə mövcud resurslar arasında uyğunsuzluqla nəticələnə bilər.

## Nəticə

Ötən 30 ildə əldə olunmuş nailiyyətləri nəzərdən keçirdikdə aydın olur ki, xalqımız Ulu Öndər, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən rəhbərliyi altında formalaşıb və cənab Prezident İlham Əliyevin hakimiyyəti dövründə inkişaf edib, çiçəklənib. Ölkə rəhbərinin əsas məqsədlərindən biri vətəndaşlarımızın firavan və sağlam gələcəyini təmin etmək üçün sosial infrastrukturun və səhiyyə müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsi də daxil olmaqla inkişaf məqsədlərimizi daha da irəli aparmaqdır.

İşğaldan azad edilmiş ərazilərdə tibbi infrastrukturun yenidən qurulması mürəkkəb və çətin, lakin yerli əhalinin rifahı və həyat keyfiyyəti üçün həlledici vəzifədir. Hökumətin həm fiziki, həm də insan resurslarına diqqət yetirməsi, eləcə də səhiyyə sistemlərini inteqrasiya etmək səyləri müsbət addımlardır, lakin bu səylərin uğurunu təmin etmək üçün həll edilməli olan mühüm problemlər də var.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tibbi infrastrukturun yaxşılaşdırılması yerli əhalinin rifahına və həyat keyfiyyətinə müsbət təsir göstərəcək mühüm vəzifədir. Bu məqsədə çatmaq üçün Azərbaycan hökuməti bir neçə addım ata bilər:

1. Səhiyyə sektoruna investisiyaların artırılması: Tibbi infrastrukturun yaxşılaşdırılması üçün hökumət səhiyyə sektoruna investisiya üçün dövlət-özəl tərəfdaşlığı nəticəsində regiona daha çox

vəsait ayrılmalıdır. Bura yeni tibb müəssisələrinin tikintisi, mövcud olanların təmiri, tibbi avadanlıq və ləvazimatların satın alınması daxil ola bilər.

2. Hərtərəfli səhiyyə planının hazırlanması: Hökumət yerli əhalinin ehtiyaclarını və mövcud resursları nəzərə alan hərtərəfli səhiyyə planı hazırlamalıdır. Bu plana tibbi infrastrukturun təkmilləşdirilməsi üçün aydın məqsədlər, strategiyalar və vaxt qrafikləri daxil edilməlidir.

3. Səhiyyə mütəxəssislərinin hazırlanması və işə götürülməsi: Keyfiyyətli səhiyyə xidmətləri göstərmək üçün təlim keçmiş və bacarıqlı səhiyyə mütəxəssislərinin olması vacibdir. Hökumət yerli əhalinin ixtisaslı tibbi mütəxəssislərə çıxışını təmin etmək üçün həkimlərin, tibb bacılarının və digər tibb işçilərinin təliminə və işə qəbuluna investisiya qoymalıdır.

4. Tele-tibb və e-sağlamlığın təşviq edilməsi: Tele-tibb və e-sağlamlıq uzaq və az xidmət göstərən icmalar üçün tibbi xidmətlərə çıxışı xeyli yaxşılaşdıra bilər. Hökumət bu texnologiyaların inkişafı və istifadəsini təşviq etməlidir ki, bu da bəzi sahələrdə tibbi mütəxəssislər çatışmazlığını aradan qaldırmağa kömək edə bilər.

5. Beynəlxalq təşkilatlarla əməkdaşlıq: Azərbaycan dövləti tibbi infrastrukturun təkmilləşdirilməsində texniki yardım və dəstək almaq üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) kimi beynəlxalq təşkilatlarla əməkdaşlıqdan faydalana bilər.

Yekun olaraq qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tibbi infrastrukturun yaxşılaşdırılması əhəmiyyətli investisiyalar, diqqətli planlaşdırma və beynəlxalq təşkilatlarla əməkdaşlıq tələb edir. Azərbaycan hökuməti bu addımları atmaqla yerli əhalinin keyfiyyətli səhiyyə xidmətlərindən istifadəsini təmin edə bilər ki, bu da onların rifahına və həyat keyfiyyətinə müsbət təsir göstərəcək.

## Ədəbiyyat

1. İbrahimov, İ. (2016). Aqrar sahənin iqtisadiyyatı. Bakı, 655 s.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
3. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. (2022).
4. Əliyev, Z. (2022). İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2021-ci ildə və 2022-ci ilin ilk 3 ayı üzrə fəaliyyəti ilə bağlı mətbuat konfransı çıxışı.
5. https://azertag.az/xeber/Cahit_Bagchi_Isgaldan_azad_olunan_erazilerde_en_muasir_tibb_muessiselerinin_yaradilmasinda_Turkiye_komeyini_esirgemeyecek-1998221
6. Prezident İlham Əliyevin Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olduğu zaman çıxışı. (2022).

Göndərilib: 09.09.2023 Qəbul edilib: 17.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/16-18

**Gülnar Quluzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Cəlilabad filialı
gulnarguluzadeh@gmail.com

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İSLAHATLARIN VACİBLİYİ

**Xülasə**

İnsan həyatının bütün sahələri zamanla bir-birinin daha da inkişaf etmiş formasını əvəz edir. Həyatımızın ən mühüm amillərindən biri də təhsildir. Təhsil əsasən daima inkişafda olan bir sahədir və bu inkişaf təhsildə müəyyən islahatların aparılmasını qaçınılmaz edir. Eyni zamanda bu islahatları biz dövrün tələbi də adlandıra bilərik. Çünki elm, texnika, insan beyni inkişaf etdikcə biz o inkişafa uyğunlaşıb irəli getməyə məcburuq. Əks halda isə tarixin tozlu səhifələrində qalmağa məhkum oluruq. Təhsil islahatları apararkən islahatın aparılacağı cəmiyyətin tələbləri, arzu və istəkləri mütləq şəkildə nəzərə alınmalıdır.

***Açar sözlər:*** *təhsil sistemi, təhsil islahatı, ali təhsil, kommunikativ yanaşma, linqvistik bilik*

**Gulnar Guluzadeh**
Azerbaijan State Pedagogical University
Branch of Jalilabad
gulnarguluzadeh@gmail.com

## The importance of reforms in English language teaching

**Abstract**

All areas of human life replace each other's more developed forms over time. One of the most important factors in our life is education. Education is basically a constantly developing field, and this development makes certain reforms in education inevitable. At the same time, we can call these reforms the demand of the time. Because as science, technology, and the human brain develop, we are forced to adapt to that development and move forward. Otherwise, we are doomed to remain on the dusty pages of history. When carrying out educational reforms, the demands, desires and wishes of the society where the reform will be carried out must be taken into account.

***Keywords:*** *educational system, educational reform, higher education, communicative approach, linguistic knowledge*

## Giriş

Bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olub. Cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirib, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoyur.

Qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi, həmçinin, təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu daha da artmaqdadır.

Birləşmiş Millətlər Təşkilatının XXI əsri "Təhsil əsri" elan etməsi heç də təsadüfi deyil. Çünki yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında müasir dövrün ali təhsilinin rolu xüsusi əhəmiyyət kəsb edir.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə var olan təhsilin səviyyəsi ilə müəyyən olunur. Tarixi təcrübələrlə sübut olunmuşdur ki, təbii sərvətlərin varlığı və bolluğu dövlətin inkişafının əsas göstəricisi ola bilməz, ən əsası isə bu sərvətlərin tamamının cəmiyyətin əsas hərəkətverici qüvvəsi olan insan kapitallarına yatırılmasını təmin etməkdir. Hal-hazırda dünya ölkələri içərisində öz inkişafı ilə seçilən ABŞ, Çin, Yaponiya, Cənubi Koreya, Finlandiya kimi

inkişaf etmiş ölkələr sahib olduqları resursların çox hissəsini öz təhsil sistemlərinin inkişafına yatırdıqları üçün onlar hazırda daha çox gəlirlərini insan kapitallarından əldə edirlər. Digər tərəfdən bu ölkələrdə inkişafa təsir edən amillər içərisində təhsilin çəkisi nəzərəçarpacaq dərəcədədir (İlyasov, 2018: 208).

Təhsil islahatları hər bir ölkənin tarixində incə niyyətlərin reallaşdırılıb həyata keçirilməsi ilə yanaşı, müxtəlif baxış və yanaşmaların, dünyagörüşlərin birləşib sistemləşməsi ilə xarakterizə olunur. Bütün təhsil sistemlərində aparılan təhsil islahatlarının əsas məqsədi yeni yanaşmalar əsasında təhsilin səmərəliliyini yüksəltmək, beynəlxalq təcrübələrdə rastlanan müsbət cəhətləri seçib onlara milli xüsusiyyətlər əlavə etməklə milli təhsilə tətbiqini təmin etmək, bütövlükdə təhsilin keyfiyyət səviyyəsini yüksəltməkdən ibarətdir. Dünya təcrübəsi göstərir ki, iqtisadi cəhətdən güclü ölkələr inkişafa yalnız təhsil səviyyəsini yüksəltmək, insan kapitalını inkişaf etdirmək yolu ilə nail olmuşlar (Genesee, 2001, 144-150).

Müasir yeniləşən dünyamızda "qlobal dil" statusunu qazanmış ingilis dili bir ünsiyyət vasitəsi olaraq, digər ölkələrdə olduğu kimi, bizim ölkəmizdə də həyatın müxtəlif sahələrində istifadə olunur. Eyni zamanda ingilis dili ölkəmizdə fəaliyyət göstərən müxtəlif ali və orta təhsil müəssisələrində geniş formada istifadə olunmaqdadır. Müxtəlif ali təhsil müəssisələrinin müxtəlif dil fakültələrində təhsil alan tələbələrin də seçdikləri ixtisas dillərində müxtəlif kommunikativ bacarıqların əsasının qoyulub formalaşdırılması, inkişaf etdirilib daha da təkmilləşdirilməsi öndə duran ən əsas vəzifələrdən hesab olunur. Lakin qarşıya qoyulan bu vəzifələrin layiqincə yerinə yetirilməsi və sonda əldə olunacaq nəticəyə çatmaq üçün ənənəvi üsul və metodlardan yox, yeniləşən dünyanın tələblərini özündə ehtiva edən daha səmərəli üsul və metodlardan istifadə daha məqsədəuyğundur. Tələbələrə ilkin linqvistik biliklərin ötürülməsi və tətbiqini elementar səviyyədə həyata keçirmək mümkün olsa da bu, daha yaxşı inkişaf üçün bir az irəli formada mürəkkəbləşir, daha məhsuldar, eyni zamanda vaxta qənaət edən üsullar tələb edir. Belə üsul və vasitələrin yaradılması zərurəti isə yeni islahatların aparılmasını və vacibliyini qaçınılmaz edir. Müasir dövrdə bütün ali təhsil müəssisələrinin qarşısında duran ən vacib vəzifələrdən biri seçdiyi ixtisaslara aid bilik və bacarıqlara mükəmməl formada yiyələnmiş, eyni zamanda hərtərəfli qlobal düşünmək qabiliyyətinə malik kadrları yetişdirib ərsəyə gətirməkdir. Bütün bu vəzifələrin yerinə yetirilməsi üçün isə Avropa təhsil sisteminə inteqrasiya etməkdə olan Azərbaycan təhsil sistemində yeni islahatlar aparılmalı və dövrün təhsil tələbləri mütləq nəzərə alınmalıdır. Hal-hazırda beynəlxalq ünsiyyət vasitəsi kimi qəbul olunmuş ingilis dilinin fərqli təlim rakurslarından öyrənilməsinə maraq və bir növ təhsil məcburiyyəti getdikcə daha da artmaqdadır. Bu gün ölkəmizdə ingilis dili xarici dil kimi (EFL), xüsusi məqsədlərlə (ESP), akademik məqsədlərlə (EAP), mədəniyyətlərarası ünsiyyət məqsədilə (ELZ) tədris edilir. Qeyd etməliyik ki, bu gün ölkəmizin təhsil sisteminin müxtəlif strukturlarında, o cümlədən də xarici dillərin tədrisinə dair olan strukturlarda gözə çarpacaq dərəcədə ciddi təhsil islahatları aparılmaqdadır. Təhsil sistemindəki müsbət dəyişikliklər aparılan islahatların nə dərəcədə uğurlu olmasının bariz nümunəsidir. Təhsilin müasir inkişafından danışarkən, xüsusilə, tələbələrə müxtəlif güzəştli kateqoriyalarla təklif edilən təhsil kredit sistemlərinin mövcudluğunu vurğulamaq lazımdır. Eyni zamanda biz bu islahatlar içərisində ölkənin müxtəlif ali təhsil müəssisələrində aparılan akkreditasiyaları, attestasiyaların adlarını qeyd edə bilərik. Bu və ya digər formada aparılan bütün islahatların yalnız bir ortaq məqsədi vardır. Bu məqsəd isə ölkədə bütün müasir standartlara cavab verən keyfiyyətli təhsil sistemi yaratmaq və potensiallı, peşəkar kadr hazırlığı işini layiqincə həyata keçirməkdən ibarətdir. Bütün bunlara nail olmaq üçün isə inkişaf etmiş ölkələrin təhsil təcrübələrindən yetərincə yararlanmaq və ölkəmizin təhsil sistemində tətbiqinə lazımi şəraiti yaratmaq lazımdır. Lakin bu islahatlarda ancaq təcrübənin tətbiqi ilə kifayətlənmək düzgün deyil. Eyni zamanda biz islahatlar apararkən mövcud cəmiyyətin, xüsusilə təhsilalanların və təhsilverənlərin hal-hazırki durumunu, arzu və istəklərini, dövrün tələblərini, cəmiyyətin dəyərlərini nəzərə almalıyıq. Daha sonra isə aparılan islahatlar sonrası əldə olunan bütün nəticələri analiz edib daha da yaxşı nəticələrə nail olmaq üçün nələrə fokuslanmaq lazım olduğunu araşdırmalıyıq.Yuxarıda qeyd etdiyim bütün islahatlar xarici dillərin tədrisinə də şamil edilir. Xarici dillərin tədrisində aparılan islahatlarda, xüsusilə, təhsilalanlarda kommunikativ

dil bacarıqlarının müasir dövrün tələblərinə uyğun olaraq formalaşdırılması və inkişaf etdirilməsi əsas prioritet məsələ olaraq qeyd olunur. Xarici dillərdə kommunikativ yanaşmanın tətbiqi isə təhsilalanlarda yaradıcı təfəkkür, linqvistik bacarıq və kreativlik, özünə və öz imkanlarına güvənmə, özünüqiymətləndirmə bacarığı, fəaliyyət müstəqilliyi və s. təmin edilməsini nəzərdə tutur. Müasir qloballaşan dünyada isə mədəniyyətlərarası əlaqə, mədəniyyətlərarası təhsilin inkişaf etdirilməsi və ortaq xüsusiyyətlərin müəyyən edilib yaradılması xüsusi bir əhəmiyyət kəsb edir.

Dil fakültələrində təhsil alan tələbələrdə ixtisas dilində kommunikativ bacarıqların formalaşdırılması, inkişaf etdirilməsi və təkmilləşdirilməsi kommunikativ yanaşmanın əsasında duran kommunikativlik, interaktivlik və tələbəyönümlülük prinsipləri üzərində qurulmasını nəzərdə tutur (Alexander, 1998: 74-78). Müasir texnologiyaların, innovativ metodların xarici dillərin tədrisinə tətbiqi problemi xüsusi əhəmiyyət kəsb edən məsələlərdən birinə çevrilmişdir (Alleright, 1981: 5-18).

Xarici dillərin tədrisi prosesində komunikativ yanaşmanın tətbiqi təhsilalan və təhsilverən (tələbə-müəllim) münasibətinə yeni köklü dəyişikliklər gətirməklə yanaşı, müxtəlif şəkildə öyrənmə bacarıqlarının formalaşdırılmasını özündə ehtiva edir. Konkret şəkildə desək, ingilis dilində kommunikativ yanaşmanın tətbiqi ingilis dilini öyrənənlərdə ingilis dilinə dair müxtəlif bilik və bacarıqlar formalaşdırıb inkişaf etdirir, bu prosesə dair onlarda güclü bir motivasiya yaradıb onu qüvvətləndirir, təhsilalanlar bu dil vasitəsi ilə öz hiss və duyğularını, emosiya və həyəcanlarını, arzu və istəklərini, eyni zamanda özlərinə dair şəxsi keyfiyyətlərini ifadə etmə bacarığını formalaşdırır. Bütün bunlara nail olmaq istəyi isə təhsildə ciddi islahatların aparılmasını zəruri edir. Yuxarıda qeyd etdiyim kommunikativ kompetensiyalara malik tələbələr artıq sərbəst şəkildə özlərinə doğru istiqamət seçməyi bacarır, eyni zamanda edilən səhvlərə dair sərbəst fikir irəli sürüb edilən səhvlərdən nəticə çıxarmağı bacarırlar (Genesee, 2001: 144-150).

## Nəticə

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirib sonda belə bir nəticəyə gələ bilərik ki, təhsil müəssisələrinin dil fakültələrində əsas ixtisas dilini ingilis dili seçən tələbələrlə işləyən dil mütəxəssislərinin qarşısında duran ən mühüm vəzifələrdən biri tələbələrə dilöyrənmə strategiyalarını çatdırmaqdır. Eyni zamanda özünütəkmilləşdirmədə tələbələrə mümkün olan bütün imkanlar yaradılmalı, onların istiqaməti izlənilməklə müstəqil inkişafa doğru yönəlməlidirlər.

## Ədəbiyyat

1. İlyasov, M.İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı. “Elm və təhsil”, 208 s.
2. Popova, E.Z., Sadova, N.N., Tagirova, Yu.Yu. (2008). Fundamentals of computer science and information technology: educational method. Complex for students East. Fak.: in 2 hours. Part 1, Minsk: BSU.
3. Alexander, L. (1998). Course design & the management of learning In IAJEFL. Manchester conference selections, ed. P.Grundy, p.74-78, Kent, UK: IAJEFL.
4. Alleright, D. (1981). What do we want teaching materials for ELJ journal 36(1): 5-18 p.
5. Genesee, F. (2001). Evaluation In: The Cambridge guide to teaching English to speakers of other languages, ed. R.Carter &D.Nunan. Cambridge: University Press, p.144-150.

Göndərilib: 03.09.2023 Qəbul edilib: 12.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/19-23

**Səbuhi Məmmədov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Magistrant
sabuhiitv@gmail.com

# RÜSTƏM İBRAHİMBƏYOV FENOMENİ

**Xülasə**

Məqalə məşhur kinorejissor, kinodramaturq, prodüser Rüstəm İbrahimbəyovun sənət və yaradıcılığından bəhs edir. Rüstəm İbrahimbəyovun nəsri, kinodramaturgiyası, rejissorluq fəaliyyəti əsas tədqiqat mövzusu olmuşdur. Məqalədə Rüstəm İbrahimbəyovun kino sənətinə gəlməsi ətraflı araşdırılır. Onun bədii kinodakı fəaliyyəti ilə yanaşı, sənədli kinodakı fəaliyyətinə də nəzər salınır. Bundan əlavə, sənətkarın müxtəlif filmlərinin mövzusu, yaradıcı müasir yanaşmasının nə dərəcədə uğurlu olması da analiz edilir. Həmçinin, onun yaradıcılığı sistemli şəkildə ardıcıl olaraq təhlil olunur.

***Açar sözlər***: *Rüstəm İbrahimbəyov, rejissor işi, ssenari, aktyor oyunu, pyes, tamaşa*

**Sabuhi Mammadov**
Azerbaijan State University of Culture and Arts
Master student
sabuhiitv@gmail.com

## Phenomenon Rustam Ibrahimbayov

**Abstract**

The analytical article is devoted to the famous film director, playwriter, producer Rustam Ibrahimbayov, his art and creativity. The main research topics were Rustam Ibrahimbayov's prose, film writing and directing. The article researches Rustam Ibrahimbeyov's film art in detail. Along with his work in feature films, his work in documentary films is also reviewed. In addition, the themes of the artist's various films and how successful his creative modern approach is also analyzed. Also, his creativity is consistently systematically analyzed in this article.

***Keywords:*** *Rustam Ibrahimbayov, director's work, script, acting, play, spectacle*

## Giriş

"Rüstəm İbrahimbəyov adı kinematoqrafda özünü çox möhkəm təsdiq etdi". Müəllif N.Zorkayanın 1973-cü ilin "Sovet ekranı" jurnalında Rüstəm İbrahimbəyova həsr etdiyi yazı bu cümlə ilə başlayır. Təkcə Azərbaycanın deyil, həm də sabiq sovet kinematoqrafiyasının bir neçə onilliklər tarixinin ən parlaq səhifələri görkəmli sənətkar, respublikanın Xalq yazıçısı Rüstəm İbrahimbəyovun adı ilə sıx bağlıdır. Zorkaya öz yazısında ilk olaraq müəllifin ssenarisi əsasında çəkilmiş "Bir cənub şəhərində" filminin adını xatırlayır. R. İbrahimbəyovun ssenarisi üzrə rejissor E.Quliyevin çəkdiyi "Bir cənub şəhərində" bədii filminin ekranlara çıxmasından onillər keçməsinə baxmayaraq, bu film bütün ziddiyyətləri, genişliyi və dərinliyi ilə təsvir olunan ibrətamiz əhvalatdır və filmin qəhrəmanları bu gün də xatırlanır" ("Sovet Ekranı" kinojurnalı, 1973: 8).

XX əsrin 60-70-ci illərində Azərbaycan kinematoqrafiyasında yaradıcılıqları milli kino sənətinin əsasını təşkil edən yeni adlar öz təsdiqini tapdı. Azərbaycan kino tarixində mühüm yer tutan dəyərli sənətkarlarımız: kinodramaturq və kinorejissorlardan Həsən Seyidbəyli, Rüstəm və Maqsud İbrahimbəyov qardaşları, Anar, kinodramaturq Yusif Səmədoğlu, kinorejissorlardan Arif Babayev, Eldar Quliyev, kinooperator və kinorejissor Rasim Ocaqov məhz bu dövrdə kinoya gəldilər və bu sənətkarların əsərləri indi də ən yaxşı filmlərimizin özəyini təşkil edir.

R.İbrahimbəyov nə vaxt yazmağa başladığı və nə üçün kinoya gəldiyi barədə belə deyir: “1962-ci ildə institutun diplomçusu ikən ilk hekayəmi qələmə almışam. O vaxt 22 yaşım vardı. “Mürəbbəsiz çörək” adlı hekayəni Moskvaya, “ Yunost” jurnalına göndərdim. Oradan çox nəzakətli və qısa cavab aldım. “Hekayə xoşuma gəlib”. Mənə gələcəkdə bu işi davam etdirməyi məsləhət görürdülər. Sonra həmin hekayə bizim gənclər qəzetində dərc olundu. Beləliklə, mən təsadüfən yazmağa başladım. Sonrakı bir neçə hekayəni Ali ssenari kurslarına daxil olmaq məqsədilə yazdım. Bunun üçün mən ədəbi işlərimi təqdim etməli idim. Bununla əlaqədar qələmə aldığım bir neçə hekayə və ssenari sonradan mənim ilk nəsr kitabıma daxil edildi”.

Gənc yazıçı Ali ssenari kurslarını 1967-ci ildə bitirmiş, “Bir cənub şəhərində” ədəbi ssenarisi onun diplom işi olmuşdur. Müasir mövzunu novatorluqla qələmə alan kinodramaturqun bu ssenarisinin əsasını “Drujba narodov” jurnalında çap olunmuş “9-cu Xrebtovı” povesti təşkil edir.

Sənət aləminə gəldiyi ilk gündən tapdanmış cığırla getməyən, heç kəsi təqlid etməyən gənc kinodramaturq R. İbrahimbəyov dünya şöhrətli yazıçı, görkəmli dramaturq, ssenarist, kino və teatr rejissoru, ictimai xadim kimi tanınırdı. O, keçmiş Sovetlər İttifaqında kinobestsellerin yaradıcılarından biri hesab olunurdu.

R.İbrahimbəyovun yaradıcılığı Azərbaycan kinematoqrafiyasının inkişafına güclü təkan verib, onun keyfiyyət baxımından yüksəlişində əhəmiyyətli rol oynamışdır. Dramaturqun əsərləri dövrün böyük və mürəkkəb problemlərini başa düşməkdə tamaşaçıya yol göstərmiş, yaradıcılığını ekranda dolğun canlandırmaq üçün həmkarlarını daha təsirli və parlaq bədii ifadə vasitələri axtarıb tapmağa sövq etmişdir. Eyni zamanda yüksək səviyyəli bədii əsərlərin ekranlaşdırılması və lentə alınması, bu əsərlərə uyğun professional ustalıq da tələb etmişdir. Müxtəlif illərdə yaradıcılıq tərcümeyi-halına yazılmış fəxri adlar və mükafatlar – Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi (1976, 1997), Azərbaycan Dövlət mükafatı (1980), SSRİ Dövlət Mükafatı (1981), Rusiya Federasiyasının Dövlət mükafatları (1991, 1995, 1998), Azərbaycan Xalq yazıçısı (1998), “Şərəf nişanı” ordeni (1980), “Xalqlar dostluğu” ordeni (1980), “Şöhrət” ordeni (1999), ABŞ Kino Akademiyasının “Oskar” mükafatı (1996) sənətdə öz xüsusi dəst-xətti, orijinal fərdi üslubu olan kino ustasının parlaq ilhamının, tükənməz cəsarətinin, coşğun yaradıcılıq axtarışlarının, dərin ağıl və zəkasının, yüksək intellektual səviyyəsinin, gərgin zəhmətinin bəhrəsi və məntiqi nəticəsi idi.

1969-cu ildə “Bir cənub şəhərində” filmindən başqa R.İbrahimbəyovun ssenariləri əsasında çəkilmiş daha iki kino əsəri – “Səhranın bəyaz günəşi” (V.Yejovla birgə, “Mosfilm”) və “Çekist haqqında povest” (Odessa kinostudiyası) diqqəti cəlb edir. Maraqlıdır ki, “Səhranın bəyaz günəşi” vaxtilə SSRİ-də ən çox tamaşaçı toplayan filmlərdən biri olmuş, dünyanın 100 ölkəsinə satılmışdır. Hətta Sovet kosmonavtları kosmosa uçmazdan əvvəl bir qayda olaraq bu kinolentə baxırdılar. 1979-cu ildə “Səhranın bəyaz günəşi”, “Çekist haqqında povest” filmlərinin ssenarilərinə, eləcə də “Qum üzərində ev”, “İstintaq və ya həqiqət anı” pyeslərinə görə R.İbrahimbəyov “Ümumittifaq komsomolu” mükafatına layiq görülmüşdür.

Rüstəm İbrahimbəyovun pyeslərindən söz düşmüşkən, müəllifin özü “Seçilmiş pyeslər” (Bakı, 2009) nəşrində belə deyirdi: “Mən ilk pyesimi 1971-ci ildə Georgi Aleksandroviç Tovstonoqovun təklifi ilə yazdım (“Drujba Narodov” jurnalında çap olunmuş “9-cu Xrebtovı” povestim onun xoşuna gəlmişdi). Ali ssenari kurslarını bitirdikdən sonra həmin vaxta qədər kinoda uğurla işləmişdim, lakin teatra bir qədər başqa cür yanaşırdım – aktyorların səhnə hərəkətləri mənə süni, həddindən artıq əhatəli və qabarıq görünürdü” (İbrahimbəyov, 2009).

Rüstəm İbrahimbəyovun 50-yə yaxın pyesi vardır. O, 70-ci illərdə SSRİ-də ən çox əsəri oynanılan dramaturqlardan biri olmuşdur. Təkcə “Şirə bənzər” pyesi SSRİ-nin, Avropanın və Amerikanın 100-dən artıq teatrında tamaşaya qoyulmuşdur. 2000-ci ildə o, Türkiyədə, 2001-ci ildə isə Azərbaycanda tamaşaya quruluş vermişdir.

Svetlana Rəhim qızı “Kadr...yenə kadr... və ömür” məqaləsində haqlı olaraq qeyd edir ki, Rüstəm İbrahimbəyovun hər yeni qələbəsini hansı ölkədə, hansı dildə elan etsələr də soyadı ilə yanaşı iki müqəddəs kəlmə - Azərbaycan və Bakı sözləri yazılır. Vətənin, torpağın əsl vətəndaşı, övladı olmaq üçün heç bir uzaqlığı yoxdur. Təki qəlbən, ruhən, düşüncədə torpağına bağlı olasan!

Ona görə də nə qədər imkanlar, təkliflər olsa da Rüstəmin həyatı, döyünən ürəyi və arxa-dayağı yenə doğma Azərbaycan, ən gözəl şəhər saydığı əziz Bakısıdır ("Xalq" qəzeti, 1999).

Doğma Bakı, onun cazibədar görkəmi, özünəməxsus abu-havası R.İbrahimbəyovun kinossenarilərində, digər əsərlərində xüsusi məhəbbətlə, ilhamla təsvir olunur və rejissorlar tərəfindən böyük ehtirasla, yaradıcılıqla ekrana köçürülür, Bakını birgə gəzən və seyr eləyən tamaşaçıda xoş əhval-ruhiyyə oyadır. "Bir cənub şəhərində", "Ad günü", "İstintaq", "Bağlı qapı arxasında", "İşgüzar səfər", " Özgə ömür", və s. filmlər dediklərimizə ən yaxşı sübutdur.

1968-ci ildə R.İbrahimbəyovla O. Mirqasımovun birgə yazdıqları ssenari əsasında rejissor O.Mirqasımovun lentə aldığı "Bu, həqiqətin səsidir" (Bəstəkar Qara Qarayev) tammetrajlı sənədli filmi tamaşaçıların mühakiməsinə verilmiş, az bir zamanda istər tamaşaçılar, istərsə də kino tənqidi tərəfindən yüksək qiymətləndirilmişdir. Bu film 1969-cu ildə Kiyevdə 3-cü Zaqafqaziya və Ukrayna respublikaları filmlərinin "Prometey-69" zona kinofestivalında I mükafat, həmin il İrəvanda Zaqafqaziya respublikaları xronikal-sənədli, elmi-kütəvi və televiziya filmlərinin "Prometey-69" kino baxışında I priz almış, 1970-ci ildə yaradıcı heyət Azərbaycan komsomolu mükafatı laureatı fəxri adına layiq görülmüşdür.

1978-ci ildə hər iki sənətkar yenidən bu mövzuya qayıtmış və bəstəkarların həyat və yaradıcılığından bəhs edən "Qara Qarayev – 60" sənədli filmini çəkmişlər.

Bundan sonra həmyerlimizin ssenariləri üzrə bir-birinin ardınca "Qırğızfilm" kinostudiyasında "Bunun eybi yoxdur..." (1970, M.Qaparovun iştirakı ilə "Mosfilm" kinsotudiyasında "Müharibənin sonunda sakit gün" (1970) qısametrajlı, M.Qorki adına kinostudiyada "Onda mən də "Yox" dedim" (1973) tammetrajlı, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında "Nəğmə dərsi" (1974, "Ömrün səhifələri" kinoalmanaxı) qısametrajlı, "Ürək, ürək" (1976) tammetrajlı bədii filmləri istehsal olunmuşdur.

70-ci illərin əvvəllərində bir qrup gənc rejissorluq peşəsinə yiyələnmək üçün Moskvaya, Ali rejissorluq kurslarına göndəriləndə onların arasında Rüstəm İbrahimbəyov da var idi. O, kurslara oxumağa getməmişdən əvvəl kinostudiyada buraxılan "Mozalan" satirik kinojurnalına nəinki süjetlər yazmış ("Arzu", "Kontor", "Nə haqla?", "İlişdim"), hətta rejissorluq sahəsində də öz gücünü "Təki dam olsun" kinosüjetində ("Mozalan" № 9) sınamışdı. Onun kinoda rejissorluq debütü məhz bu kinosüjetlə bağlıdır.

1974-cü ildə kursu bitirib rejissor peşəsinə yiyələnəndən sonra o, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Günlərin bir günündə" kinoalmanaxının (1976) "Süita" novellasını çəkmişdir. Ssenarini isə R.Qabriadze ilə birgə yazmışdır. Buna qədər onun "Ezamiyyətdə və evdə" adlı ilk kitabı (1970), "Bir cənub şəhərində" (1972), "Unudulmuş avqust" (1974) və s. kitabları respublika və ümumittifaq nəşriyyatlarında çap olunmuş, sonralar isə onun "Təmas", "Park", "Günəş qəfəsi", "Ultimatum" və s. kitabları işıq üzü görərək dünyanın bir çox dillərinə tərcümə olunmuşdur.

Bir məqamı da xüsusilə qeyd etmək lazımdır ki, Rüstəm İbrahimbəyov bir yazıçı, bir rejissor kimi öz oxucusunun, öz tamaşaçısının fikrini daima nəzərə alır, oxucu fikrinə, tamaşaçı düşüncəsinə hörmətlə yanaşır və qeyd edirdi ki, tamaşaçısız kino əsəri olmur: "Şəxsən məni tamaşaçı maraqlandırır. Əsər dəniz kimi olmalıdır. Üzə bilməyənlər elə bir balaca sahildə yaxalanacaq, üzə bilənlər suya girəcək, yaxşı üzgüçülər isə daha dərinlərə baş vuracaqlar".

1970-ci ildə Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinin məzunu olan Nikita Mixalkov "Müharibənin sonunda sakit bir gün" adlı diplom filmini çəkir. Bundan sonra onların arasında sıx əməkdaşlıq başlayır və sonrakı illərdə kinematoqrafçılar birlikdə "Urqa – məhəbbət ərazisi", "Gunəşdən usanmışlar", "Sibir bərbəri" kimi çox uğurlu filmlərin ərsəyə gəlməsinə nail olurlar. Sonralar müsahibələrinin birində Nikita Mixalkov Rüstəm İbrahimbəyovu xatırlayaraq deyirdi: "Birgə bir neçə ssenari yazdıq, sıx əməkaşlıq etdik. İş prosesində, görüşlərimizdə xalq koloritini, incə yumor hissini, dərin düşüncəni gördüm. Hətta rus kadetlər haqqında ssenarini yazanda da belə idi. Bütün bunlar mənim üçün ibrətamiz idi və mənə çox şey verdi. Bu elə bir hissdir ki, sən başqa mədəniyyətə sadəcə göründüyü

qədər deyil, dərinliklərinə vararaq öyrənirsən, gözə çarpmayan tərəfdən nüfuz edə bilirsən. Bütün bunlar mənim üçün çox qiymətlidir".

1977-ci ildə yaradılmış "Ad günü" televiziya filmi ilə kinodramaturq R. İbrahimbəyov və kinorejissor R. Ocaqovun uzunmüddətli və etibarlı zəmin üzərində qurulmuş birgə yaradıcılıq əməkdaşlığının əsası qoyuldu. Lirik-psixoloji janrda çəkilmiş, əxlaqi-etik məsələlərə toxunan, müasirlərimizin mənəvi aləminin zənginliyini tədqiq edən " Ad günü" filmi 1979-cu ildə Bakıda Ümumittifaq televiziya filmləri festivalında I mükafat, 1980-ci ildə Berlində ADR televiziyasının diplomunu almış, həmin il yaradıcı heyət Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

70-ci illərin sonu 80-ci illərin əvvəllərində Rüstəm İbrahimbəyovun ssenariləri əsasında "Azərbaycanfilm" kinostudiyasında daha bir neçə film çəkildi. "Bir ailəlik bağ evi", "İstintaq", "Anın quruluşu", "Bağlı qapı arxasında", "İşgüzar səfər", "Yeddi gözəl" (film-balet, M.İbrahimbəyovla birgə), "Gəmi saatının sirri" (A. Dovjenka adına kinostudiya ilə birlikdə), "Park", "Özgə ömür", "Ölsəm, bağışla", keçmiş SSRİ-nin müxtəlif studiyalarında "Risqin strategiyası" ("Ekran", Mərkəzi televiziya, Moskva, 3 seriyalı), "Sevgi ilə qarışıq" (SSRİ-BXR), "Hifz et məni, tilsimim" (A. Dovjenka adına kinostudiya ilə birlikdə), "Vurulmamış sillə" (M.Qorki adına kinostudiya ilə birgə), "Sərbəst enmə" ("Mosfilm") çəkilib ekranlara buraxılmışdır. Bu filmlər arasında rejissor Rasim Ocaqovun çəkdiyi "İstintaq" filmi xüsusilə fərqləndi. Sosial mövzuda çəkilmiş bu psixoloji dram 1980-ci ildə Düşənbədə keçirilən XIII Ümumittifaq kinofestivalında ən yaxşı bədii filmə görə Baş mükafatı almış, 1981-ci ildə yaradıcı qrup SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycanda "Arşın mal alan" (1945) filmindən sonra "İstintaq" sayca ikinci filmdir ki, bu mükafata layiq görülürdü. SSRİ Dövlət mükafatı sovet dövründə ali mükafat hesab olunurdu. Filmin istehsalından 44 il keçməsinə baxmayaraq, bu kino əsərinin ictimai və vətəndaşlıq əhəmiyyəti azca da olsun azalmamış, əksinə, bu gün film aktuallığını daha da artırmışdır. Onu da qeyd etmək lazımdır ki, sadaladığımız "Park", "Bağlı qapı arxasında", "Özgə ömür", "Ölsəm, bağışla" (rejissor Rasim Ocaqov) filmləri də müxtəlif festivallardan əliboş qayıtmamış, Azərbaycan kinosuna uğurlar qazandırmışdır (Kazımzadə, 2002).

Göründüyü kimi, öz kredosu ilə sənətə gələn Rüstəm İbrahimbəyov istər nəsrdə, teatrda, istərsə də kinoda eyni səviyyədə, eyni qüvvə və inamla çalışır, iri və kiçik həcmli əsərlər üzərində eyni həvəslə, ciddiliklə və məsuliyyətlə işləyir. Məsələn, "Neft çağırır", "Son söz" , "İstirahət gecəsi", "Səfillər" sənədli filmlərində çox vacib və aktual problemlərə toxunur, alkoqolun insan psixikasına məhvedici təsirindən, çox vaxt bunun cinayətlə qurtaran faciəli nəticələrindən, Bakının ən gözəl güşələrindən biri olan Gülüstan sarayında adamların işdən sonra necə istirahət etmələrindən, müalicə-əmək prafloktoriyasına düşən insanların acı taleyindən, "Başlanğıc" və "Bir axşam ..." cizgi filmlərində yer üzündə sülhün qorunub saxlanılmasının vacibliyindən və. s məsələlərdən danışır.

Rüstəm İbrahimbəyovun qələminin məhsulu olan və 90-cı illərdə ekranlara çıxmış "Qətldən yeddi gün sonra" , "Avtostop", "Həm ziyarət, həm ticarət" , "Çalışqan adam", "Ailə", "Dağıdılmış körpü" , "Misteriya", "Əqrəbin qulaqlarından tutmayın" və. s bədii filmlərin qəhrəmanları da şəxsi ləyaqət, ədalət naminə mübarizə aparırlar. Əsasını estetik və mənəvi dəyərlər təşkil edən bu filmlərdə müəllif baş verən hadisələri ictimai-psixoloji kontekstdə araşdırır, şəxsiyyət və onun əhatəsi problemini tədqiq edir.

1998-ci ildə Rüstəm İbrahimbəyov rejissor, ssenari müəllifi, prodüseri olduğu "Ailə" filmini çəkir. Filmdə azərbaycanlı ailələrindən birinin həyatı və bu ailənin dağılmasından söhbət gedir. Bu ailə qeyri-adidir. Doğrudur, o, düzgün prinsiplər əsasında qurulmuşdur, ancaq zor gücünə, süni yolla dağıdılmışdır. Bu ailə sovet hakimiyyətinin qanunları ilə birbaşa əlaqələndirilirdi. Dramaturq bu mövzuda 70-ci illərdə əvvəlcə pyes yazmışdı, lakin onu Moskva Bədaye Akademik Teatrında tamaşaya qoymaq qadağan olunmuşdur. Hətta müəllif antisovet əsər yazmaqda günahlandırılmışdır. Lakin gec də olsa ədalət öz yerini tapdı. Pyesin kino variantı ekrana çıxdı və hətta III Yevraziya teleforumunda (Moskva 2000) televiziya filmləri və proqramlarının yaradıcılıq müsabiqəsinin qalibi diplomunu almışdır.

Dramaturq 2000-ci illərdə də bir çox uğurlu filmlərin müəllifi olur: "Etimad telefonu", "Ovsunçu", "Köçərilər" , "Əlvida, cənub şəhəri", "Üç qız", "Cənnət quşları" , "Kabusun gözüylə", "Çılğın, qəzəbli, çox qəzəbli", "Qafqaz üçlüyü" və .s. Çoxsaylı tamaşaçı marağına səbəb olan "Ovsunçu" filmində hadisələr XX əsrin əvvəllərində, konkret olaraq 20-ci illərdə Azərbaycanda sovet hakimiyyəti qurulması zamanı baş verir və bu hadisələrin xalqımızın mənəviyyatına göstərdiyi təsirdən, totalitarizm təfəkkürünün yerli camaatın beyninə zorakılıqla yeridilməsindən danışılır. Film uzun müddət fasilədən sonra bir araya gələn Rüstəm İbrahimbəyov və Oqtay Mirqasımovun ilk bədii film işi idi. Filmin əsas ideyasını zorla, zülmlə mövcud quruluşu dəyişmək olar, amma millətin zəkasında, hafizəsində dərin kök salmış mənəviyyatı zor gücünə başqası ilə əvəz etmək o millətin faciəsidir və zora, zülmə arxalananların özlərinin də son aqibətinin məhvinə aparıb çıxardacağına söykənir lozunqu təşkil edirdi.

Rüstəm İbrahimbəyov qazax xalqlarının tarixinə həsr olunmuş "Köçərilər" filminin ssenari müəllifi olmaqla yanaşı, həm də prodüsseri idi. Film Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin sifarişi ilə çəkilmişdir. Qazax millətinin özünütəsdiqi üçün dəyərli olan filmin çəkilişlərində dünyada çox məşhur olan kino mütəxəssisləri iştirak edirdilər.

## Nəticə

R.İbrahimbəyov prodüserlik fəaliyyətinə hələ 1989-cu ildən başlamışdır. Prodüser kimi onun "Taksi-blüz" (1989), beynəlxalq festivalda ən yaxşı rejissor işinə görə priz, (Kann, 1990), Dyuba-Dyuba (1992), "Parisi görmək və ölmək" (1994) və.s filmləri vardır. Onun prezidenti olduğu "İbrus" kinoşirkəti iki tammetrajlı, bir qısametrajlı ("Salandar", Fransa ilə birgə, rej. Rafi Pitts) və iki videofilm istehsal etmişdir.

Şair və dramaturq Ramiz Rövşən "Rüstəm İbrahimbəyov gəmisi" məqaləsində yazmışdır. "Bu gün Rüstəmin özünün də, filmlərinin də sorağı dünyanın hər yerindən gəlir. Rüstəm bu gün Azərbaycan mədəniyyətinin, əgər belə demək mümkündürsə, dünya mədəniyyəti sularında üzən ən böyük gəmilərindən biridir, hüquqi cəhətdən gəmi dünyanın harasında olursa-olsun, yenə öz ölkəsinin toxunulmaz ərazisi sayılır. Və Azərbaycan adlı bu məmləkətin Rüstəm İbrahimbəyov adlı övladıyla, filmi Oskar mükafatı alan sənətkarıyla öyünməyə haqqı var" ("Kino" qəzeti, 1994).

## Ədəbiyyat

1. "Sovet Ekranı" kinojurnalı. (1973). №7, s. 8.
2. İbrahimbəyov, R. (2009). "Seçilmiş pyeslər". Bakı.
3. "Xalq" qəzeti, (1999). 28 yanvar.
4. Kazımzadə, A. (2002). "Azərbaycan Kinematoqrafçıları". 1-ci kitab.
5. "Kino" qəzeti. (1994).

Göndərilib: 05.09.2023 Qəbul edilib: 16.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/24-27

**Aynur Məmmədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
mehribanks@mail.ru

# AZƏRBAYCANIN MALİYYƏ SİSTEMİNİN HAZIRKİ VƏZİYYƏTİ

## Xülasə

Ölkədə maliyyə sisteminin rolu həm makro, həm də mikro səviyyədə geniş təkrar istehsal üçün şəraitin yaradılmasından, makro və mikro səviyyədə geniş təkrar istehsalın tələbatının real təmin edilməsindən ibarətdir. Bundan başqa, maliyyə sistemi Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində ölkə vətəndaşlarının sosial təminatının reallaşdırılmasından ibarətdir. Məqalədə Azərbaycanın maliyyə sisteminin tərkibi və hazırki vəziyyəti araşdırılmışdır. Azərbaycanın dövlət maliyyəsinin dövlət büdcəsindən, büdcədənkənar fondlardan, dövlət kreditindən, sığorta fondlarından və fond bazarından, müxtəlif mülkiyyət formasında olan müəssisələrin maliyyəsindən ibarət olmasına diqqət yetirilmişdir. Məqalədə maliyyə sisteminin hazırkı vəziyyəti dövlət büdcəsinin, Sosial Müdafiə Fondunun və fond bazarının göstəriciləri əsasında təhlil edilmişdir.

***Açar sözlər:*** *maliyyə, büdcə, büdcədənkənar fondlar, birja, fond bazarı, qiymətli kağızlar, kapital*

**Aynur Mammadova**
Azerbaijan State Agrarian University
mehribanks@mail.ru

# The current state of the financial system of Azerbaijan

## Abstract

The role of the financial system in the country is to create conditions for wide reproduction both at the macro and micro level, and to realistically meet the demand for wide reproduction at the macro and micro level. In addition, the financial system consists of the realization of social security of the country's citizens within the framework of the Constitution of the Republic of Azerbaijan. The composition of the financial system of Azerbaijan and its current situation are discussed in the article. Attention has been paid to the fact that the state finances of Azerbaijan consist of the state budget, extra-budgetary funds, state credit, insurance funds and the stock market, and the finances of enterprises with different forms of ownership. In the article, the current state of the financial system was analyzed based on the indicators of the state budget, the Social Protection Fund and the stock market.

***Keywords:*** *finance, budget, off-budget funds, stock exchange, stock market, securities, capital*

## Giriş

Maliyyə sistemi elmi kateqoriya olaraq müxtəlif mənbələrdə fərqli izah edilir. Maliyyə sistemi maliyə institutlarından (maliyyə fəaliyyətini həyata keçirən və tənzimləyən təşkilatlar, idarələr) və maliyyə proseslərinin baş verməsi üçün lazım olan şəraiti yaradan maliyyə alətlərindən ibarətdir (Medvedeva, Kutuzova, 2017: 357).

Bizim fikrimizcə, maliyyə sisteminin elmi mahiyyətini açıqlayan, ölkədə maliyyə münasibətlərinin təşkilini sistemləşdirən tərif aşağıdakı kimi olsa daha yaxşı olar: maliyyə sistemi maliyyə münasibətlərinin ictimai təkrar istehsalda müxtəlif rolu olan, hər biri pul vəsaitlərinin formalaşmasının, bölüşdürülməsinin və istifadəsinin özünəməxsus xüsusiyyətləri ilə səciyyələnən müxtəlif sahələrinin və həlqələrinin və maliyyəni idarə edən dövlət və korporativ orqanların məcmusudur.

Tarixi inkişafın müxtəlif mərhələlərində cəmiyyətin tələbatlarının müəyyən hissəsi yalnız dövlət tərəfindən maliyyələşdirilə bilər. İqtisadi inkişafın hazırki mərhələsində cəmiyyətin bu cür tələbatlarına milli müdafiə və dövlət təhlükəsizliyini, ictimai asayişin qorunmasını, kosmik tədqiqatları, bəzi sahələrin investisiya və innovasiya təminatını, sosial təminatı, təhsili, səhiyyəni, idmanı, mədəniyyəti və qeyri-istehsal sferasının bir çox sahələrini, poçt xidmətlərini və s. aid etmək olar (Medvedeva, Kutuzova, 2017: 357).

Azərbaycan Respublikasının maliyyə sistemi dövlətin öz funksiyalarını və vəzifələrini yerinə yetirməsi, habelə geniş təkrar istehsal prosesinə xidmət etmək üçün lazım olan pul vəsaitlərinin yaradılması, bölüşdürülməsi və istifadəsi ilə bağlı yaranan maliyyə münasibətlərinin məcmusudur. Azərbaycanın dövlət maliyyəsi dövlət büdcəsindən, büdcədənkənar fondlardan, dövlət kreditindən, sığorta fondlarından və fond bazarından, müxtəlif mülkiyyət formasında olan müəssisələrin maliyyəsindən ibarətdir.

Dövlət büdcəsi pul vəsaitlərinin ümumdövlət fondudur. Bu vəsaitlər istehsalı genişləndirmək və elmi-texniki tərəqqini sürətləndirmək, iqtisadiyyatın ərazi və sahə strukturunun inkişafının təmin edilməsi, ehtiyat fondlarının yaradılması, elm, təhsil, səhiyyə və mədəniyyətə çəkilən xərclərin qabaqlanması, sosial təminat və sosial müdafiənin ehtiyaclarının ödənilməsi, dövlətin idarəetmə və inzibati orqanlarının və dövlətin müdafiəsi qüvvələrinin saxlanması üçün istifadə edilir.

Yuxarıda qeyd etdiyimiz kimi, maliyyə sistemi yalnız maliyyə münasibətlərinin sahə və həlqələrinin məcmusu deyil, həm də maliyyə təşkilatları sistemidir. Yəni maliyyə sisteminin institusional tərkibi də vardır. Maliyyə təşkilatlarının və idarələrinin məcmusu maliyyə sisteminin idarəetmə aparatını təşkil edir. Maliyyə sisteminin sferalarına dövlət maliyyəsi, yerli maliyyələr (mərkəzləşdirilmiş maliyyə) və təsərrüfat subyektlərinin maliyyəsi (qeyri-mərkəzləşdirilmiş maliyyə) aiddir.

Təsərrüfatçılıq subyektlərinin maliyyəsi kommersiya təşkilatlarının maliyyəsi, qeyri-kommersiya təşkilatlarının maliyyəsi və fərdi sahibkarların maliyyəsindən ibarətdir.

İqtisadi, siyasi və sosial məsələlərin həll edilməsi zamanı dövlətin və yerli özünüidarəetmə orqanlarının maliyyə tələbatlarını təmin edən mərkəzləşdirilmiş pul fondunun formalaşdırılması, bölgüsü və istifadəsi ilə bağlı dövlət hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları bir tərəfdən, digər tərəfdən isə hüquqi və fiziki şəxslər arasında yaranan pul münasibətləri dövlət və bələdiyyə maliyyəsidir. Deməli, dövlət və yerli özünüidarəetmə orqanlarının maliyyəsi vergi vasitəsilə milli gəlirin bölgüsü və yenidən bölgüsü üsullarından istifadə etməklə formalaşdırılır. Pul vəsaitlərinin mərkəzləşdirilmiş fondlarından istifadə formaları iqtisadiyyatın tənzimlənməsi, vətəndaşların sosial tələbatlarının ödənilməsi, dövlət idarəçiliyi və müdafiəsi və digər iqtisadi, siyasi və sosial məsələlərin həlli üçün istifadə edilən büdcə və büdcədənkənar fondlardır.

Dövlət büdcəsi maliyyə sistemində ən vacib əhəmiyyətə malikdir. Onun vasitəsilə maliyyə resursları dövlətin sərəncamına səfərbər edilir. Onların hesabına isə məqsədli dövlət və regional proqramlar (milli layihələr), dövlətin fəaliyyəti, sosial sahə, iqtisadiyyatda struktur dəyişiklikləri, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi və s. maliyyələşdirilir. Dövlət büdcəsi qarşılıqlı əlaqədə olan iki hissədən - gəlir və xərclər hissəsindən ibarətdir.

Büdcə gəlirləri – qanunvericiliyə uyğun olaraq əvəzsiz və qaytarılmamaq şərti ilə dövlətin müvafiq səviyyədən olan hakimiyyət orqanlarının sərəncamına daxil olan pul vəsaitləridir (Matrosova, 2016: 492). Dövlət büdcəsinin gəlir hissəsində daxilolmaların mənbəyi və onların kəmiyyət xarakteristikaları göstərilir. Büdcə xərcləri dövlətin öz vəzifə və funksiyalarını yerinə yetirməsi ilə əlaqədar yaranan xərclərdir.

Xərclərin sosial mahiyyəti ondan ibarətdir ki, onların vasitəsilə dövlət sosial siyasətini həyata keçirir, işçi qüvvəsinin təkrar istehsalını təmin edir. Beləliklə, dövlət büdcəsinin xərcləri dövlətin başlıca funksiyalarını və vəzifələrinin həyata keçirilməsini təmin edir. Büdcə xərclərinin konkret növləri bir sıra amillə müəyyən olunur. Bunlar dövlətin təbiəti və funksiyalarıdır, ölkənin sosial-iqtisadi inkişafının səviyyəsidir, büdcənin xalq təsərrüfatı ilə əlaqələrinin şaxəli olması, dövlətin inzibati-ərazi quruluşu, büdcə vəsaitlərinin təqdim olunması formaları və sairədir. Büdcə xərcləri onun gəlirləri hesabına və onun kəsirinin maliyyələşdirilməsi mənbələri hesabına qarşılanmalıdır.

Azərbaycan Respublikasının dövlət büdcəsinin gəliri 2020-ci ildə 26077,9 milyon manat, xərcləri isə 26416,3 milyon manat olmuşdur. 2022-ci ildə bu göstəricilər müvafiq olaraq 30940,7 milyon manat və 32063,1 milyon manat olmuşdur. Gəlirlər üzrə artım 18,6 %, xərclər üzrə 21,4 % olmuşdur. 2020-ci ildə dövlət büdcəsinin gəlirlərinin 43 %-i vergilər hesabına, 57 %-i sair daxilolmalar hesabına formalaşmışdır. 2022-ci ildə isə bu göstəricilər müvafiq olaraq 67% və 33% olmuşdur. Tədqiqat apardığımız dövrdə vergi daxilolmaları 24% artmışdır (3).

Yerli büdcə yerli özünüidarəetmə orqanlarının üzərinə qoyulmuş vəzifə və funksiyaları yerinə yetiməsi üçün lazım olan pul vəsaitlərinin fondudur. Bu, yerli özünüidarəetmə orqanlarının maliyyə resurslarının əsasıdır.

Büdcədənkənar fondlar müəyyən ictimai tələbatların ödənilməsini maliyyələşdirmək məqsədilə və operativ müstəqillik əsasında xərclənən maliyyə resurslarının yenidən bölgüsü və istifadəsi üzrə iqtisadi münasibətləri ehtiva edir. Büdcədənkənar fondlar konkret məqsədləri həyata keçirmək üçün yaradılır, onların yaradılması zərurəti isə cəmiyyətin büdcədə nəzərdə tutulmayan vacib sosial və digər tələbatlarını maliyyələşdirmək üçün maliyyə resurslarının yenidən bölgüsünə olan obyektiv tələbat ilə şərtlənir. Bu fondların köməyi ilə iki əsas məsələ həll edilir: iqtisadiyyatın önəmli sahələrinin əlavə vəsaitlərlə təmin edilməsi və əhali üçün sosial xidmətlərin maliyyələşdirilməsinin həcminin genişləndirilməsi (Fedulova, 2018: 580).

Büdcədənkənar fondlar təşkilat olaraq dövlət büdcəsindən ayrıdır və ayrıca fəaliyyət göstərirlər. Dövlətin büdcədənkənar fondlarına Azərbaycan Respublikasının Sosial Müdafiə Fondu və Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta Fondu daxildir. Onlar ölkə vətəndaşlarının sosial təminata və pulsuz tibbi yardıma olan konstitusiya hüquqlarının qorunması üçün formalaşdırılır.

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi 5606, 3 milyon manat məbləğində təsdiq edilmişdir. 2023-cü ildə isə müvafiq olaraq 6267,9 milyon manat olmuşdur. Tədqiqat apardığımız dövrdə fondun büdcəsi 19 % artmışdır (3).

Dövlət Sosial Müdafiə Fondunun gəlirləri məcburi dövlət sosial sığorta haqları, sair gəlirlər və dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait hesabına formalaşdırılır. Onların həcmi 2022-ci ildə müvafiq olaraq 4 361,7 milyon manat, 12, 6 milyon manat və 1231, 9 milyon manat olmuşdur. 2023-cü ildə isə bu göstəricilər müvafiq olaraq 4 783, 6 milyon manat, 12, 6 milyon manat və 1 467, 8 milyon manat olmuşdur. Tədqiqat apardığımız dövrdə fondun gəlirləri əsasən məcburi sosial sığorta haqqları 77,8 % və dövlət büdcəsindən ayrılan vəsait 21, 9% hesabına formalaşmışdır. 2023-cü ildə isə bu rəqəmlər 76,3 % və 23,4% olmuşdur.

Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin xərclərinin əsas hissəsi əhaliyə ödənişlərə xərclənmişdir – 5431,2 milyon manat. Bu büdcənin 96, 9%-i qədər olmuşdur. 2023-cü ildə isə bu göstəricilər müvafiq olaraq 6077,6 milyon manat və 96, 7% olmuşdur (3).

Dövlət krediti dövlətin borc alan, zəmanət verən və kreditor qismində çıxış etdiyi pul münasibətləridir. Öz kredit formasına görə bu pul münasibətləri maliyyə münasibətlərində xüsusi yer tuturlar. Büdcə münasibətlərinin əsas hissəsi maliyyələşdirmə əsasında qurulur, yəni vəsaitlərin birtərəfli hərəkəti və əvəzsizlik əsasında. Və yalnız dövlət krediti dəyərin müddət, ödəniş və geri qaytarılmaq şərtləri əsasında hərəkətini nəzərdə tutur. Kredit münasibətlərinə borcalan qismində girərək dövlət öz maliyyə resurslarını artırır, kreditor qismində girərək isə vəsaitlərin xərclənməsini həyata keçirir. Bu münasibətlərdə dövlətin zamin kimi çıxış etməsi xüsusi yer tutur. Üçüncü şəxslərin öhdəlikləri üzrə təminat verərkən dövlət birinci mərhələdə öz maliyyə vəsaitlərini xərcləmir. Lakin gələcəkdə belə xərclərin olması ehtimalı böyükdür və təminatla nəzərdə tutulan öhdəlik yerinə yetirilməli olduqda vəsaitlər xərclənəcək. Bu səbəbdən də ayrılan zəmanətlər mütləq ciddi uçota alınmalıdır və dövlət borcunun tərkibində qeyd edilməlidir (Karanina, 2015: 230).

Fond bazarı dövlət, korporativ və digər qiymətli kağızların dövriyyəsi ilə bağlı maliyyə münasibətləridir (Dolganova, Isakova, Istomina i drugiye, 2019: 336). Fond bazarının əsas vəzifəsi kapitalın yüksək gəlirli sahələrə axınını təmin etməkdir. Fond bazarı müvəqqəti azad olan pul vəsaitlərinin səfərbər edilməsi və səmərəli istifadəsinə xidmət edir. Fond bazarının özəlliyi ondan

ibarətdir ki, bazar iştirakçıları banka qoyduqları puldan daha çox gəlir götürməyə hədəflənirlər. Lakin böyük gəlir daha böyük riskin olmasını nəzərdə tutur. Azərbaycanda bu gün yeganə fond birjası Bakı Fond Birjasıdır.

Qiymətli kağızlar bazarı maliyyə bazarının bir hissəsidir, burada kapitalın cəlb olunması, qiymətli kağızların buraxılması və dövriyyəsi hesabına yenidən bölgüsü həyata keçirilir. Bununla yanaşı, müasir fond bazarının strukturunda törəmə maliyyə alətləri bazarı da seçilir (Tatyannikov i drugiye, 2019: 496). Azərbaycanda kapital bazarının həcmi 2020-ci ildə 5500,1 milyon manat olmuşdur. Bu göstərici əvvəlki dövrlə müqayisədə dəyişməmişdir. 2023-cü ilin səkkiz ayında isə bazarın həcmi 6979,2 milyon manat olmuşdur (3).

## Nəticə

Beləliklə, dövlət və bələdiyyə maliyyəsinin həlqələrinə Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi, bələdiyyələrin büdcəsi (yerli büdcələr), dövlətin büdcədənkənar məqsədli fondları, dövlət krediti, dövlətin sığorta fondu və fond bazarları aiddir.

Dövlət krediti dövlətin borc alan, zəmanət verən və kreditor qismində çıxış etdiyi pul münasibətləridir. Öz kredit formasına görə bu pul münasibətləri maliyyə münasibətlərində xüsusi yer tuturlar. Bu münasibətlərdə dövlətin zamin kimi çıxış etməsi xüsusi yer tutur. Üçüncü şəxslərin öhdəlikləri üzrə təminat verərkən dövlət birinci mərhələdə öz maliyyə vəsaitlərini xərcləmir. Lakin gələcəkdə belə xərclərin olması ehtimalı böyükdür və təminatla nəzərdə tutulan öhdəlik yerinə yetirilməli olduqda vəsaitlər xərclənəcək. Bu səbəbdən də ayrılan zəmanətlər mütləq ciddi uçota alınmalıdır və dövlət borcunun tərkibində qeyd edilməlidir.

Fond bazarı dövlət, korporativ və digər qiymətli kağızların dövriyyəsi ilə bağlı maliyyə münasibətləridir. Fond bazarının əsas vəzifəsi kapitalın yüksək gəlirli sahələrə axınını təmin etməkdir.

## Ədəbiyyat


1. Medvedeva, S.N., Kutuzova, T.F. (2017). Finansy: Uchebnoye posobiye. SPb GUAP. 357 s.
2. Matrosova, V.A. (2016). Finansı, Uchebnoye posobiye. NTU: “XPİ”, 492 s.
3. https://www.stat.gov.az/
4. Fedulova, S.F. (2018). Teoriya i praktika finansov: Uchebnik / S.F. Fedulova.– Izhevsk, Izd-vo Institut ekonomiki i upravleniya, FGBOU VPO «UdGU», 580 s.
5. Karanina, Y.V. (2015). Uchebnik dlya studentov,– Kirov: FGBOU VO «VyatGU», 230 s.
6. Dolganova, YU. S., Isakova, N.YU., Istomina, N.A. i drugiye. (2019). Finansy: uchebnik; Yekaterinburg : Izd vo Ural. un ta, 336 s.
7. Tatyannikov, V. A. i drugiye. (2019). Rynok tsennykh bumag : uchebnik. Yekaterinburg : Izd-vo Ural. un-ta, 496 s.


Göndərilib: 30.08.2023 Qəbul edilib: 17.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/28-30

**Sevinc Hacıyeva**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
sevindjgadzhieva@gmail.com

# QLOBALLAŞMA PROSESİNDƏ DİLÇİLİYİN ƏSAS ÜNSÜRÜ KİMİ KOMMUNİKATİV ƏLAQƏLƏRİN ROLU VƏ AZƏRBAYCAN DİLÇİLİYİNDƏ TƏZAHÜRÜ

**Xülasə**

Məqalədə qloballaşma prosesində dilçiliyin əsas ünsürü kimi kommunikativ əlaqələrin rolundan bəhs olunur. Bu gün qloballaşan dünyada müasir texnologiyaların rolu qeyd olunur. Texnoloji inkişaf prosesində isə kommunikativ münasibətlərin vacibliyi qeyd olunur. Kommunikasiya prosesinin inkişafı isə təbii ki, dilçilik məsələlərinə aiddir. Bu mənada elektron lüğətlərin hazırlanması sürətlə inkişaf edir. Bu proses qloballaşan dünyada kommunikativ münasibətlərin qurulmasına xidmət edir. Qloballaşan dünyaya inteqrasiya edən dövlətlərdən biri də Azərbaycandır.

***Açar sözlər:*** *dil, qloballaşma, Azərbaycan, kommunikasiya, texnologiya, inkişaf*

**Sevinj Hajiyeva**
Azerbaijan State University of Economics (UNEC)
sevindjgadzhieva@gmail.com

## The role of communicative relations as the main element of linguistics in the process of globalization and its manifestation in Azerbaijani linguistics

**Abstract**

The article talks about the role of communicative relations as the main element of linguistics in the process of globalization. Today, the role of modern technologies in the globalized world is highlighted. In the process of technological development, the importance of communicative relations is noted. The development of the communication process, of course, belongs to linguistics. In this sense, the process of preparing electronic dictionaries also serves to establish communicative relations in the globalized world. One of the states integrating into the globalized world is Azerbaijan.

***Keywords:*** *language, globalization, Azerbaijan, communication, technology, development*

## Giriş

Xalqın dili onun mövcudluğunun ilkin şərtlərindən biridir. Bununla yanaşı, dil etnik qrupun formalaşmasında mühüm rol oynayır və milli mədəniyyətin formalaşmasının ən mühüm tərkib hissəsidir. Ona görə də etnik kimlik və qloballaşmanın getdikcə artan proseslərinə daxil olma mədəni özünüifadənin əsas elementi kimi dil nəzərə alınmadan həll edilə bilməz. "İnkişaf edən təfəkkürlə qarşılıqlı əlaqədə olan əmək və mübarizənin getdikcə mürəkkəb formaları daha incə və məlumatlı idarəetmə tələb edir" (Andreyev, Korobov, 2014: 135).

**Qloballaşma termininin mahiyyəti.** Qloballaşma dövrümüzün aparıcı prosesi kimi yeni dünyanın qurulmasında dominant amilə çevrilir. Gələcək dünya düzəninin konturlarını böyük ölçüdə müəyyən edən obyektiv proses olan qloballaşma bu gün filosoflar tərəfindən fəal şəkildə şərh olunur. Qloballaşma prosesi linqvistik manipulyasiya yolu ilə milli düşüncəni öz maraqlarına uyğun dəyişdirir. XX əsrin ikinci rübündən etibarən qlobal inkişafda informasiya mübadiləsi praktikasına mühüm təsir göstərən proseslər baş verdi. Onların səbəbləri arasında qloballaşma meylləri ilə bağlı bir sıra əsaslı dəyişikliklər müşahidə edilir.

**Qloballaşmada kommunikativ ünsiyyət.** Son dövrlərdə dünya əhalisinin əhəmiyyətli bir hissəsi müxtəlif bilik və məlumatlara çıxış imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsi ilə

xarakterizə olunan yeni informasiya reallığına daxil oldu. Bu prosesin iştirakçıları hazırda real vaxtda hadisələrə daxil olmaq və onların iştirakçısı olmaq imkanı əldə edirlər.

Ümumiyyətlə, kompüter imkanlarının telekommunikasiya şəbəkələri ilə əlaqəsi zaman və məkanı "sıxışdırır", milli sərhədlərin əhəmiyyətini azaldır və fərdlərdə hansısa qlobal birliyə mənsub olmaq hissini yaradır. Eyni zamanda qloballaşma özü ilə sosial-iqtisadi və mədəni inkişafa da təkan verir. Qlobal kommunikasiya problemlərinə və kütləvi kommunikasiya materiallarının yayılmasına bilavasitə aid olanlara diqqət yetirək (Bolysheva, 2006: 124).

Hazırda qloballaşma demək olar ki, bütün sosial elmlərin tədqiqat obyektidir. Dərhal vurğulamaq lazımdır ki, qloballaşmanı hərtərəfli bir hadisə kimi tədqiq edərkən bu amilin öz konseptual dillərindən, öz xüsusi kateqoriyalarından istifadə etməklə bu elmi fənlər hələ də ümumi qəbul edilmiş və ya hamı tərəfindən qəbul edilmiş hər hansı mövqe inkişaf etdirə bilməmişlər. Çünki bu prosesin arxasında çoxşaxəli qlobal sosial tarixi hadisə dayanır.

Qloballaşmadan ilk dəfə Amerika alimlərinin danışdığı elmi ədəbiyyatda istifadə edilmişdir. Termin özü onu 1983-cü ildə Harvard Business Review jurnalında dərc etdirən T. Levitə aid edilir. Bu termin 1990-cı ildə "Sərhədsiz Dünya" kitabını nəşr etdirən Harvard Biznes Məktəbində yapon məsləhətçisi Kuniçi Ohmae tərəfindən işlənmiş və daha geniş məna kəsb etmişdir. 1987-ci ilə qədər ABŞ Konqresinin kitabxanasında adlarında "qloballaşma" termininindən istifadə olunmurdu. Lakin 90-cı illərin əvvəllərindən qloballaşma məsələlərinə həsr olunmuş məqalə və kitabların sayı sürətlə artmağa başladı. 1992-1995-ci illərdə qloballaşma ilə bağlı cəmi 13 kitab nəşr olunub (Madget, Belanger, Mount, 2005: 337-354).

Onlardan ən məşhuru S.Hantinqtonun "Sivilizasiyaların toqquşması", F.Fukuyamanın "Tarixin sonu" və Tarik Əlinin "Fundamentalizmlərin toqquşması" anlayışı ilə bağlıdır. 1997-ci ilə qədər qloballaşma nəzəriyyəçiləri qloballaşmanı dünya inkişafının prioritet tendensiyası kimi görürdü (Bolotov, Serikov, 2003: 60).

İnformasiya inqilabı həm də planetin ayrı-ayrı regionlarını birləşdirdi. Bu səbəbdən də qlobal iqtisadi dominant rolunu bərpa etmiş Qərb müasir dünyanın şüurlu qərbləşməsi strategiyasını gücləndirmək imkanı əldə etdi. Bu proses Azərbaycan dilçiliyinə də öz təsirini göstərmiş oldu.

**Qloballaşma prosesində dilçiliyin rolu.** Dilçiliyin qlobal aspektdə inkişafı, mədəniyyətin, iqtisadiyyatın, bir sözlə, xalqlararası elmi-mədəni, ictimai-siyasi inkişafın gücləndirilməsində mühüm rolu vardır. Müasir dövrün qarşısında duran əsas faktorlar yeni qlobal quruluş çərçivəsində birləşdirərək dünyanın müəyyən birləşməsi formasına nail olmaq, dünya resurslarının və dünya gəlirlərinin hərəkətinə qlobal nəzarətin qurulması, onun "ümumdünya iqtisadi interneti"nin – TMK və TNB-lərin birliyinin fəal iştirakı ilə yenidən bölüşdürülməsi və nəticədə mülkiyyət hüquqları üzərində qlobal nəzarətin qurulmasına gətirib çıxaran tədricən "sivilizasiya resurslarının kapitallaşması", müxtəlif proporsional sosial obyektlərin bazar idarəetmə sisteminə keçid" prinsiplərinə dayanır (Kagermazova, 2021: 49-55). Bu prosesin inkişafı Azərbaycanda xalqlararası kommunikasiyanın inkişafı üçün dilçilər tərəfindən xüsusi onlayn lüğətlərin tərtib edilməsi prosesi ilə müşahidə olundu.

Qloballaşmanın ən mühüm amillərindən biri texnologiyanın, ilk növbədə, elektronika, rabitə və nəqliyyat sahəsində sürətli inkişafıdır. Mikroprosessor texnologiyasının, rəqəmsal texnologiyaların və telekommunikasiyanın sürətli inkişafının bu sahədə əhəmiyyəti böyükdür (6).

## Nəticə

Hazırda qlobal informasiya mühitinin formalaşması üçün dünyada olduğu kimi Azərbaycanda da real imkan yaranıb. Yeni texnologiyalar əmək münasibətlərinin yenidən qurulmasına, bəzi ixtisasların köhnəlməsinə, digərlərinin isə yaranmasına səbəb olur. Məsafələrin azaldılması və məlumatların anında ötürülməsi həm dövlətlər daxilində, həm də dövlətlərarası səviyyədə güc münasibətlərinin xarakterinə təsir göstərmişdir. Bu inkişafın Azərbaycanda daha da gücləndirilməsində dilçilik elminin xüsusi rolu vardır.

## Ədəbiyyat


1. Andreyev, N. A., Korobov, V. B. (2014). Kommunikatsiya v pravookhranitelnoy sfere: sushchnosti klassifikatsiya Trudy Akademii upravleniya MVD Rossii. № 3 (31). 135 s.
2. Bolysheva, N. (2006). Razvitiye yazyka v usloviyakh globalizatsii: sotsialno-filosofskiy aspekt: dissertatsiya kandidata filosofskikh nauk: 09.00.11. Krasnoyarsk, 171 s.
3. Madgett, P., Belanger, C.H., Mount, J. (2005). Clusters, Innovation and Tertiary Education. Tertiary Education and Management. Vol. 11, № 4. p.337-354.
4. Bolotov, V. A., Serikov, V. V. (2003). Kompetentnostnaya model: ot idei k obrazovatelnoy programme. Pedagogika. № 10, 8. 60 s.
5. Kagermazova, L.TS. (2021). Tipologiya kommunikativnykh stiley u budushchikh uchiteley. Kazanskiy ped. zhurn. № 6. s.49-55.
6. Folk, F.M. (2021). Qlobalizasiya /sosialnie prosessi / sosialnaya pedaqoqika. https://cyberleninka.ru/article/n/globalizatsiya-sotsialnyh-protsessov-i-ih-vliyanie-na-kulturnuyu-assimilyatsiyu-detey-i-molodezhi.


Göndərilib: 22.08.2023 Qəbul edilib: 14.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/31-37

**Kifayət Dolxanova**
Bakı Slavyan Universiteti
kifayat.dolxanova@yandex.ru

# RİYAZİYYAT - TƏHSİL METODUNDA RƏQƏMSALLAŞMA

**Xülasə**

Hazırki keçid prosesində innovasiya texnologiyalarının meydana çıxması sənayenin bütün sahələrinə təsir göstərdiyi kimi təhsil sferasına da nüfuz edir. Hazırda ali təhsil sistemində rəqəmsallaşma texnoloji innovasiyaların tətbiqi ilə bağlı islahatların aparılması məsələsinin həlli xüsusilə vacibdir. Burada əsas məqsəd ali təhsil sistemində elektron idarəetmə sistemləri – rəqəmsallaşma texnologiyalarının yaratdığı pozitiv imkanlardan yararlanmaq və təhsil sferasında geniş və təhlükəsiz tətbiq olunmasına nail olmaqdan ibarətdir.

Məqalədə təhsil sahəsində aparılan yeniliklər qeyd edilib, hazırda tələbə və şagirdlərin səriştə və bacarıqları dövrün mövcud çağırışlarına cavab verir. Müəllif ölkəmizdə təhsil sahəsində rəqəmsallaşma texnologiyalarından istifadə, elmi baxımdan onun öyrənilməsi, elektron resurslardan istifadə olunması, inkişaf məqsədi ilə bu sahədə mövcud problemlərin aşkarlanması və həllini vacib amil kimi ortaya çıxarır.

***Açar sözlər:*** *rəqəmsal təhsil, İKT, texnologiyalar, inteqrasiya, rəqəmsal, didaktik, intellektual, elektron, onlayn, kompüter*

**Kifayat Dolkhanova**
Baku Slavic University
kifayat.dolxanova@yandex.ru

# Mathematics - digitalization in educational method

**Abstract**

In the current transitional process, the emergence of innovation technologies affects all areas of industry, as well as penetrates into the sphere of education. At present, it is especially important to solve the issue of reforms related to the introduction of digitalization technological innovations in the higher education system. The main goal here is to take advantage of the positive opportunities created by electronic management systems - digitization technologies in the higher education system and to achieve wide and safe application in the educational sphere.

The article mentions the innovations made in the field of education, and the competence and skills of students meet the current challenges of the time. The author points out the use of digitization technologies in the field of education in our country, its study from a scientific point of view, the use of electronic resources, the detection and solution of existing problems in this field for the purpose of development as an important factor.

***Keywords:*** *digital education, ICT, technology, integration, digital, didactics, intellectual, electronic, online, computer*

## Giriş

Müasir cəmiyyətin rəqəmsallaşmasının ən mühüm istiqamətlərindən biri təhsil sahəsində rəqəmsal texnologiyaların tətbiqidir. İbtidai məktəbdən tutmuş ali peşə təhsilinə qədər müxtəlif səviyyələrdə gələcəkdə cəmiyyəti formalaşdıran təhsildir. Bundan əlavə, rəqəmsal texnologiyaların fəal tətbiqi digər məsələlərlə yanaşı, təhsil standartlarının məzmununda da öz əksini tapır. Eyni zamanda cəmiyyətin rəqəmsallaşması kontekstində belə bir mütəxəssisin riyazi savadına xüsusi rol verilir. Başa düşmək lazımdır ki, yüksək ixtisaslı kadrların hazırlanması informasiya-kommunikasiya texnologiyalarından, o cümlədən professor-müəllim heyəti arasında istifadədə

müvafiq bacarıqlar tələb edir. Elektron təhsil formatı müəllimlərə mövcud bilik və bacarıqlarını praktikada "sınamağa" imkan verir. Təhsil proqramlarının özünə gəldikdə isə tələbənin təlim prosesinin rəqəmsal iqtisadiyyatın reallıqlarına və tələblərinə tam uyğun şəkildə baş tutması üçün son dəyişiklikləri izləmək ("monitorinq") vacibdir (1).

Ona görə də bu gün tələbələrin riyazi savadlılıq sahəsində biliklərinin artırılması problemi xüsusilə aktualdır, çünki bunu iqtisadiyyatın rəqəmsallaşması tələb edir (2).

Təhsilin rəqəmsallaşdırılması problemi və perspektivləri COVID-19 koronavirus infeksiyasının yayılmasına qarşı mübarizə kontekstində xüsusi aktuallıq qazanmışdır (Azərbaycanda şagirdlərin internet və rəqəmsal bacarıqlardan istifadəsinə dair araşdırma, 2021: 42). Distant təhsilə keçid təhsilin bütün sahələri üçün "ağrısız" baş verməmiş, həm qanunvericilik səviyyəsində, həm də icraçılar arasında bir sıra boşluqları və çatışmazlıqları aşkar etmiş, informasiya texnologiyaları və tədris metodları sahəsində mütəxəssislər qarşısında yeni vəzifələr müəyyən etmişdir. Bununla belə bütün səviyyələrdə təhsil proqramlarının həyata keçirilməsinə uyğunlaşdırılmış rəqəmsal texnologiyaların tətbiqi və inkişafını göstərən müsbət dinamika da mövcuddur. Bu andan etibarən ölkəmizdə prioritet milli layihələrin həyata keçirilməsi prosesi başladı, bunların arasında ən vaciblərindən biri "Azərbaycan təhsilinin modernləşdirilməsi" milli layihəsi idi.

"Təhsil" çərçivəsində prioritet milli layihənin həyata keçirilməsi, məktəb səviyyəsindən asılı olaraq, təhsil sistemində yüksək səviyyəli texnologiyanın inkişaf etdirilməsi üçün mühüm işlərin görülməsi (2):

- Təhsilin ən yaxşı nümunələrinin dəstəklənməsi və inkişafı - müasir təhsil texnologiyalarının tətbiqi - universitetlərin və dünya səviyyəli biznes məktəblərinin yaradılması;
- Məktəb təhsilinin rəqəmsallaşdırılması. Bu milli layihənin icrası çərçivəsində ölkə hakimiyyəti innovativ təhsil proqramlarını fəal şəkildə tətbiq edən və rəqəmsallaşma prosesini həyata keçirən ölkənin təhsil müəssisələrini stimullaşdırır. Bu, məktəbdə müasir təhsil texnologiyalarının rəqəmsallaşdırılması istiqamətində milli təhsil layihəsinin həyata keçirilməsi sahəsində ən vacib fəaliyyət kimi məktəblərin internetə qoşulması, təhsil müəssisələri üçün kompüter avadanlığının alınması və təchizatı, müəssisələri, habelə məktəbləri avadanlıq və tədris vasitələri ilə təmin etmək, onlar üçün əyani vəsait kimi bu vəzifələrin müəyyən edilməsidir. Ölkə məktəblərinin müxtəlif proqramlar çərçivəsində kompüter avadanlığı ilə təchiz edilməsi prosesi artıq bir neçə ildir davam edir. Yeni nəsil texniki vasitələr hazırda tədris prosesinə fəal şəkildə daxil olur.

Təhsilin müasir inkişaf mərhələsində 2025-ci ilə qədər ölkədə məktəb təhsili sisteminin yekun rəqəmsallaşdırılması zərurəti ölkə iqtisadiyyatının rəqəmsallaşdırılması üzrə dövlət strategiyasının həyata keçirilməsi çərçivəsində ən vacib vəzifə hesab olunur. Bu tapşırığın həyata keçirilməsi barədə qərar 2017-ci ilin sonunda "Rəqəmsal Məktəb" yeni milli layihənin formalaşdırılması çərçivəsində qəbul edilib. 2025-ci ilə qədər yaradılmalı olan yeni rəqəmsal məktəbin əsas xüsusiyyətləri onun innovativliyi və universallığıdır ki, bu da məktəblər üçün təlim prosesini həm tələbələrin özləri, həm də müəllimlər üçün daha rahat və effektiv edəcək. Başa düşmək vacibdir ki, rəqəmsallaşmanın əsas məqsədi təhsil prosesinin optimallaşdırılmasına, rəqəmsal texnologiyalardan, süni intellekt metodları və internet informasiya resurslarından istifadə etməklə müəllim və tələbələrə verilən tapşırıqların tez və effektiv həllinə yönəlir (Azərbaycanda şagirdlərin internet və rəqəmsal bacarıqlardan istifadəsinə dair araşdırma, 2021: 30).

Tədris yükünün azaldılması tendensiyalarını nəzərə alaraq rəqəmsal texnologiyalardan istifadə zamanı təhsil prosesləri əhəmiyyətli dərəcədə dəyişə bilər. Bununla belə alınan təhsilin keyfiyyətini də unutmaq olmaz. Rəqəmsallaşma prosesində yaranan imkanları nəzərə alaraq təhsil proqramlarının davamlı olaraq yenilənməsi qısa müddətdə tələbələrlə müəllimlər arasında bir tərəfdən qarşılıqlı əlaqənin sadələşdirilməsinə, digər tərəfdən effektivliyin artırılmasına yönəldilməlidir. Tələbələr daha az səylə daha çox məlumat öyrənirlər. Eyni zamanda bəzi tədris proseslərinin unifikasiyası biliyin həcminin və keyfiyyətinin azaldılmasını, müəllimin tədris prosesindən uzaqlaşdırılmasını əvəz etməməlidir. Şagirdləri həvəsləndirmək zərurətini nəzərə alaraq müəllim cəmiyyətin rəqəmsallaşması kontekstində əmək bazarında tələb olunan biliyə malik

olan mütəxəssis hazırlamaq üçün zəruri və kifayət qədər informasiyanı "verməlidir". 2023-2024-cü tədris ilində "Rəqəmsal bacarıqlar" layihəsi texnoloji inkişafın sürətləndirilməsini nəzərdə tutur:

- ölkənin inkişafı;
- texnoloji innovasiyaları həyata keçirən təşkilatların sayının artırılması;
- iqtisadiyyatda və sosial sferada rəqəmsal texnologiyaların tətbiqinin sürətləndirilməsi;

Bu şəraitdə təhsil işçilərinin qarşısında aşağıdakı vəzifələr durur:

• müxtəlif növ səviyyələrdə təhsilin yüksək keyfiyyətini və əlçatanlığını təmin edən müasir və təhlükəsiz rəqəmsal təhsil mühitinin yaradılması;

• əsas ümumi və orta ümumtəhsil səviyyələrində yeni təlim və tərbiyə metodlarının, şagirdlərin əsas bacarıq və vərdişlərə yiyələnməsini təmin edən təhsil texnologiyalarının tətbiqi, onların öyrənmə motivasiyasının artırılması və tədris prosesinə cəlb edilməsi, habelə məzmunun yenilənməsi; rəqəmsal texnologiyalar tərəfindən dəstəklənən yeni modellərin və qarşılıqlı əlaqə ssenarilərinin hazırlanması üçün sənaye və məişət robotlarının;

• peşə təhsilinin müasirləşdirilməsi, o cümlədən adaptiv, təcrübə yönümlü və çevik təhsil proqramlarının tətbiqi yolu ilə;

• işləyən vətəndaşlar tərəfindən peşə biliklərinin davamlı olaraq yenilənməsi və onların yeni peşə vərdişlərinə, o cümlədən hər kəs tərəfindən rəqəmsal iqtisadiyyat sahəsində səriştələrə yiyələnməsi sisteminin formalaşdırılması;

• ölkədə təhsilinin qlobal rəqabət qabiliyyətinin təmin edilməsi (Sinyagina, Artamonova, 2018: 10).

Artıq təhsil sistemi üçün "dəyişiklik vaxtı", yəni irimiqyaslı problemlərin həllinə yönəlmiş fundamental keyfiyyət dəyişiklikləri gəlib çatmışdır. Rəqəmsal təhsil resurslarının (DER) riyaziyyatın tədrisi sistemində əhəmiyyətini qiymətləndirmək çətindir, çünki onlar təlimin bütün komponentlərini həyata keçirməyə imkan verir: məlumat ötürülməsi, praktiki məşqlər və sertifikatlaşdırma (bilik testi). "Təhsil sisteminin informasiyalaşdırılması" layihəsinin icrası çərçivəsində istənilən fənlər, o cümlədən riyaziyyat üzrə müəllim hazırlığı mərkəzləri internet informasiya və telekommunikasiya şəbəkəsində (məsələn, http://school - saytında) müəllimlərin istifadəsinə verilib (5). Bununla belə riyazi təhsilin rəqəmsallaşdırılması problemi konfrans və plenar iclaslarda, o cümlədən "Təhsil və elmdə riyazi modelləşdirmə və informasiya texnologiyaları" beynəlxalq elmi-metodiki konfranslarda geniş müzakirə olunmaqda davam edir.

Riyaziyyatda rəqəmsal texnologiyalardan istifadənin mümkünlüyü və zəruriliyi qızğın müzakirələrə səbəb olur. Şübhəsiz ki, riyaziyyatı "saf" elm kimi təsnif edən "köhnə məktəb" nümayəndələri var ki, onun məqsədi qlobal mənada praktikanın xüsusi tələbatları ilə bağlı deyil, ümumən təfəkkür, əsaslandırma və təhlili öyrətməkdir. Cəmiyyətin rəqəmsallaşması kontekstində belə yanaşma əsassız görünür. Elmlər Akademiyasının və Təhsil Nazirliyinin dərsliklərinin müəllifləri haqlı olaraq qeyd edirlər ki, məktəbdə riyaziyyat kursu XXI əsrin tələblərinə cavab vermir. Riyaziyyatdan həyatda necə istifadə etməyi, riyazi şəkildə düşünməyi, reallığı modelləşdirməyi, "ehtimal" və "mümkün olmayan"ın nə olduğunu başa düşməyi öyrətməliyik. Rəqəmsal texnologiyalar isə müəllimlə uşaq arasında qarşılıqlı əlaqənin məhsuldarlığını artırmağa kömək edəcək (Sinyagina, Artamonova, 2018: 10).

Şagirdlərdə yeni məlumatları öyrənmək, qavramaq və emal etmək proseslərini formalaşdırmaq və inkişaf etdirmək çox vacibdir. Əməkdaşlıq etmək, konstruktiv ünsiyyət qurmaq, tənqidi qəbul etmək, uğursuzluqları təhlil etmək və müəyyən bir problemi həll etmək üçün yeni yollar yaratmaq bacarığına diqqət yetirmək vacibdir. Sənaye iqtisadiyyatında saymaq, oxumaq və yazmaq bacarığı ümumi mədəniyyətin elementinə çevrildiyi kimi, rəqəmsal iqtisadiyyatın hər bir təhsilli iştirakçısı üçün yeni bilik, bacarıq və bacarıqlar məcburi xarakter daşıyır (6). Tədris prosesinin əsaslarını bu gün reallıqlarda təhlil etsək, həm məktəbdə, həm də universitetlərdə əsas vəzifə kimi tələbələrə hər cür məlumatların, müəyyən bir "məlumat bazası"nın ötürülməsidir. Bu, informasiyanın ötürülməsi mərhələsində sonrakı analitik və məntiqi iş üçün "təməl" kimi formalaşır.

Rəqəmsallaşma kontekstində informasiya axtarış vasitələri şəbəkədə tələb olunan məlumatları və faktiki məlumatları tapmağa, intellektual alqoritmlər isə lazımi bilikləri doldurmağa və başa

düşməyi asanlaşdırmağa kömək edir. Görünür, bu gün təhsil müəssisələrinin prioritet vəzifəsi ən çox faydalı məlumatı "pompalamaq" deyil, əldə edilmiş bilik və bacarıqların yoxlanılması və yeni formalarının əldə edilməsi üçün unikal insan qabiliyyətlərini inkişaf etdirməkdir. Beləliklə, riyaziyyat sahəsindən kurikulumlardakı səriştələr qəbul edilmiş məlumatları təhlil və sintez etmək bacarıqlarının inkişafını, o cümlədən nəzəri bilikləri praktikada tətbiq etmək bacarığını nəzərə almalıdır. Yeni situasiyalarda praktiki problemləri həll etmək, innovasiyaya müstəqil şəkildə yiyələnmək üçün bu təcrübədən istifadə etmək bacarığının məqsədyönlü formalaşdırılması - bu, cəmiyyətin rəqəmsallaşması şəraitində ümumi təhsilin arzuolunan nəticəsidir. Mövcud qiymətləndirmə sistemi əldə edilmiş biliklərin və onun həcminin yalnız kəmiyyət göstəricilərinin ölçülməsini nəzərdə tutduğundan tələbələrin bacarıqlarını qiymətləndirmək xüsusilə çətindir. Eyni zamanda təlimdə alqoritmik (məlumat, məlumat və biliklərlə işləmək) sahəsində bacarıqların mənimsənilməsində, konkret əldə edilmiş bilik və bacarıqları yoxlamaq və yeni formalarda alınması bacarığının qiymətləndirmə sistemi, tədris metodları, həm də keyfiyyət dəyişikliklərinə məruz qalmalıdır.

Riyazi təhsilin keyfiyyətinin yüksəldilməsi üçün interaktiv təhsil vasitələrinin, virtual laboratoriyaların və interaktiv stimulasiya mühitinin yaradılması, təcrübədə "kompüter" və ya "multimedia" dərsləri haqqında məlumatı yalnız məktub və ya audio mətn materialı təqdim etmək deyil (mühaziрəçinin çıxışı, lövhədə tezis qeydləri), qrafiklərdən (fotoşəkillər, foto sənədləri, diaqramlar), videolardan daha çox istifadə edilməsidir.

Elmi ədəbiyyatda rəqəmsallaşma dövründə məktəb riyaziyyatının məzmununun dəyişməli olması barədə fikirlər dəfələrlə qeyd olunub. Belə ki, dərs zamanı tələbələr multimedia proyektorundan və ya fərdi kompüterlərdən istifadə etməyi, hazırda oyun nəzəriyyəsinin təhsil proqramına daxil edilməsi zamanı qərar qəbul etməyi və informasiya nəzəriyyəsini öyrənir. Məktəb səviyyəsində şagirdə motivasiyasının xüsusi əhəmiyyət kəsb etdiyini başa düşmək vacibdir. Hər bir şagird qadcetlərin köməyi ilə istənilən mürəkkəb tipli hesablama tapşırığını "həll edə" bildikdə, müəllimin işini daha da asanlaşdırır. O, şagirdə düşünməyi öyrətməlidir. (Uvarov, Van, Kan i drugiye, 2019: 102). Bu aspektdə yeni dərsliklər və dərs vəsaitləri tələb olunur, lakin əsas odur ki, interaktiv tədris vasitələrindən istifadə edilsin. Bu vasitələr təkcə əhatə olunan materialın həcmini artırmağa deyil, həm də tədris prosesini lazımi formada "təhlil etməyə" imkan verir. Riyaziyyat təhsili çərçivəsində interaktiv təhsil resurslarına keys texnologiyaları və veb axtarış texnologiyaları da daxildir. Bu tədris metodlarından istifadə digər məsələlərlə yanaşı, tələbə şəxsiyyətinin inkişafına, kommunikativ, müstəqil, tədqiqat və yaradıcılıq fəaliyyətinin stimullaşdırılmasına yönəlmişdir (6).

Keys (ingiliscə "case" – hadisə, vəziyyət) hər hansı bir praktik problemin həll yollarının kollektiv və ya fərdi axtarışını tələb edən təlim materialıdır. Onun fərqləndirici xüsusiyyəti real həyatdan götürülən faktlar əsasında problemli situasiyanın təsvir edilməsidir. Keys texnologiyasının ən mühüm xüsusiyyətlərindən biri nəzəriyyədən istifadə etmək və faktiki materiallara müraciət etmək bacarığıdır. Keys texnologiyaları tələbələrin müəllimin rəhbərliyi altında məlumatla bilavasitə işlədiyi, onu təhlil etdiyi və mövcud bilikləri nəzərə alaraq emal etdiyi zaman tədqiqat bacarıqlarını, problemli vəziyyətin həllinə innovativ yanaşmaları inkişaf etdirmək üçün nəzərdə tutulub. Keys mərhələləri ənənəvi olaraq klassik tipli situasiya təhlili metodları kimi təsnif edilir ki, bu da tələbəyə hazırkı vəziyyətin təsviri və həllini tələb edən problemin təsviri ilə hazır modelin təklif olunmasından ibarətdir (8). Bəzən vəziyyəti təsvir edərkən artıq görülmüş tədbirlər və onların qanuniliyini təhlil etmək üçün qəbul edilmiş qərarlar bildirilir. Şagird vəziyyətin təsviri ilə tanış olduqdan sonra onu müstəqil təhlil edir, problemi müəyyənləşdirir və dərk edir, sonra qrup müzakirəsi zamanı təklif olunan həll yolunu təqdim edir. Məlumatlı qərar qəbul etmək üçün tələbələr:

• çatışmayan məlumatları toplamaq (o cümlədən internet resurslarından istifadə etməklə);

• vəziyyəti anlamaq, hansı problemlərin mövcud olduğunu və onların necə həll oluna biləcəyini müəyyən etmək;

• xüsusi qərar qəbul etmək üçün nəyin lazım olduğunu öyrənmək.

Keys texnologiyasından istifadənin məqsədi qeyri-kafi məlumat şəraitində qərar qəbul etmə bacarıqlarını inkişaf etdirmək və ya təkmilləşdirməkdir. Beləliklə, keys texnologiyalarından istifadə edərək tədris metodları qərar qəbul etmək üçün lazım olan məlumatları rasional toplamaq və istifadə etmək bacarığını möhkəmləndirmək ehtiyacını nəzərdə tutur. Riyaziyyat sahəsində tətbiq olunan keys texnologiyalarından biri "işgüzar yazışmaların təhlili" (səbət metodu) və ya "inbox" metodudur. Bu üsula "məlumat labirint" də deyilir ("təpədə məşqlərdə"; "səbət məşqlərində"). Bu, konkret həyat vəziyyətinə aid faktiki məlumatlarla işləməyə əsaslanır. Bu texnologiya ilə işləyərkən tələbələr müəllimdən əvvəlcədən hazırlanmış işi - sənədləri və materialları olan qovluğu alırlar. Qovluqda digər təsərrüfat subyektlərindən gedən və ya daxil olan məktub, struktur bölmələrinin işçilərinin, mütəxəssislərin qeydləri (ilkin mühasibat sənədləri) ola bilər. Bundan əlavə, bütün göstərilən sənədlərdə riyazi hesablamalar və ya riyazi həll tələb edən istehsal problemləri olmalıdır. Belə təlimin iştirakçısı qərar qəbul etmək səlahiyyəti verilən məsul şəxs vəzifəsini tutur. Bu mövqe iştirakçının təşəbbüsünü müəyyənləşdirir və qərar qəbul edərkən müəyyən nəticəyə diqqət yetirir.

Qrup müzakirələri intensiv öyrənmə texnologiyalarıdır və müəyyən prosedur qaydalarına uyğun olaraq istənilən məsələ üzrə fikir mübadiləsini nəzərdə tutur. Adətən müzakirəyə moderator (bu vəziyyətdə müəllim) rəhbərlik edir. Bir sıra yaradıcı problemlərin həlli üçün xüsusi hazırlanmış qrup müzakirəsi formasına "beyin hücumu" deyilir. 1939-cu ildə ABŞ-da A.Osborn tərəfindən hazırlanmış bu tədris metodu tələbələrin fərdi yaradıcılıq və idrak qabiliyyətlərinin inkişafına yönəlmişdir. Klassik beyin həmləsinin aşağıdakı mərhələlərini ayırd etmək olar (Azərbaycanda şagirdlərin internet və rəqəmsal bacarıqlardan istifadəsinə dair araşdırma, 2021: 11):

1. Problemin ifadəsi. Qarşıya qoyulmuş pedaqoji məqsədə nail olmaq üçün moderator müzakirə zamanı fərdi şəxsi xüsusiyyətləri və rol funksiyalarını nəzərə alaraq iştirakçıların qarşısında duran vəzifəni aydın şəkildə formalaşdırmalı, sonra iştirakçıları qruplara bölməli;

2. İdeyaların yaradılması. Bu mərhələ seçilmiş metodun effektivliyini müəyyən edən ən mühüm mərhələdir. Eyni zamanda beyin həmləsi metodundan istifadə edərkən bir sıra qaydalara riayət etmək tövsiyə olunur:

• hücum iştirakçıları problemin təklif olunan həllərini istədikləri qədər ifadə edə bilərlər, onların sayı məhdud deyil;

• təklif olunan həllər mümkün olmayan, absurd və ya hətta fantastik ola bilər;

• ideyaların müzakirəsi zamanı təkliflərin toplanması və təkmilləşdirilməsi, digər iştirakçıların ideyaları nəzərə alınmaqla onların dəyişdirilməsi / əlavə edilməsi təşviq edilir;

• təklif olunan ideyalar qiymətləndirilmir və tənqid olunmur.

3. İdeyaların seçilməsi, qruplaşdırılması və qiymətləndirilməsi. Bu mərhələ son mərhələdir və irəli sürülən təkliflərin effektivliyinin təhlilini əhatə edir. Bu mərhələdə iştirakçılar əvvəllər verilmiş təklifləri müstəqil şəkildə, problemin həlli üçün nəzərdə tutulan variantları tənqidi şəkildə qiymətləndirməlidirlər. İşin məqsədi başlamazdan iki-üç gün əvvəl elan edilməlidir. Hər bir iştirakçının qrup müzakirəsi zamanı onun həlli variantlarını ifadə etmək və müzakirə etmək üçün əvvəlcə problem haqqında düşünmək imkanı olmalıdır (Kazantsev, 2008: 150).

Metodiki ədəbiyyatın təhlilinə əsasən, uğurlu beyin ixtirası üçün aşağıdakı qaydaların formalaşdırılmasının məqsədəuyğun olması təklif olunur:

• bütün iştirakçılara ilkin hazırlıq üçün vaxt lazımdır.Yadda saxlamaq lazımdır ki, beyin fırtınası prosesinin lideri təşkilatçılıq qabiliyyəti və səlahiyyət səviyyəsi beyin fırtınası metodunun effektivliyini böyük ölçüdə müəyyən edən müəllimdir. Metodoloji ədəbiyyatın təhlilinə əsasən, uğurlu beyin hərəkəti üçün aşağıdakı qaydaların formalaşdırılması məsləhət görülür:

•bütün iştirakçılara ilkin hazırlıq üçün vaxt lazımdır. Bunun məqsədi başlamazdan iki-üç gün əvvəl elan edilməlidir. Hər bir iştirakçının qrup müzakirəsi zamanı maraqlı ideyalar irəli sürə bilər, onun həll variantlarını ifadə etmək və müzakirə etmək üçün əvvəlcə problem haqqında düşünmək imkanı olmalıdır.

• maksimum sayda iştirakçı qəbul edilir. Effektiv beyin fırtınası üçün moderator seçilmiş mövzu üzrə mümkün qədər çox təklif toplamalıdır, ona görə də burada birbaşa əlaqə var: nə qədər çox insan, bir o qədər çox təklif.

•beyin fırtınası başlamazdan əvvəl tapşırığın mahiyyətini aydın və ətraflı izah etmək lazımdır. Moderator müzakirə vəziyyətinin süjetini qısaca yenidən ifadə etməli, hücumun bütün iştirakçılarının tapşırığı düzgün başa düşdüklərinə əmin olmaq üçün orijinal faktiki məlumatları xatırlamalıdır.

• hər bir beyin həmləsi iştirakçısına qeydlər etmək tövsiyə olunur, çünki nə isə yaddan çıxmış olarsa nəticə həllərin tam siyahısı olmaya bilər.

• beyin həmləsi zamanı ideya və təkliflərin tənqidi son mərhələyə qədər qəbuledilməzdir. Yadda saxlamaq lazımdır ki, çox vaxt irrasional və qeyri-mümkün görünən ideyalar ən uyğun həll yolu olur. Həm də unutmaq olmaz ki, qrupda iş o zaman səmərəli olur ki, iştirakçılar daha yüksək təşəbbüskarlıq göstərsinlər, tənqid isə xeyli sıxışdırılsın.

• Problemin həlli üçün təklif olunan variantların maksimum sayını formalaşdırmaq lazımdır. Yuxarıda qeyd edildiyi kimi, hücumun effektivliyi əvvəlcədən müəyyən edilmiş məsələlər üzrə irəli sürülən təkliflərin sayından birbaşa asılıdır. Eyni zamanda bəzi şagirdlər xarakter xüsusiyyətlərinə görə öz fikirlərini yüksək səslə söyləməkdən utanaraq özlərini etibarsız hiss edə bilərlər. Bu, metodun effektivliyini xeyli azaldır. Bundan əlavə, uyğun bir həll tapıldığı kimi görünsə belə, beyin fırtınasının ikinci mərhələsinin sonuna qədər ideyalar yaratmağa və səsləndirməyə davam etməlisiniz. Ümumiləşdirmə və təhlil mərhələsində irəli sürülən bütün təkliflərin qeydiyyata alınmasının və əyani şəkildə nümayiş etdirilməsinin vacibliyini bir daha vurğulayaraq qeyd etmək lazımdır ki, bu məqsədlər üçün marker lövhələrindən və ya multimedia proyektorundan istifadə etmək ən əlverişlidir.

• Mənfi nəticənin məqbul olması. Beyin həmləsi sessiyasının nəticələrini yekunlaşdırarkən, moderator tapılan həllin tamamilə uyğun olmadığını və problemin həll olunmamış qaldığını güman edə bilər. Bu yanaşma sizi daha bir neçə yeni ideya inkişaf etdirməyə sövq edəcək, eyni zamanda sizi istənilən nəticənin mümkünlüyünə zehni olaraq hazırlayacaq.

Riyaziyyatda keys texnologiyasından istifadə edərkən son, lakin zəruri mərhələ debrifinqdir ki, bu da təlimin əks prosesi deməkdir.

Eyni zamanda keys texnologiyasında işin məzmununu təşkil edən problem situasiyasının müəllim tərəfindən modelləşdirilməsinin öyrənilən materialların çətin mənimsənməsi ilə bağlı olmasıdır. Problemli sual mütləq tələbələrin mövcud biliklərinin yetərsizliyini göstərməli və onları yeni ideyalar ifadə etməyə sövq etməli, eyni zamanda verilən suallara cavablar tələbələrin əvvəlki təcrübə və biliklərinə əsaslanmalıdır.

Bu gün bu məqsədlə rəqəmsal texnologiyadan geniş istifadə olunur və lazımi hesablama üsulları kompüter proqramları ilə seçilir. O zaman müasir riyaziyyatın öyrənilməsində triqonometriya nə dərəcədə təqdim edilməlidir? Burada hansı mühüm insan qabiliyyətləri formalaşır? Rəqəmsal texnologiyanın yayılması ilə əlaqədar onlara tələbat nə dərəcədə dəyişir? Oxşar suallar təhsil nəticələrinin müzakirəsi prosesində, eləcə də həm riyaziyyat, həm də digər akademik fənləri öyrənərkən onların mənimsənilməsini qiymətləndirmək yollarında getdikcə daha çox ortaya çıxır. Təhsilin yenilənmiş məzmunu şagirdlərin müəyyən əsas və ya əsas anlayışlar toplusunu mənimsəmələrini təmin etməlidir (1). Bu, müasir təhsil proqramlarının ümumi çatışmazlığının və çox vaxt bir-biri ilə əlaqəsi olmayan əhəmiyyətli həcmli məlumatların səthi öyrənilməsinin qarşısını almağa imkan verəcəkdir. Yadda saxlamalıyıq ki, riyaziyyat bizə düşünməyi, məntiqi zəncirlər qurmağı, konkret praktiki məsələlər üçün ən rasional həll yollarını seçməyi öyrədir, yəni riyaziyyat informasiyanın miqdarı deyil, onu sistemləşdirmək, emal etmək və təhlil etmək bacarığıdır.

## Nəticə

Rəqəmsal savadlılıq hazırda ictimai həyatın bütün sahələrinin inkişafı baxımından əhəmiyyət kəsb edir. Odur ki, rəqəmsal savadlılığın formalaşmasına və inkişafına böyük diqqət yetirilməlidir. Bununla belə riyazi savadlılıq sahəsində müəyyən bacarıq və qabiliyyətlərə malik ixtisaslı mütəxəssislər olmadan tam hüquqlu rəqəmsal cəmiyyət formalaşdırmaq mümkün deyil. Bu, insanın yaşadığı dünyada riyaziyyatın rolunu müəyyən etmək və anlamaq qabiliyyətini təmsil edir. Bundan əlavə, o, funksional savadlılığın bir növünü təmsil edir. Bu onunla bağlıdır ki, funksional savadlılıq

təkcə şəxsi deyil, həm də sosial ehtiyacları ödəmək üçün riyazi biliklərdən sərbəst istifadə etməyə imkan verir. Bu baxımdan alternativ yanaşmalar, intuisiya və düşüncə tələb edən müxtəlif situasiyalarda şagirdlərin riyazi biliklərdən istifadə etmək bacarığının yoxlanılmasına diqqət yetirmək vacibdir. Bu isə xeyli miqdarda riyazi bilik və bacarıq tələb edir.

Yuxarıda deyilənləri nəzərə alaraq təhsilin bütün pillələrində riyaziyyatın tədrisi texnologiyasının təcrübə yönümlü olması, yəni rəqəmsal resurslardan istifadə etməklə konkret iqtisadi və sosial problemlərin həlli üçün riyazi biliklərin tətbiqinə yönəlməsi nəzərdə tutulur. Riyaziyyat təhsili sistemində rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək lazımdır. Nəticədə yeni təcrübə yönümlü proqram üzrə təhsil alan tələbələr rəqabət üstünlüklərinə və yüksək səviyyəli mütəxəssislərin səriştəsinə malik olacaqlar.

## Ədəbiyyat

1. https://tv.ikisahil.az/
2. http://tədris : taxes.qov.az
3. Azərbaycanda şagirdlərin internet və rəqəmsal bacarıqlardan istifadəsinə dair araşdırma. (2021). Bakı, 42 s.
4. Sinyagina, N.YU., Artamonova, Ye.G. (2018). Tsifrovizatsiya obrazovaniya: opredelyayem prioritety. Obrazovaniye lichnosti. № 3. s.10.
5. http://school: collection.edu.ru
6. Rozina, I.N. (2020). Tsifrovizatsiya obrazovaniya (Elektronnyy resurs) – URL: https://uchebana5.ru/cont/2530182.html (data obrashcheniya: 15.10.2020).
7. Uvarov, S., Van, TS., Kan i drugiye.; (2019). otv. red. I.V. Dvoretskaya. M.: Izd. dom Vysshey shkoly ekonomiki. Problemy i perspektivy tsifrovoy transformatsii obrazovaniya v Rossii i Kitaye. II Rossiysko-kitayskaya konferentsiya issledovateley obrazovaniya «Tsifrovaya transformatsiya obrazovaniya i iskusstvennyy intellekt». Moskva, Rossiya, 26–27 sentyabrya. A.YU. 155 s.
8. Vasilenko, A.V. (2020). Kvest kak pedagogicheskaya tekhnologiya. Istoriya vozniknoveniya kvest-tekhnologii [Elektronnyy resurs] – URL: https://articulus-info.ru/wpcontent/uploads/2017/08/4_2017p_Vasilenko.pdf (data obrashcheniya: 15.10.2020). 15 s.
9. Kazantsev, V. (2008). Gosudarstvennaya strategiya razvitiya Rossii i rol prioritetnykh natsionalnykh proyektov v yeye realizatsii. Avtoref. dis. na soisk. uch. st. kand. polit. nauk. M.: VU, 165 s.

Göndərilib: 20.08.2023 Qəbul edilib: 16.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/38-40

**Gözəl Quliyeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
gozel.quliyeva93@mail.ru

# AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCDƏ TƏHSİLİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Xülasə**

Azərbaycan təhsilinin inkişafında ulu öndər Heydər Əliyevin böyük rolu olmuşdur. Ulu öndər Azərbaycanın təhsil sisteminin təkmilləşdirilməsinə, dünya təhsil sisteminə inteqrasiyasına çalışmışdır. Onun qarşıya qoyduğu strateji hədəflərdən biri respublikada yüksək ixtisaslı mütəxəssislər hazırlamaq üçün güclü kadr potensialının yaradılması idi.

Heydər Əliyevin inkişafına nail olduğu xarici təhsil siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda "Dövlət Proqramı" üzrə təhsil alan vətəndaşlarımız xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alırlar.

***Açar sözlər:*** *Heydər Əliyev, xaricdə təhsil, islahat, təhsil, inkişaf*

**Gozal Guliyeva**
Institute of Philosophy and Sociology of ANAS
gozel.quliyeva93@mail.ru

## The role of Haydar Aliyev in the education of Azerbaijan young people abroad

**Abstract**

Great leader Heydar Aliyev played a great role in the development of Azerbaijani education. The great leader tried to improve the education system of Azerbaijan and integrate it into the world education system. One of his strategic goals was to create strong human resources potential to train highly qualified specialists in the republic.

The foreign education policy developed by Heydar Aliyev is currently being successfully continued by President Ilham Aliyev. Currently, our citizens studying under the "State Program" study in prestigious higher education institutions of foreign countries.

***Keywords:*** *Heydar Aliyev, study abroad, reform, education, development*

## Giriş

Azərbaycanda dövlət hesabına gənclərin xarici universitetlərə göndərilməsinin əsası Parlament dövründə qoyulmuş, dahi siyasətçi Heydər Əliyevin hakimiyyəti illərində davam etdirilmiş və bu gün də Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Azərbaycanın inkişaf yolunda dönüş mərhələsini təşkil edən 14 iyul 1969-cu ildən başlanan tarixi mərhələ Azərbaycan təhsilinin, elminin və mədəniyyətinin intibah dövrü kimi dəyərləndirilir. "Təhsil millətin gələcəyidir" - deyən H.Əliyev uzaqgörənliklə təhsil sahəsində islahatlar proqramının işlənib hazırlanması və həyata keçirilməsi vəzifəsini irəli sürdü ki, onun da prinsipial müddəalarını təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının iclasındakı nitqində aşağıdakı kimi ifadə etmişdi: "Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanılmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində - Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik" (Əliyev, 2006: 386). Azərbaycana rəhbərliyinin ilk dövründə - 1983-cü ildə SSRİ-də məktəb islahatı da Nazirlər Soveti sədrinin birinci müavini kimi ona

tapşırılıb. Respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə ulu öndərin diqqət mərkəzində saxladığı ən zəruri vəzifələrdən biri elmin və təhsilin inkişafına qayğını artırması olub (2).

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri də 1970-80-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın iqtisadiyyatı, elm, təhsil və mədəniyyətinin 80-dən çox sahəsini əhatə edən və ölkə üçün ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yaratmasıdır (Bayramov, 2019).

"Mən 14 iyun 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra, ilk növbədə, təhsillə məşğul olmağa başladım. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər. O vaxt gəlib çatdı" (Mustafayev, 2023).

Ulu öndər 1975-ci il avqustun 28-də Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələrlə görüşündə qeyd etmişdi: "Siz bu əsrin axırıncı onilliklərində və gələn əsrin əvvəllərində işləyəcəksiniz. O zaman elmi-texniki tərəqqi üfüqlərinin necə cazibədar olacağını bu gün təsəvvür etmək mümkündür. Sabahkı gün sizə yeni, yüksək tələblər verəcəkdir. Əgər mütəxəssis həqiqətən yaradıcı şəxsiyyətdirsə, o, sadəcə olaraq, zamanla ayaqlaşmalı deyil, həmişə zamanı bir qədər qabaqlamalıdır. Bu isə o deməkdir ki, daim öyrənmək lazımdır, buna görə də bilik, bacarıq vərdiş bünövrəsi möhkəm olmalıdır" (Mustafayev, 2023).

Ulu öndər azsaylı xalqların təhsil alması üçün ölkədə lazımi şəraiti yaratmış oldu. Milli azlıqların dillərinin tədrisinə kömək məqsədi ilə "Talış dilinin tədrisinə dair", "Talışca-azərbaycanca məktəbli lüğəti" nəşr olunmuşdur. "Ləzgicə-azərbaycanca-rusca lüğət" və "Tat dilində "Əlifba" dərsliyinə dair metodik rəhbərlik" adlı kitablar istifadəçilərin ixtiyarına verilmişdir. Bütün bu proqram, dərslik və metodik vəsaitlər Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Azərbaycan dili" bölməsinin "Azsaylı xalqların dilləri" yarım bölməsində müzakirə edilərək təsdiq olunmuş və nəşrə tövsiyə edilmişdir.

2002-ci ildən "Demokratik vətəndaşlıq üzrə təhsil" layihəsi həyata keçirilməyə başlanmışdır. Avropa Şurası və Təhsil Nazirliyi 2003-cü ildən "Təhsil siyasəti və milli azlıqlar" layihəsini birgə həyata keçirir. Layihənin əsas məqsədi iştirakçı ölkələrə milli azlıqların təhsili ilə bağlı qanunvericilik sənədlərinin hazırlanmasında yardım göstərilməsi və milli azlıqların təhsil siyasəti sahəsində tövsiyələrin təqdim edilməsidir.

Bu layihənin səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan-Avropa Şurası birgə İşçi Qrupu yaradılmışdır. Bu onu göstərir ki, milliyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşı olan hər bir şəxs təhsil ala, təhsilə töhfələr verə, xaricdə təhsil proqramlarına müraciət edə bilər. Bunun üçün lazımi şərait yaradılmışdır.

Ulu öndər Heydər Əliyev tərəfindən xaricdə təhsil siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq olunan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı", eləcə də "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" kimi mühüm dövlət sənədlərinin uğurlu icrası ölkənin sosial-iqtisadi həyatına, eləcə də insan kapitalının milli sərvətdə payının artmasına, ali təhsil müəssisələrinin akademik potensialının güclənməsinə, həmçinin, ölkədə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsinə təkan verib.

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 2022-ci ildə keçirilən müsabiqələr nəticəsində 15 prioritet ixtisas istiqaməti üzrə dünyanın 18 ölkəsinə aid 110 ali təhsil müəssisəsində 353 nəfər təhsil almaq hüququ qazanıb (5). 2007-2011-ci illərdə 800-ə yaxın istedadlı azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilib (Mərdanov, 2011: 3).

## Nəticə

Ulu öndərin qarşıya qoyduğu strateji hədəflərdən biri respublikada güclü kadr potensialı yaratmaq, iqtisadiyyatın çoxşaxəli inkişafını təmin etmək üçün yüksək ixtisaslı mütəxəssislər yetişdirmək idi. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xaricdə təhsil siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2007-2015-ci illər, 2019-2023-cü illər, 2022-2026-cı illər üzrə Dövlət Proqramı bunun bariz nümunəsidir.

## Ədəbiyyat

1. Əliyev, H. (2006). 25 sentyabr 1998-ci ildə müəllimlərin qurultayındakı nitq. Əliyev H. Təhsil, bilik, məktəb. Bakı: Müəllim, 386 s.
2. https://azedu.az/az/news/2148-heyder-eliyevin-tehsil-diplomatiyasi-xarice-gonderilen-telebeler-vacib-serencamlar-
3. Bayramov, C. (2019). Uğurlu təhsil islahatlarının banisi. "Azərbaycan Müəllimi" qəzeti, 12 iyul.
4. Mustafayev, O. (2023). Heydər Əliyevin xaricdə təhsil strategiyası, "Azərbaycan müəllimi" qəzeti. 13 yanvar.
5. https://edu.gov.az/az/2022-2026-ci-iller-uzre-dovlet-proqrami/2022-2026-ci-iller-uzre-dovlet-proqrami
6. Mərdanov, M. (2011). "Azərbaycan" qəzeti, 2 oktyabr, s.3.

Göndərilib: 10.08.2023 Qəbul edilib: 08.10.2023

ELMİ TƏDQİQAT Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 0.864. 2023 / Cild: 3 Sayı: 10 / 41-47
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.864. 2023 / Volume: 3 Issue: 10 / 41-47 e-ISSN: 2789-6919

DOI: https://doi.org/10.36719/2789-6919/26/41-47

**Kərim Novruzov**
Ağdam rayon 95 saylı tam orta məktəb
atillanovruzov55522@gmail.com

# HÜQUQ, AZADLIQ, ƏDALƏT VƏ MİLLİLİK: QISA FƏLSƏFİ YANAŞMA

**Xülasə**

Cəmiyyət və dövlət ictimai münasibətlərin nizamlandığı, ictimai qaydalara riayət olunduğu şəraitdə normal fəaliyyət göstərə bilər. İctimai həyatın təşkilində, insanların davranışının və kollektivlərin fəaliyyətinin nizamlanmasında hüquq mühüm rol oynayır. Hüquq anlayışı haqqında məsələ mübahisəlidir. Hüquq elminin müxtəlif sahələrinin nümayəndələrinin hüquqa vaxtilə vermiş olduqları və hal-hazırda verdikləri müxtəlif təriflər mövcuddur.

Hüququn mahiyyəti ilə bağlı nəzəriyyələrdən biri olan təbii hüquq nəzəriyyəsi hesab edir ki, hüququn özündə ədalətin mütləq, dəyişməz başlanğıcı vardır və o, təbii olaraq mövcuddur. Təbii hüquq sanki müəyyən cəmiyyətdə mövcud olan hüquq normaları sisteminə qarşı qoyulur. Hüquq tarixinə görə, hüquq tarixi təkamülün üzvi tərkib hissəsidir və torpağa atılan toxum kimi o, xalqın şüurunda yetişir, həmçinin, adətlər, qanunlar şəklində təzahür edir.

***Açar sözlər:*** *hüquq, cəmiyyət, dövlət, qanun, insan*

**Karim Novruzov**
Aghdam District Secondary School No. 95
atillanovruzov55522@gmail.com

# Law, freedom, justice and nationality: A brief philosophical approach

**Abstract**

Society and the state may function normally in conditions where public relations are regulated and public rules are observed. The right plays an important role in organizing social life, regulating the behavior of people and the activities of collectives. The question about the concept of law is disputed. There are different definitions that representatives of different fields of legal science have given to law over time, and they currently give.

One of the theories on the essence of law, the theory of natural law, believes that law itself has an absolute, unchanging beginning of justice and that it exists naturally. Natural law is literally set against a system of legal norms that exists in a particular society. According to legal history, the history of law is an organic component of evolution, and as a seed thrown into the soil, it grows in the consciousness of the people and also manifests in the form of customs and laws.

***Keywords:*** *right, society, state, law, human*

## Giriş

"Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə tədricən gedir".

(Heydər Əliyev)

"Kim güclüdürsə, o, haqlıdır" fəlsəfəsi ilə "kim haqlıdırsa, o, güclüdür" fəlsəfəsi iki əks qütbdür. Gerçək həyat bu qütblərin arasındadır.

(Əbu Turxan)

"Bütün ədalətsizliklər arasında ən dözülməzi qanun adı altında törədilən ədalətsizlikdir".

(Aristotel)

Hüquq təbiətən meydana gəlmir və onun necəliyini xalqın inkişaf tarixi müəyyən edir. Hüququn psixoloji məktəbləri isə hüququn meydana gəlməsini və fəaliyyətini cəmiyyətin sosial-iqtisadi həyatı ilə yox, şəxsiyyətin psixologiyası ilə izah edir (Hacızadə, 2002: 14, 138, 417). Ümumi yanaşsaq görərik ki, əgər hüquq sosial hadisədirsə, onda o da dövlət kimi müəyyən mərhələlərdə cəmiyyətin inkişafının məhsuludur və sıx-qarşılıqlı əlaqədə olduğu dövlətlə birlikdə inkişaf edir. Hüququn sosial əhəmiyyətinə diqqət yetirsək görərik ki, bu gün ictimai həyatda, hər bir insanın həyatında onun rolu çox vacib əhəmiyyət kəsb edir. Artıq məlum oldu ki, hüquq insanların davranışlarının ümumi tənzimləyicisidir və bu əlamətinə görə hüquq dövlətin, cəmiyyətin, təbiətin, insanların sağlamlığında, təhsilin, mədəniyyətin qorunub inkişaf etdirilməsində mühüm rol oynayır. Hüququn mahiyyəti və dəyəri onun cəmiyyətdə vətəndaşların azadlıqlarının qorunması və inkişafı, həmçinin, qanunçuluq rejiminin bərqərar olunmasındakı rolu ilə müəyyənləşir. Hüquqdan kənar heç bir müsbət inkişaf mümkün deyil. Hüquq insanların mövcud davranışını ifadə etməklə yanaşı, ümumbəşəri dəyərlərin bərqərar olunmasına hərtərəfli imkanlar yaradır. Hüquq azadlıqdır - deyirlər. Fərdlərin azadlığı onların iradəsinin azadlığıdır. Aristotel, H.Hrotsi və ardıcılları hüququn iradi xarakterini iradi qaydalarda, Russo ümumi iradənin ifadəsində, marksistlər isə sinfi iradədə görürlər.

Bir də “insanlar bərabər olduqları qədər azad, azad olduqları qədər bərabərdirlər” deyimi var. Hüququn dayandığı ədalət və qanun qarşısında bərabərlik prinsipləri antihüquq qanunların qəbulunu istisna edir. Bu prinsiplər, qanunun üstünlüyü prinsipi ayrı-ayrı adamlara fərqli yanaşmanı, hüququ hərənin öz arşını ilə ölçməsini rədd edir.

Bəşəriyyət insan cəmiyyətini hüquqla idarə etməkdən yaxşı bir üsul tapa bilməyib, çünki hamı üçün qəbul edilə biləcək ortaq mövqedir. Böyük rus hüquq filosofu S.Alekseyev “xüsusi yol” azarkeşlərinə xatırladırdı ki, sizin nə qədər xüsusi yolunuz olsa da, o, hüquq yolu olmaya bilməz. Asiya və Cənubi Amerikanın təbii sərvətlər hesabına inkişaf etmiş dövlətlərinin iqtisadi yüksəlişi yolundakı çətinliklər və “tupik”lər məhz “xüsusi yol”un ümumsivilizasiya kriteriyaları və tələblərinə (hüquq və insan haqları) uyğun gəlməyən tərəfləri ilə bağlıdır.

Kanta görə, hüquq Tanrının yer üzünə bəxş etdiyi ən müqəddəs nemətdir. Hüquq cəmiyyətini yaratmamış və ya yaratmaq istəməyən hakimiyyətlər Kantın görmək istədiyi vətəndaş cəmiyyətindən hər zaman geri qalırlar.

Çağdaş hüquq fəlsəfəsi hələ də antik dövrün ideyalarını (azadlıq, bərabərlik, demokratiya, hüquq dövləti və s.) dartışmaqla məşğul olsa da bu ideyaları əsasən gerçəkləşdirə bilmiş dövlətlərin hüququ məhz o ideyaların gəlişməsinin nəticəsidir.

Quldarlıq hüququ, feodal hüququ, burjua hüququ, sosialist hüququ konkret və çox bəsit anlayışlardır. Bu prizmadan baxanda ayrı-ayrı ölkələrin qanunvericiliyinin mahiyyətini, bütövlükdə hüququn fəlsəfəsini anlamaq çətin deyil. Bu formasiyalarda hüququn mahiyyəti toplumun azadlıq səviyyəsi ilə, adətən, düz mütənasib olub.

Qədim və orta əsrlərdə insana verilən azadlığın dozası o qədər də ört-basdır edilmir – qulla quldar, feodalla təbəə faktiki olaraq nə qədər bərabərdirsə, hüquqları da o qədər bərabərdir və ya tərsinə.

Kapitalizm formal bərabərlik elan edərək nə qədər irəli gedirsə, hüquq da o qədər inkişaf edir. Hər halda Fransa inqilabı bərabərlik inqilabı sayıla bilər və bəşəriyyət onun nəticələrindən daha çox yararlanıb. Bünövrəsi on altıncı yüzillikdə, əslində ondan da qabaq qoyulmuş hüquq dövləti ideyasını filosof, həkim Con Lokk və keşiş Monteskyö elan edərək bəşəriyyətə hələlik analoqu olmayan dövlətçilik idealları elan etdilər.

Hüquq – dəyərdir (Kant). Əxlaq kimi. Onların qoruyucuları (hüquq sanksiyaları və qınaq) fərqli olsa da onları birləşdirən məqamlar da var. Sanksiya da qınaqdır, qınaq isə əxlaq pozucusuna qarşı toplumun tətbiq etdiyi sanksiyadır. Bunların heç biri rolunu yetərincə icra etməyəndə toplum əxlaq və hüquq orientirlərini itirir. İdealda hər ikisinin işlək mexanizm olması gərəkir. Lakin qanunların icrasında əxlaq nə qədər gərəkli olsa da, hətta qanun qarşısında dayanmayanı əxlaqın dayandıracağı illüziyadır. Həm də ona görə ki, əxlaq – toplumun könüllü tabeçiliyidir.

Kimliyindən asılı olmayaraq (dövlət, toplum, fərd), qanuna tapınmamaq əxlaqsızlıqdır. Qəribədir, qanun qarşısında dayanmamaq, bəlkə də, məhz əxlaq problemindən qaynaqlanır. Hər kəsin daxilində bir əxlaq baryeri var və onu tapdayıb keçən güc qarşısında hüquq da acizdir. Əxlaqın dəyərlərinə sayğısız olanın hüquq dəyərlərini pozması elə də çətin məsələ deyil.

Hüquq – toplumun dəyəri olmalıdır. O, azad, ədalətli, demokratik seçki yolu ilə formalaşmayan hakimiyyətin dəyəridirsə, ona toplumun dəyəri kimi baxmaq olmaz. Bəzən məhz dəyərin qrup dəyəri olması toplumda ona qarşı laqeydlik yaradır. Məsələn, büdcəsini doldurmaq üçün xalqın həyat səviyyəsi ilə ayaqlaşmayan astronomik cərimələr müəyyən edən hüquq ədalətli deyil, hüququn prinsiplərinə ziddir, buna görə də toplumun qəbul etdiyi qaydaya çevrilmir. Təkcə zor gücünə icra etdirilən hüquq isə hüquq deyil. Dövlətin boynunda insanların layiqli həyat səviyyəsini təmin etmək öhdəliyi var. Köhnə və yeni dövlətlərdə indi "sosial yönümlü dövlət qururuq" çağırışları dəb halını alıb. Sosial yönümlü dövlət yeni ideya deyil. Sosial rifah dövləti azad və bərabər hüquqlu subyektlərin dövlətidir. Bu baxımdan istənilən ölkənin gerçəkliyini görmək üçün onun Konstitusiya və qanunlarına, onların tətbiqi praktikasına, özəlliklə, büdcə xərclərinə baxmaq yetərlidir. Sosial dövlət propaqandası ən tez ifşa olunan uğursuz siyasi kələkdir. Çünki onun gerçəkliyini toplumun çoxluğu öz dərisində daha tez hiss edir və ağrılı yaşayır.

Dövlət – hüquq hadisəsidir. Pozitiv hüquq onun məhsuludur. Dövlət qoyduğu qaydaları öncə özü dəqiq icra etməli, sonra bunu başqalarından tələb etməlidir. Qanunun üstünlüyü, bərabərlik, məsuliyyətin hamı üçün qaçılmazlığı prinsiplərini pozan, insan haqlarına sayğısızlıq edən dövlət toplumdan qanuna hörmət tələb etmək haqqını itirir. Formal olaraq bu haqqın əldə saxlanması güvənli perspektiv vəd edə bilməz (Atakişiyev, 2008: 65-67).

"Pozitiv hüquq – dövlətin qəbul etdiyi qanunlar yazılı hüquqdur. Toplum təkcə onunla idarə olunmur. Pozitiv hüquq institutlar sistemidir. Dövlət orqanları, dini qurumlar, vətəndaş cəmiyyəti təşkilatları pozitiv hüququn institutları kimi cəmiyyətin idarə olunmasında iştirak edir (etməlidir). Bu institutların fəaliyyətinin səviyyəsi, gücü, gerçəkliyi dövlətin demokratikliyinin əyani göstəricisidir". Sonralar Kant, Hegel, Cefferson və başqaları hələlik analoqu olmayan bu ideyanı daha da inkişaf etdirdilər. İnsan hüquqları ideyası da, nəhayət, yeni nəfəs qazandı və gerçəkliyə çevrilməyə başladı.

Hüquq dövləti qanunun üstünlüyünə bağlıdır, qanunun üstünlüyü isə yalnız hüquq dövlətində, qanunun hakimiyyətinə dayanan hakimiyyətin bölünməsi şəraitində mümkündür.

Hüquq – yüksək ümumbəşəri dəyərdir. Ona nəyin bahasına olursa-olsun hakimiyyət əldə etmə və onu qoruyub saxlamaq vasitəsi kimi baxmaq bu dəyərlərə nəinki ziddir, üstəlik, onların inkarıdır. Təsadüfi deyil ki, hüquq fəlsəfəsinin atası Kant hüququ idrak hadisəsi sayırdı. İdealın nədirsə, məhsulun da odur.

Hüquq fəlsəfəsinə görə, hər hansı dövlətin qanunvericiliyində olan qadağalar, qısıtmalar və məsuliyyət müəyyən edən normaların icazəverici normalardan üstünlüyü (çoxluğu) o dövlətin totalitar, avtoritar və ya demokratik dövlət olmasının başlıca göstəricisidir.

Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Vətəndaşın hüquqları şəxsin müəyyən dövlətə məxsusluğu ilə bağlıdır. Onlar dövlət tərəfindən müdafiə olunur.

İnsan hüquqları institutu məzmun etibarilə müxtəlif, eyni statusa sahib olmayan hüquqları tədqiq edir və qoruyur. Lakin mülkiyyət hüququ təbii və əsaslı hüquq olduğu halda konkret bir həyat tərzi ətrafında birləşməyi təmin edən həmrəylik hüquqlarının mahiyyəti hələ tam aydınlığa qovuşmayıb. Habelə insan hüquqları institutu mənbə etibarilə beynəlxalq sənədlərə söykəndiyi kimi, milli qanunvericilik müddəalarına da əsaslanır.

İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur:

"Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir".

İnsan olmaq, mahiyyət etibarilə, hüquqlara sahib olmaqdır. Bu hüquq və azadlıqlar elə bir sosial-fəlsəfi kateqoriyalardır ki, insanın təbiətindən, yəni onun varlığından və özünüifadəsindən törəyir. Ona görə də hər bir kəs öz hüquqlarını dərk etməli, bu hüquqlar haqqında müəyyən biliklərə malik olmalı, bu hüquqları həyata keçirmək üçün təcrübə və səriştə qazanmalıdır. Hüquqlarının təmin olunmasını tələb etməyən, onların reallaşmasına çalışmayan insan öz ləyaqətinə, mənsubiyyətinə, mənliyinə, əxlaqına yadlaşması və özgələşməsi ilə qarşılaşır. İnsan özündən asılı olmayan səbəblərə görə, hüquqlarını reallaşdıra bilmədikdə, yaxud hüquqlarının məhdudlaşdırılmasına və nəticədə onların itirilməsinə yol verdikdə yaşamalı olduğu layiqli insan həyatından məhrum olunur. Bu, insanların şərəf və ləyaqətinə tam cavab verən və kamil bir həyatı ifadə edən, müəyyən qədər utopik çalarlar daşıyan insan hüquqları doktrinasıdır. İnsan hüquqlarının səciyyəvi cəhətlərindən biri ondan ibarətdir ki, insan heç vaxt malik olduğu hüquqlarla kifayətlənmir, daim siyasi və hüquqi mübarizə yolu ilə yeni hüquqlar əldə etmək niyyətində olur. Göründüyü kimi, insan hüquqları daim dinamikada olan, müdafiəsi üçün hüquqi təminatın yaradılmasını tələb edən, hamı tərəfindən etirafa iddialı olan fenomendir.

İnsan haqları ideyası formalaşdığı zamandan həm fəlsəfi, həm də hüquqi ədəbiyyatlarda rast gəlinən “təbii hüquqlar” anlayışı heç də birmənalı anlaşılmırdı. Hələ XIX əsrin əvvəllərində ingilis liberalizminin banilərindən biri olan İyeremiya Bentam bu ifadəyə qarşı çıxaraq, “təbii hüquqlar”ın hər hansı sosial kontekstdən kənarda cəfəngiyyat olduğunu iddia edirdi. Sonralar Karl Marks bu fikri müəyyən qədər dəstəkləyərək insanların ictimai münasibətlərdən təcrid olunmuş halda – “sosial mənada” qismində baxılmasını yanlış mövqe hesab etmişdir. Amerikanın tanınmış alimi Cak Donell insan haqlarının insanın təbiətinin, əxlaqının, həyat tərzinin, davranışının güclü təsirinə məruz qaldığını iddia edir. Ona görə, insan hüquqları ideyası insanın qabiliyyət və bacarıqlarını nəzərdə tutan sosial müstəvidir. Tədqiqatçıların bəziləri iddia edirlər ki, insan hüquqları ictimai praktikada reallaşarkən həm insanların ehtiyacları, həm də dövlətin maraqları təmin olunmalıdır. Belə təminolunma zamanı dövlətin atacağı addımların çərçivəsi və şərtləri insanın təbiəti, onun sosial mahiyyəti ilə müəyyən olunur.

Müasir dövrümüzdə fəaliyyətdə olan “insan haqları” məhfumu müəyyən inkişaf yolu keçərək müxtəlif beynəlxalq müqavilələrdə və dövlətlərin konstitusiyalarında möhkəmlənmiş və bu haqların müdafiəsi üçün təminat mexanizmləri və müvafiq qurumlar yaradılmışdır (Qəndilov, 2007: 193).

İnsan haqları ideyasının əxlaq normaları ilə əlaqələndirilməsi zəruri olsa da bu normaların insan hüquqlarının ifadəsi üçün yetərli olmaması da bir reallıqdır. İnsanların yaşadıqları cəmiyyətlərdə və mənsub olduqları mədəniyyətlərdə əxlaq normalarının müxtəlifliyi insan hüquqlarının məzmununa da müxtəliflik qatır. Burada nəzəri təhlil əsasında insan hüquqları anlayışına daha müfəssəl şərh vermək mümkündür (İmanov, 2005: 254).

Əvvəla, sosial-siyasi müstəvidə insan mahiyyətinin araşdırılması ilə onun beynəlxalq hüquqi sənədlərdə müəyyən olunmuş hüquqlara iddiasına haqq qazandırmaq olar. Yəni insan ehtiyacı olduğu hüquqları reallaşdırmaqla sosial-siyasi həyatda öz yerini tutur. İkincisi, insan hüquqlarının formalaşmasına təsir göstərən məqamların mahiyyətinin təhlili bu hüquqların hüdudlarını müəyyən etməyə imkan verir. Təbii ki, ictimai praktikada reallaşan insan hüquqları hər bir fərdə və hamıya şamil edildiyindən bu hüquqların həm fərdlərə görə məxsusi, həm də hamıya görə ümumi cəhətləri üzə çıxır.

İnsan haqlarının subyekti kimi “insan” dedikdə, kimin nəzərdə tutulduğu məsələsi önəmlidir. İnsan hüquqları haqqında qəbul edilmiş bütün beynəlxalq sənədlərdə insan və insanlardan danışılır. Bu sənədlərin mətnlərindəki insan məhfumu fərdi nəzərdə tutur. Fərd dedikdə, kəmiyyətcə tək olan, hüquq və azadlıqlara malik və hüquqlardan istifadə edən, azadlıqlardan bəhrələnən şəxs başa düşülür. İnsanın fərd kimi qəbul edilməsi, bəzi çətinliklərin dəf edilməsinə şərait yaradır. Qeyd edək ki, fərd kontekstində insan haqlarının anlaşılması müasir dövrdə qərarlaşmış mövqedir. İlk zamanlar hüquq və azadlıqlarının subyektləri dedikdə, müxtəlif insan təbəqələri (sosial qruplar, kastalar, tarixi birliklər və s.) başa düşülür və məhdudiyyətlər müəyyən olunurdu. O dövrlərdə insan hüquqları müəyyən qrup insanlara şamil edilmiş, yalnız sonradan universallaşmışdır. Məsələn, Avropada ilk dəfə qəbul edilmiş 1215-ci il tarixli məşhur “Magna Carta Libertatum” (“Böyük

Azadlıq Xartiyası") Britaniya Krallığının fərqli silklərinə və təbəqələrinə ünvanlanaraq yazılmışdırsa, 1948-ci il tarixli "İnsan hüquqları haqqında ümumi Bəyannamə" bəşər nəslinin bütün üzvlərinə, hər bir insana xitabən yazılmışdır. İnsan haqlarına dair bu əhəmiyyətli müddəa insan haqlarından söhbət düşdükdə, bir qayda olaraq, ayrı-ayrı kollektiv hüquq daşıyıcılarından danışırlar - məsələn, uşaq və qadın, məcburi köçkün və qaçqın, əlil, təqaüdçü, ahıl və s. hüquqlardan. İnsan hüquqları dedikdə, konkret fərdlərin hüquqları başa düşülür. Biz, şübhəsiz, xalqımızın, qaçqınların, əlillərin və digər sosial qrupların hüquqlarını müdafiə etməliyik. Bu sahədə tələb olunan bütün işləri görməliyik. Ancaq bu problemlər digər normalar sistemi ilə tənzim olunur. İnsan hüquqlarının subyekti isə, ancaq konkret insan, fərd, vətəndaş ola bilər (Bayramov, Əlizadə, 2003: 257).

Demokratik cəmiyyət və ya hüquqi dövlət dedikdə, ilk öncə yada insan hüquq və azadlıqlarının müdafiəsi düşür. İnsan hüquqları müasir dünyamızın hər bir demokratik dövləti tərəfindən ən prioritet hesab edilən mövzulardan sayılır. Müstəqil Azərbaycanda da insan hüquq və azadlıqlarının təmin edilməsi, onların müdafiəsi və daha da genişləndirilməsi dövlətin ən ali məqsədi elan edilib.

Bu ali məqsədin müəyyənləşdirilməsi, onun həyata keçirilmə mexanizmlərinin tapılması və reallaşdırılması, sözügedən sahədə hüquqi bazanın yaradılması isə müstəqil dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. H.Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkədə hüquqi dövlət quruculuğu sahəsində ardıcıl, sistemli və gələcəyə hesablanan islahatlara start verildi. Azərbaycanın bu gün dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınması, ölkə vətəndaşlarının hüquqlarının, azadlıqlarının təmin edilməsi, müdafiə olunması məhz ümummilli liderin adı ilə bağlıdır. H.Əliyevin Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi və demokratik inkişaf yolu ilə inamla irəliləməsi üçün gördüyü işlər barədə məlumatlandırılmaq, gənc nəslin onun fəaliyyətinə dair mütəmadi biliklər əldə etməsi bugünkü zamanımızın tələbidir. Çünki Azərbaycan məhz müstəqil dövlətimizin qurucusunun qoyduğu yolla prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyir, ardıcıl uğurlar qazanır.

H.Əliyevin bu sahədə ən böyük əməyi məhz müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması və qəbuludur. 1995-ci il noyabrın 12-də xalq ümummilli liderin bu təşəbbüsünü dəstəklədi.

Beləliklə, keçmiş sovet konstitusiyalarından fərqli olaraq ilk dəfə konstitusiyamızda dövlət hakimiyyətinin bölgüsü prinsipi həyata keçirilib. Ümumiyyətlə, konstitusiyanın III fəsli (24-71-ci maddələr) bütövlükdə, yəni 158 maddədən 48-i insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilib. Konstitusiyanın 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Həmin maddədə daha sonra göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra, konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz. Azərbaycan Respublikasının ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. Beləliklə, konstitusiyanın qeyd edilən normalarının təhlili göstərir ki, bu normalar hüquqi dövlət quruculuğu prinsipinin mahiyyətindən irəli gəlməklə cəmiyyətdə qanunun aliliyinə xidmət edir. Ölkəmizdə həmin vaxtdan başlayaraq, ciddi sosial-iqtisadi islahatlarla yanaşı, hüquq islahatı, həmçinin, onun tərkib hissəsi olan məhkəmə-hüquq islahatı həyata keçirilməyə başlayıb. İlk dəfə olaraq üçpilləli məhkəmə sistemi yaradılıb.

Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv edilib. Bu, ümummilli lider Heydər Əliyevin humanist ideyalara sadiqliyini bir daha təsdiq edir. Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi işində ümummilli lider Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair" dövlət proqramı mühüm rol oynayıb. Ulu öndər Heydər Əliyevin Azərbaycanda insan hüquq və azadlıqlarının təmini və müdafiəsi istiqamətində gördüyü işlərin ən vaciblərindən biri də "İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" qanunun qəbul edilməsi və Ombudsman Aparatının yaradılmasıdır. Ölkədə Ombudsman Aparatı

yaradıldıqdan sonra vətəndaşların hüquqlarının müdafəsi sahəsində daha ciddi nailiyyətlər əldə edilməyə başlandı.

Demokratik cəmiyyətdən söz düşəndə diqqət yetirilən ən vacib məqamlardan biri də söz və mətbuat azadlığı, onun necə təmin edilməsidir. H.Əliyev vətəndaşların azad şəkildə özünüifadəsinin yalnız inkişafa, tərəqqiyə, demokratiyaya xidmət etdiyini bildiyi üçün məhz bu məsələnin ölkənin ən ali qanununda əksini tapması məsələsinə xüsusi diqqət yetirib. Konstitusiyanın 47-ci maddəsi isə ölkəmizdə fikir və söz azadlığının təminatı məsələsini özündə ehtiva edir. Azərbaycanda azad mətbuatın formalaşması, hər kəsin öz fikrini sərbəst şəkildə ifadə edə bilmək imkanı qazanması, təbii ki, ümummilli liderin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə bu azadlıqları məhdudlaşdıran maneələr aradan qaldırıldı, senzura ləğv edildi. 1998-ci il avqustun 6-da Heydər Əliyev "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu Fərmanın bir bəndi ilə mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu. Bu, senzuranın ləğvi demək idi.

Bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insaniləşdirən ən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur. Məlumdur ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Ölkəmizdə insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulması, bir milyondan çox qaçqın və məcburi köçkünlərin huquqlarının tapdanması ölkəmizdə dərin sosial-siyasi gərginlik yaratmaqla yanaşı, insanların psixoloji durumuna mənfi təsirlər göstərdi. Ancaq ictimai fikir heç vaxt bu ədalətsizliyə göz yuman beynəlxalq hüququn biganəliyi qarşısında məyus olmadı və qələbə əzmini itirmədi. Hər bir Azərbaycan vətəndaşı öz həyat fəlsəfəsində yalnız bir amalı formalaşdırmışdır ki, bu da heç vaxt ədalətsizlik qarşısında aciz qalmamaq və torpaqları azad edərək ədaləti bərpa etməkdən ibarət idi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2019-cu ilin oktyabrında Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı da xalqımızın güc və həmrəyliyinin rəmzi olan "Dəmir yumruq"un gerçək və real bir həqiqətə çevrilməsinin başlanğıc nöqtəsi oldu. "Dəmir Yumruq" əməliyyatı ilə Azərbaycan 44 günlük Vətən müharibəsində düşmənin 30 ilə yaxın işğal altında saxladığı və xarabazara çevirdiyi yurd yerlərimizin azad edilməsinə nail oldu. Hərbi yolla, döyüşərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdi. Dünya Ermənistanın qarşısında yenilməz, müasir və çevik Azərbaycan Ordusunun nəyə qadir olduğunu gördü. İllər boyu özünün deyil, yalnız himayədarlarının köməyinə arxalanan erməni hərbi-siyasi rəhbərliyi ağır məğlubiyyətə düçar oldu. Danışıqların 30 ilə qədər uzanması xalqımızın səbr kasasını daşırmışdı. "Dəmir yumruq" Vətən dərdinə son qoydu. Azərbaycan öz Silahlı Qüvvələrinin gücü ilə ölü doğulmuş körpəni xatırladan Birləşmiş Millətlər Təşkilatının 4 qətnaməsinin icrasına nail oldu. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Vətən müharibəsi günlərində iki cəbhədə öz yumruğunu bayraq kimi yuxarı qaldıraraq həm döyüş meydanında, həm mediada qələbə qazandı. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı.

Müharibə günlərində dünya birliyi Azərbaycan xalqının iradəsinin, ordumuzun sarsılmaz qüdrətinin, dövlət başçımızın müdrikliyinin və uzaqgörənliyinin şahidi oldu. Biz həm döyuş, həm də siyasət meydanında sübut etdik ki, Qarabağ Azərbaycan torpağıdır. Ali Baş Komandan dəmir yumruğunun gücünü və hikmətini xalqa belə açıqladı: "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına

müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq"!

Müharibədə qalib gəlmiş ordu həm də sülhün təminatçısı rolunu oynayır. Bu gün Azərbaycan xalqının dəmir yumruq kimi bir olmasının nəticəsidir ki, Azərbaycanın dövlət başçısı "Dəmir yumruq" fəlsəfəsini dəmir məntiqlə, daha qüdrətli Azərbaycan uğrunda diplomatik müstəvidə əzmlə davam etdirir.

Ədalətin və hüququn həyata keçməsi üçün dəmir yumruq tətbiqi mütləqdir və haqlı olduğunu sübut etmək üçün güclü olmaq lazımdır.

## Nəticə

Ümumilikdə belə bir qənaətə gəlmək olur ki, ədalətin təmin olunması, hüquqların mexaniki olaraq həyata keçməsi üçün lazımi şüurlu insanlardan ibarət olan cəmiyyət formalaşmayıb. Yaşadığımız dünya hələ bəşəri dəyərlərə sahib deyil. Multikultural və qlobal təfəkkürə sahib insanlardan formalaşmış cəmiyyətin yaranması üçün öncəliklə bunun fəlsəfi anlamını şüurlara həkk etmək gərəkir. Qlobal, tolerant və gender bərabərliyi hüququna tarixən hörmət edən, düşüncəli mənəviyyata sahib toplum ancaq Azərbaycan mühitində mövcud olmuşdur.

Görkəmli şair, maarifçi, ictimai-siyasi xadim, mütəfəkkir S.Rüstəmin bir beyt şeirində milli kimliyimiz tam əks olunub desək, yanılmarıq...

Qanımızda dövr edən sədaqətdir, sədaqət,
Günəşdən də parlaqdır gözümdə bu həqiqət,
Dostuna, qardaşına təmənnasız məhəbbət,
Hörmət görmək istəyən Azərbaycana gəlsin!

## Ədəbiyyat

1. Hacızadə, H. (2002). "Demokratiya – gediləsi uzun bir yol". Bakı, s.14, 138, 417.
2. Atakişiyev, B. (2008). İnzibati hüquq və terminlər. Bakı, s.65-67.
3. Qəndilov, S. (2007). Politologiya. Bakı, s.193.
4. İmanov, H. (2005). Fəlsəfə. Bakı, s.254.
5. Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. (2003). Sosial psixologiya. Bakı, s.257.

Göndərilib: 18.08.2023 Qəbul edilib: 10.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/26/48-52

**Yeganə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
yeganememmedova.doc@gmail.com

# MƏKTƏBƏQƏDƏR DÖVRDƏ UŞAQLARIN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ ƏTRAF ALƏMLƏ TANIŞLIQ MƏŞĞƏLƏLƏRİNİN TƏŞKİLİ

**Xülasə**

Uşaqlarda ətraf aləm həqiqətlərinin dərk edilməsi, ana dilinin mənimsədilməsi ilə sıx sürətdə bağlıdır. Onlar bu yaşlardan bilavasitə dərk etdiyi şeylərdən, ana dilindən müvafiq sözü, adlandıra biləcəyi şeyləri daha möhkəm mənimsəyirlər. Bu dövrdə uşaqlara əşyalar, onların keyfiyyəti haqqında məlumat verilir. Uşaq bağçasının kiçik qrupundan başlayaraq məktəbəhazırlıq qrupuna qədər əşyalar haqqında olan biliklərin dərinləşməsinə fikir verilməlidir, çünki əşyalar aləmi onların nitqlərinin inkişafı üçün əsas vasitələrdən biridir. Ətraf aləmlə tanışlıq prosesində uşaqların nitqinin inkişafı üzrə işlər aparılarkən mümkün qədər çox vasitələrdən, metod və priyomlardan səmərəli şəkildə istifadə olunmalıdır. Bu zaman uşaqlarda danışmaq, fikir söyləməyə həvəs oyatmalı, onlarda şən əhval-ruhiyyə yaradılmalıdır. Məşğələ prosesində nitq inkişafı üzrə aparılan işlər uşaqların idrak fəaliyyətinin inkişafına yönəldilməli, onlarda müqayisə etmək, ümumiləşdirmək, məntiqli mühakimə yürütmək bacarığı aşılanmalıdır.

***Açar sözlər:*** *lüğət ehtiyatı, qrammatik vərdişlər, rabitəli nitq, ətraf aləm, məşğələ*

## Organization of familiarity exercises in the development of children's speech in the pre-school period

**Summary**

Understanding the truths of the surrounding world in children is closely related to mastering the mother tongue. From this age, they master the appropriate word from their mother tongue, the things they can name, more firmly than what they understand directly. During this period, children are informed about things and their quality. From the small group of kindergarten to the preschool group, attention should be paid to deepening the knowledge about objects, because the world of objects is one of the main tools for the development of their speech. As many tools, methods and principles as possible should be used efficiently when working on the development of children's speech in the process of getting to know the world around them. At this time, children should be encouraged to speak and express their opinions, and a cheerful mood should be created in them. In the course of the training, the work on speech development should be focused on the development of children's cognitive activity, the ability to compare, generalize, and make logical judgments should be inculcated in them.

***Keywords:*** *vocabulary, grammatical habits, communicative speech, environment, exercise*

## Giriş

Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitqinin inkişafına bir çox amillər təsir göstərir. Bu amillər içərisində ətraf aləmin təsiri daha böyükdür. Ətraf aləm anlayışının dairəsi çox geniş olmaqla uşağın daim təmasda olduğu mühiti, təbiəti və cəmiyyəti əhatə edir. Uşaqlar bu ictimai mühitin və təbiətin əhatəsində tərbiyə alıb böyüyürlər. Onlar ətraf aləmin əlamətləri, fakt və hadisələri ilə maraqlanır, bu prosesləri ifadə edən sözləri öyrənməklə öz lüğət ehtiyatlarını zənginləşdirirlər. Deməli, uşaqlar üçün maraqlı olan ətraf mühit həm də onlar üçün söz bazasıdır. Təbiətin qoynunda, bitkilər və canlılar əhatəsində uşaq "ünsiyyət" üçün mövzu tapır. Bu prosesdə onların müşahidəçilik qabiliyyəti, təfəkkürü və nitqi inkişaf edir. Bu dövrdə uşaqların ətraf aləm haqqında biliklərinin həcmini müəyyən etmək onların mənəvi cəhətdən normal inkişafı üçün çox

vacibdir.Uşaqlarda ətraf aləm həqiqətlərinin dərk edilməsi, ana dilinin mənimsədilməsi ilə sıx sürətdə bağılıdır. Onlar bu yaşlardan bilavasitə dərk etdiyi şeylərdən, ana dilindən müvafiq sözü, adlandıra biləcəyi şeyləri daha möhkəm mənimsəyirlər. Bu dövrdə uşaqlara əşyalar, onların keyfiyyəti haqqında məlumat verilir. Uşaqlar əşyaların adlarını bilməli, onları nitqdə düzgün işlətməlidirlər. Gündəlik əşyalarla tanışlıq uşaqların sensor inkişafı üçün estetik qavrayışın tərbiyə olunmasına kömək edir. Uşaqların ətraf mühitlə tanışlığında tərbiyəçinin müstəsna rolu vardır. Təbiətlə tanışlıq tərbiyəçinin həmişə diqqət mərkəzində olmalıdır (Həsənov, 2000: 139).

Kiçik qrupda uşaqlara havanın vəziyyəti, orta və böyük qrupda isə fəsil, hər fəslin əlamətləri öyrədilir, bu sahədə onların təsəvvürləri genişləndirilir. Məktəbəhazırlıq qrupunda isə uşaqlar ev heyvanlarını, quşları, mebelləri qruplaşdırmağı öyrənirlər. Tərbiyəçi ətraf aləmin sirlərini uşaqların yaş və anlaq səviyyəsinə uyğun olaraq izah etməlidir. K.D.Uşinskinin qeyd etdiyi kimi, uşaqların gözü qabağında duran və ya onun hafizəsində möhkəm yer edən əşya başqalarının sözünün köməyi ilə olmadan öz-özlüyündə uşaqda fikir oyadır, əgər uşağın fikri səhvdirsə, onu təshih edir, əgər natamamdırsa, onu tamamlayır, əgər o qeyri-məntiqi şəkildə qurulubsa, onu təbiət əyani şəkildə düzgün sistemə salır. Əşya özü uşağa suallar verir. Onun cavablarını təshih edir, onu nizama salır və uşaqlara müəllimin dilindən və ya kitabın səhifələrindən hazır cümlələri mənimsəyir, fikirləşir, danışır (Əsgərova, 2006: 98).

Məktəbəqədər təhsil müəssisələrində uşaqların ətraf aləm haqqında təsəvvülərini möhkəmləndirmək üçün müşahidələr və ekskursiyalar təşkil etmək, şəkillərə baxmaq və onların məzmununa aid müsahibələr aparmaqla onlarda düzgün nitqin inkişafına nail olmaq olar. Müşahidə ətraf mühitdə cisim və hadisələri məqsədyönlü və planlı, uzunmüddətli qavrama prosesidir. Onun məqsədi cisim və hadisələri sadəcə göstərmək deyil, ətraf mühitdə baş verən dəyişiklikləri uşaqlara müşahidə etdirməkdir. Müşahidə planına uyğun iş aparmaq onlarda müstəqil olaraq mühüm cəhətləri ikinci dərəcələrdən fərqləndirmək keyfiyyətini formalaşdırır. Müşahidə edərkən uşaq obyekti ona bənzər digər obyektlə tutuşdurur, müqayisə edir, başlıca əlamətləri, xassələri haqqında mühakimə yürüdürlər. Məqsədyönlü qavrayış, düşünülmüş bir proses olan müşahidə varlığı dərindən dərk etməyə imkan verir. E.M.Tixeyeva uşağın nitqini inkişaf etdirmək üçün onu əşyalarla əhatə etməyi məsləhət görürdü. O, qeyd edirdi ki, bu əşyaları uşaqla birlikdə baxıb, müqayisə edin. Uşaqlar onları öyrənir və müşahidə nəticəsini sözlə ifadə edirlər. Quru divarlar içərisində uşaq danışmağı öyrənə bilməz. Təbiət üzərində təşkil edilmiş müşahidələr uşaqlara təbiət hadisələrində baş verən dəyişiklikləri görmək, onların səbəbini müəyyənləşdirməyə və nəticə çıxarma kimi bacarıqları aşılayır (Kərimov, 2002: 120).

Müşahidə prosesində uşaqları canlı və cansız təbiətlə tanış edərkən onlar müxtəlif analizatorların köməyi ilə təbiətin əlamət və hadisələrini görür, hiss edir, həm də necə adlandırıldığını öyrənirlər. Təbiətdə təşkil edilmiş müşahidələr canlı keçirilməli, uşaq bu prosesin fəal iştirakçısına çevrilməlidir. Əgər uşaq sakit dayanıb qeyri-fəal olarsa, tərbiyəçi qarşısına qoyduğu məqsədə nail ola bilməz. Yalnız ünsiyyət prosesində uşaq əyani şəkildə gördüyü, qavradığı əlamət və hadisənin ifadə olunduğu sözü yadında saxlaya bilər. Ona görə tərbiyəçi elə şərait yaratmalıdır ki, uşaq öz yaşıdları ilə müşahidə apardığı əşya və hadisələr barədə dialoqa girsin. K.D.Uşinski qeyd edirdi ki, "qoy uşaq həyatı müşahidə etsin, başa düşsün və nitqini bu yolla zənginləşdirsin. Onda məzmunla forma birlikdə inkişaf edir" (Sadıqova, 2008: 22). Uşaqların adi gəzintiləri, özbaşına seyirçi fəaliyyəti tərbiyəçinin istiqamətləndirici rəhbərliyi altında təşkil olunmuş ekskursiyalarla, müşahidələrlə əvəz edilməlidir. Belə müşahidələr prosesində tərbiyəçi uşaqlara suallar verməklə onların diqqətini ətraf aləmdəki əşya və hadisələrə yönəldir. Məsələn əgər uşaqlar nəqliyyatın çox olduğu yerə ekskursiyalara getməlidirsə, tərbiyəçi qabaqcadan müsahibə metodundan istifadə edərək, onlara küçə hərəkəti qaydalarından nəyə daha çox diqqət yetirmələrini öyrətməlidir. Bu zaman tərbiyəçi aşağıdakı suallarla uşaqlara müraciət edir: Küçəni tənzim edən polis işçisinin vəzifəsi nədən ibarətdir?, İşıqforun müxtəlif rəngli işıqları hansı ardıcıllıqla yanır. Bundan sonra tərbiyəçi 5-6 dəqiqə vaxt verir ki, ətrafda baş verən hadisələri uşaqlar müşahidə etsinlər, sonra onlar gördükləri haqqında məlumat versin. Tərbiyəçi bu zaman bəzi səhv və yarımçıq cavablara düzəliş verərək, müşahidə prosesində öyrəndiklərinə aid suallar verir və bu məqsədlə

müşahidə prosesində onların daha diqqətli olmasına köməklik edir. Müşahidə zamanı tərbiyəçi söhbət vasitəsi ilə uşaqları obyekt haqqında biliyini daha da zənginləşdirir. Müşahidə qısa müddətli (heyvanların, quşların həyatı, hava, ilin fəsilləri və s.) və uzunmüddətli (bitkilərin inkişafı, fəsillərdə baş verən dəyişikliklər və s.) keçirilə bilər. Məşğələnin məzmunu müşahidə metodunun tətbiqi ilə tədricən mürəkkəbləşdirilir. Müşahidə üçün daha çətin obyektlər seçilir, onun planı dəyişdirilir, cisim və hadisələrdə öyrənilmiş yeni sahələr müşahidə edilir, öyrənilmiş əlamətlər arasındakı əlaqə dürüstləşdirilir.

Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi təkcə təbiətlə tanışlıq zamanı deyil, həm də onu əhatə edən əşyalar aləmi, ictimai mühitin təsiri ilə də zənginləşir. Uşaqlar onları əhatə edən əşyaların kəmiyyət və keyfiyyət xassələrini müqayisə edib, qruplaşdırmağı bacarmalıdırlar. Uşağı əhatə edən, müntəzəm təmasda olduğu əşya və hadisələr, onların lüğətinin yeni sözlər hesabına zənginləşməsinə imkan verir. Əşyanın keyfiyyət və xassəsinə həsr olunmuş məşğələlər tərbiyəçidən xüsusi hazırlıq tələb edir. Belə məşğələlərdə əyanilikdən geniş şəkildə istifadə olunmalıdır. Əşyanın hər hansı keyfiyyət və xassəsi ona əks olan keyfiyyət və xassə ilə müqayisə edilməlidir. Belə keyfiyyət və xassə elə əşyalara aid edilməlidir ki, onsuz keçinmək mümkün olmasın. Əşyalar tədricən elə seçilməlidir ki, onların rəngarəng xassələri və keyfiyyətləri olsun. Bu istqamətdə aparılan məşğələlərdə müqayisədən istifadə xüsusi effekt verir. Müşahidə üçün müqayisə edilən əlamətlərin çox olduğu əşyalar götürülməlidir. Bu zaman uşaq obyekti ona bənzər digər obyektlə tutuşdurur, müqayisə edir, hadisələrin adını, başlıca əlamətlərini, xassələrini öyrənir, obyekt haqqında mühakimə yürüdürlər. Bu zaman uşaqlar əşyanın əlamət və xassələrini dəqiq ifadə etməyi öyrənirlər (Hacıyeva, 1992: 47).

Uşaq bağçasının kiçik qrupundan başlayaraq məktəbəhazırlıq qrupuna qədər əşyalar haqqında olan biliklərin dərinləşməsinə fikir verilməlidir, çünki əşyalar aləmi onların nitqlərinin inkişafı üçün əsas vasitələrdən biridir. Məsələn, kiçik qrupda tərbiyəçi soruşur. Uşaqlar siz ətrafınızda hansı əşyaları görürsüz? -Uşaqlar cavab verir: stol, stul, şkaflar, oyuncaqlar, güllər və s. Sonra tərbiyəçi təklif edir ki, uşaqlar gəlin indi bu əşyaları bir-birindən fərqləndirək. Uşaqlar tərbiyəçi ilə birlikdə qrup otağında olan əşyaları ayırmağa başlayırlar: Stolun biri böyük, digəri isə kiçikdir; oyuncaq olan rəflər hündür, şkaflar isə alçaqdır. Əşyalara baxılması və müqayisə edilməsi zamanı uşaqlar öyrənirlər ki, əşyalar müxtəlif rəngdə və formada olur. Ancaq hamısının materialı ağacdandır. Tərbiyəçi məşğələ prosesində təhsilləndirici müşahidəyə geniş yer verməlidir. Uşaqlar hər fəslin özünəməxsus əlamətlərini öyrənmə prosesində fikri fəallıq priomlarından-müqayisə, təhlil-tərkib və ümumiləşdirmənin köməyi ilə konkret anlayışların fərqli əlamətlərini aşkar edə bilirlər. Belə ümumiləşdirmə sayəsində uşaqlarda müəyyən anlayışlar formalaşır, nəticədə onların nitqi, söz ehtiyatı inkişaf edir, rabitəli, obrazlı nitqi təşəkkül etməyə başlayır. Məsələn, payızda uşaqlar havanı müntəzəm müşahidə edir, gördüklərini ümumiləşdirərək, payızın əlamətlərini fərqləndirməyə çalışırlar. Onlar payızda ağacların yarpaq tökməsini, havanın yağışlı olmasını və səmanı müşahidə edirlər.

Məlum olur ki, payızda artıq havalar soyuyur, səmaya qara buludlar çökür. Uşaqlar tez-tez yağış yağdığını müşahidə edirlər. Bu zaman tərbiyəçi uşaqların payız haqqında təsəvvürlərini möhkəmləndirmək üçün tapmaca və atalar sözlərindən istifadə etməlidir. Uşaq bağçasının təlim və tərbiyə proqramında uşaqların ətraf aləm haqqında təsəvvürlərini genişləndirmək üçün şəkillərdən istifadəyə geniş yer verilir. K.D.Uşinski qeyd etmişdir ki, "əgər siz danışdırmaqda çətinlik çəkdiyiniz sinfə daxil olursunuzsa, şəkil göstərməyə başlayın, bu zaman sinif dilə gələcək, həm də azad və sərbəst sürətdə danışacaqdırlar" (Cəfərova, 1997: 14). Şəkillərə baxarkən uşaqlar bilavasitə əşyaların özlərini deyil, təsvirini görür, onları əvvəllər gördükləri əşyalarla müqayisə edir və tanımağı öyrənir, adını yada salırlar. Bu zaman tərbiyəçi çalışmalıdır ki, uşaqlar təsvir olunan məzmunu qavrasınlar.

Tərbiyəçinin şəklə aid konkret sualları əsasında uşaqların diqqəti şəkildə təsvir olunan başlıca hadisələrə yönəldilir, bu zaman suallar düşündürücü olmalı, uşaqları müstəqil fəaliyyətə alışdırmalıdır. Uşaq bağçalarında uşaqların nitqini inkişaf etdirmək üçün şəkillərin üç növündən istifadə olunur:

- Tək əşyalı şəkillər;
- Seriya xarakterli şəkillər;
- Süjetli şəkillər (Kərimov, 1997: 183).

Təcrübə göstərir ki, kiçik yaşlı uşaqlar tək əşyalı şəkilləri təsvir edə bilirlər. Onlar təsvir olunan canlı və cansız əşyaların yalnız gözlə görünən hissələrini, əlamətlərini sadalayır, ya da həmin şəkillər üzrə bir və ya bir neçə cümlə deməklə kifayətlənirlər. Hər cümlədə ancaq əşyanın adını, yaxud onun əlamət və hərəkətini bildirən sözlər deyirlər. Bu zaman uşaqlara iki-üç əşyanın müqayisəli təsvir olunduğu şəkillərin göstərilməsi çox vacibdir, şəkillərin oxşar və fərqli cəhətlərini xarakterik xüsusiyyətlərinin müqayisəsi priyomundan istifadə, əşyaların uşaqların nitqində düzgün inkişafına kömək edir. K.D.Uşinski müqayisənin əhəmiyyətindən bəhs edərək yazır ki, "əgər siz xarici aləmin hər hansı əşyasının aydın başa düşülməsini istəyirsinizsə, onu ən çox bənzər əşyalardan fərqləndirin və onda həmin əşyalardan ən uzaq olanlarını tapın, yalnız o zaman siz əşyanın bütün mühüm əlamətlərini adlandıra bilərsiniz. Bu isə əşyanı başa düşmək deməkdir" (Rəhimov, 2003: 316).

Məktəbəqədər təhsil müəssisələrində uşaqların monoloji nitqini inkişaf etdirmək üçün seriya şəkillərdən istifadə müstəsna əhəmiyyətə malikdir. Seriya şəkillər uşaqların dilini açır, hekayələr tərtib etməyə stimul yaradır. Orta qrupdan başlayaraq iki şəkil üzrə hekayələrin qurulması yaxşı nəticə verir. Məsələn, "Qışda" mövzusu üzərində iki şəkil üzrə müşahidənin təşkili zamanı uşaqlar çoxlu yeni sözlər öyrənir, öz təsəvvürlərini, lüğətlərini, nitqlərinin qrammatik quruluşunun düzgün imkişafını təmin etməklə yanaşı, süjet üzrə məzmunlu hekayələr qururlar. Belə məşğələlərdə plan verilməli, şəklə nədən (kimdən) bəhs olunduğu, hadisənin nə vaxt, harada baş verməsi, iştirak edənlərin məşğuliyyəti, eyni zamanda uşaqların şəklə münasibəti öyrənilməlidir. Böyük qrupda isə uşaqlara müstəqillik verilməli, lazım gəldikdə isə tərbiyəçi köməklik göstərməlidir. Hazırlıq qrupunda uşaqlar çətinlik çəkirsə, tərbiyəçi bu zaman plan verməlidir. Onlar əvvəli və axırı verilmiş hekayələri tamamlamağı, şəkildəki personajı, havanın vəziyyətini, qəhrəmanların hərəkətini, mimika və jestlərini öyrənməlidirlər. Ola bilər ki, tərbiyəçi məktəbəhazırlıq qrupunda uşaqlara seriya şəkillərini qeyri-məntiqi ardıcıllıqla (qarışıq) şəkildə təqdim etsin. Bu zaman uşaqlar şəkilləri müşahidə edərək, onları məntiqi ardıcıllıqla izah etməlidirlər. Süjetli şəkillər seçərkən ilk növbədə onların məzmunu uşaqların bilik səviyyəsinə, yaşına müvafiq olmalı və şəkildə çox əşya və hadislərin təsvir edilməsinə, eyni zamanda şəkillərin bədii cəhətdən gözəl, əlvan boyalarla tərtibinə diqqət yetirilməlidir. Kiçik və orta qrupda uşaqlara yaxın və tanış olan kütləvi tədbirlərə, ictimai bayramlara həsr olunmuş süjetli şəkillər verilməlidir. Belə şəkillər uşaqların şəxsi təcrübəsi ilə əlaqələndirildiyindən onlarda fikri söyləmək, gördüklərini, bildiklərini ifadə etmək arzusu yaranır. Böyük və məktəbəhazırlıq qrupunda Novruz bayramı, 8 Mart, 28 May və s. bayramlarla əlaqədar və tariximizlə, milli-mənəvi dəyərlərimizi əks etdirən süjetli şəkillərdən də istifadə edilməlidir. Belə şəkillərə fikir söyləmək, öz arzusu və istəklərini başqaları ilə bölüşdürmək həvəsi oyadır.

## Nəticə

Məlumdur ki, uşaqlar təbiəti çox sevir, təbiət hadisələrini əks etdirən şəkillər əsasında daha yaxşı danışırlar. Buna görə də həm tərbiyəçilər, həm də valideynlər uşaqları əhatə edən ətraf aləmin fakt və hadisələrini tanış etməkdən imtina etməməlidirlər. Uşaqların fəaliyyətində tez-tez rast gəldikləri hər bir əşyanın, fakt və hadisələri necə adlandırmağı öyrətməklə müntəzəm iş aparmalıdırlar. Bu dövrdə uşaqların ətraf aləm haqqında maraqlarının təmin edilməsi onların lüğət ehtiyatını zənginləşdirməklə yanaşı, həm də onların ətraf aləm haqqında olan biliklərini dəqiqləşdirir. Ətraf aləmlə tanışlıq prosesində uşaqların nitqinin inkişafı üzrə işlər aparılarkən mümkün qədər çox vasitələrdən, metod və priyomlardan səmərəli şəkildə istifadə olunmalıdır. Bu zaman uşaqlarda danışmaq, fikir söyləməyə həvəs oyatmalı, onlarda şən əhval-ruhiyyə yaradılmalıdır. Məşğələ prosesində nitq inkişafı üzrə aparılan işlər uşaqların idrak fəaliyyətinin inkişafına yönəldilməli, onlarda müqayisə etmək, ümumiləşdirmək, məntiqli mühakimə yürütmək bacarığı aşılanmalıdır.

**Ədəbiyyat**

1. Həsənov, A.M. (2000). Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 374 s.
2. Əsgərova, R.Ə. (2006). Məktəbəqədər yaşlı uşaqların rabitəli nitqinin inkişafı. Bakı: Hərbi, 160 s.
3. Kərimov, Y.Ş. (2002). Uşaq məktəbə gedir. Bakı, 144 s.
4. Sadıqova, T. B. (2008). Məktəbəhazırlıq qrupunda ərtaf aləmlə tanışlıq üzrə məşğələlər. Bakı: Nərgiz, 140 s.
5. Hacıyeva, Ə.H. (1992). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı. Bakı: Maarif, 107 s.
6. Cəfərova, L.K. (1997). Uşaqları ətraf aləmlə tanış edək. Bakı: Maarif, 36 s.
7. Kərimov, Y.Ş. (1997). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı, 218 s.
8. Rəhimov, A.N. (2003). Ana dilinin tədrisi metodikası. Bakı: Nurlan, 408 s.

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/26/53-58

**Gülnarə Abbasova**
Azərbaycan Dövlət Aqrar Universiteti
abbasovag13@gmail.com

# ŞƏMKİR REGİONUNDA ŞƏKƏR ÇUĞUNDURUNUN PİVOT SUVARMA SİSTEMİ İLƏ BECƏRİLMƏSİNİN MƏHSULDARLIĞA VƏ MEZO-MAKRO-ELEMENTLƏRİNƏ TƏSİRİ

**Xülasə**

Şəmkir bölgəsində Pivot suvarma ilə şəkər çuğundurunun yetişdirilməsinin nəticələri optimallaşdırılmış texnologiyaların torpaqdakı mezoelementlərin, makroelementlərin səviyyəsinə və məhsuldarlığına müsbət təsiri barədə nəticə çıxarmağa imkan verir. Məlumatların təhlili kənd təsərrüfatı müəssisələri üçün məlumatlı qərarlar qəbul etməyə və müxtəlif mədəni bitkilərin yetişdirmə təcrübələrini inkişaf etdirməyə kömək etmək üçün vacib bir vasitə olaraq qalır.

***Açar sözlər:*** *şəkər çuğunduru, şəkər, mezoelement, makroelement, məhsuldarlıq*

**Gulnara Abbasova**
Azerbaijan State Agrarian University
abbasovag13@gmail.com

# Effect of sugar beet cultivation with pivot irrigation system on productivity and meso-marke-elements in the Shamkir region

**Abstract**

The results of sugar beet cultivation with pivot irrigation in Shamkir region allow us to draw conclusions about the positive effect of optimized technologies on the level and productivity of mesoelements and macroelements in the soil. Data analysis remains an important tool for agricultural enterprises to help them make informed decisions and develop breeding practices for various crops.

***Keywords:*** *sugar beet, sugar, mesoelement, macroelement, yield*

## Giriş

Şəkərin tarixi şəkər qamışı əkilməsi ilə başlamışdır. Bir neçə min il əvvəl şəkər qamışının Hindistan və Çində yetişdirilməsi məlumdur. Ən qədim tarixi məlumat bizim eradan əvvəl 510 - cu ildə Əhmənilər sülaləsinin hökmdarı Dara çay kənarında şəkər qamışı əkdirmişdir. Çay kənarında yaşayanlar şəkər qamışından alınan bu mayeyə “Arizis bal” adını veriblər. Daha sonra bu bitkilər Ərəblər tərəfindən Misirə aparılmışdır. Bu günki şəkər sözüdə ərəb mənşəli kəlmədir. 1747-ci ildə Berlin Akademiyasının direktoru Marqqraf şəkər qamışındakı saxarozanı şəkər çuğundurundan almağa nail olmuşdur. 1801 - ci ildə Rusiyada şəkər çuğundurunda 5 pud şəkər emal olunmuşdur (Cəfərov, 2009: 314).

Şəkər çuğundurunun xalq təsərrüfatı əhəmiyyəti olduqca böyükdür və ona görə də bu bitki əksər ölkələrdə əsas texniki bitkilər sırasına daxil edilmişdir. Bizim respublikamızda pambıq və tütün kimi ən mühüm texniki bitkilərdən sonra, son 2-3 ildə bu bitkinin inkişaf etdirilməsinə xüsusi fikir verilir. Şəkər çuğunduru ilk növbədə ən qiymətli ərzaq məhsullarından sayılan şəkər almaq üçün xammaldır. Dünya üzrə şəkər istehsalının 40%-i şəkər çuğundurundan alınır. 2008-ci ilin məlumatına görə dünyanın 127 ölkəsində 144 milyon ton şəkər çuğunduru istehsal edilir. Orta,

mülayim, mötədil isti və mülayim iqlimli rayonlarda şəkər istehsalı üçün şəkər çuğunduru yeganə xammal mənbəyidir.

Şəkər çuğundurunun meyvəköklərində sort və hibriddən asılı olaraq, müəyyən əlverişli şəraitdə 16-20% şəkər toplana bilir. Bundan zavod emalından sonra 12-15% şəkər çıxarı almaq mümkündür.

Şəkər çuğundurunu becərdikdə və məhsulunu emal etdikdə əlavə məhsullar (yarpaqlar, cecə və ya puçal, patka) alınır ki, onlar heyvandarlıq üçün çox əhəmiyyətə malikdir.

Kökümeyvənin ümumi meyvəkök kütləsinin 1/3 və ya 1/2 hissəsi qədər kütlə yarada bilir. Cecəsi və puçalı qiymətli yem kimi heyvandarlıq üçün əvəzsizdir (Yusifov, 2011: 368). Yüksək keyfiyyətli 100 kq təzə cecə, özündə 8 yem vahidi, 0,9 kq həzm olunan protein birləşdirir. 100 kq qurudulmuş cecədə isə 85 yem vahidi, 3,9 kq həzm olunan protein vardır. Cecədən həm də spirt, qliserin, yeyinti drojları, limon turşusu və s. istehsal etmək mümkündür.

Ümumiyyətlə, götürdükdə hər hektardan 25-30 ton məhsuldarlığı olan şəkər çuğundurunu emal etdikdə alınan əlavə məhsullardan (yarpaqlar da buraya daxildir) 5000 yem vahidi almaq olar. Bəzi rayonlarda şəkər çuğunduru yem bitkisi kimi də becərilir.

Geniş yayıldığı rayonlarda kənd təsərrüfat bitkilərinin ən rentabellisi şəkər çuğunduru sayılır. Belə rayonlarda şəkər çuğunduru əkinə yararlı torpaqların 10-20%-i də əkilməyinə baxmayaraq, bitkiçilikdən gələn gəlirin 30-50%-ni verir.

Şəkər çuğunduru hektardan 40-50 ton məhsul verərsə bundan 7-8 ton şəkər alınır.

**Botaniki xüsusiyyətləri. Çuğundur (*Beta*)** cinsi unluca *(*tərəçiçəklilər) fəsiləsinə daxil olan birillik, ikiillik və çoxillik növləri (*14 yabanı, 1 mədəni*) özündə birləşdirir. Cücərtisi açıq yaşıl rəngli, yarpaqcıqları uzun lansetvari, oval ürək formalı, tam kənarlı, səthi tüksüzdür. Cücərmənin başlanğıcında kökcük və ləpəaltı dizcik qabığı partladaraq xaricə çıxır, ləpələr müəyyən müddət meyvənin içərisində qalır. Lakin toxumda olan ehtiyat qida maddəsi ilə cücərən hissə arasında əlaqə kəsilmir. Qida maddələri çuğundurda və yerkökündə ləpələr vasitəsi ilə sorularaq cücərtiyə ötürülür. Cücərti torpaq səthinə çıxdıqdan təxminən 8-10 gün sonra bitkidə əsas (həqiqi) yarpaqlar əmələ gəlməyə başlayır (Cəfərov, 2001: 250).

Çuğundurun ən çox yayılan növləri aşağıdakılardır:

*1.İrimeyvəli çuğundur,*

*2. Haşiyəli meyvəli çuğundur,*

*3. Üç sütuncuqlu çuğundur,*

*4. Çoxillik çuğundur.*

Şəkər çuğunduru suvarmağa həssaslığına görə tarla bitkiləri arasında birinci yeri tutur. Bundan əlavə, suvarma suyundan istifadə (1 mm suvarma suyuna görə kq artım) torpaqların normal sahə rütubət qabiliyyətindən (NMC), hava şəraitindən, kənd təsərrüfatı texnologiyasından və məhsuldarlıqdan asılıdır. Almaniyanın şərqində 13 il ərzində aparılan təcrübələrdə şəkər çuğundurunun məhsuldarlığında artım 44-141 s/ha, sudan istifadədən asılı olaraq isə 74-105 kq/mm arasında dəyişmişdir. Suvarma zamanı şəkər çuğundurunun məhsuldarlığı istisna olmaqla, bütün aqrotexniki tədbirlərin həyata keçirilməsi fonunda şəkərin keyfiyyəti və məhsuldarlığı yüksəlir. Bununla belə, suvarma istehsalın ən bahalı amillərindən biridir. Onun gəlirliliyi və səmərəliliyi yalnız yüksək təsərrüfat standartları və bütün digər istehsal amillərindən düzgün istifadə ilə təmin edilir (Hümbətov, Xəlilov, 2010: 100 -115).

Suvarma ehtiyacı, eləcə də suvarma vaxtı və normaları hava şəraiti, torpağın rütubətinin dinamikası və şəkər çuğunduru bitkilərinin suya tələbatı ilə müəyyən edilir. Şəkər çuğunduru həm qeyri-kafi, həm də həddindən artıq torpaq neminə reaksiya verir. Aşağı temperaturdan və buxarlanmadan asılı olaraq, məhsuldarlığın azalması ilə müşayiət olunan su çatışmazlığı olan torpağın rütubət həddi təxminən normal sahə rütubət tutumunun 35-45%-i daxilindədir. Çernozem və loess torpaqlarda normal sahənin rütubət tutumu uzun müddət 65%-dən yuxarı olduqda (kök zonasında oksigen çatışmazlığı) məhsuldarlıq azalır. Açıqca qumlu torpaqlarda şəkər çuğunduru və şəkər məhsuldarlığı normal sahənin rütubət tutumunun 80%-ə qədər demək olar ki, xətti artır.

Şəkər çuğunduru ən məhsuldar kənd təsərrüfatı bitkilərindən biridir. Əkin sahələrinin hər hektarından 250 sentner kök bitkilərin məhsuldarlığı ilə çuğundur 4500 yem vahidi istehsal edir. O,

zülal baxımından yem kökü, yem və yarımşəkər çuğunduru, şalgam, balqabaqdan əhəmiyyətli dərəcədə zəngindir, tərkibində mineral duzlar, B1, B2, C vitaminləri var, heyvanlar tərəfindən yaxşı yeyilir və əmilir.

Şəkər çuğunduru suvarılaraq becərildikdə məhsulun yağıntının miqdarından və paylanmasından asılılığı aradan qaldırılır, gübrələrdən ən səmərəli istifadə edilməsinə və bu məhsulun becərilməsinin mütərəqqi texnologiyasının səmərəliliyinin dolğun təzahürünə şərait yaradılır (Pişnamazov, 1964: 45).

Şəkər çuğunduru yetişdirən təsərrüfatlar sənayeni nəinki şəkər istehsalı üçün xammalla təmin edir, həm də pulpa, bəkməz və zirvə şəklində heyvan yemi alır. Yüksək kənd təsərrüfatı texnologiyasına malik ən yaxşı sort və hibridlərdən olan şəkər çuğundurunun kök bitkiləri 20%-ə qədər şəkərə malikdir və hər hektardan 100-110 sentnerə qədər və daha çox şəkər məhsulu verir.

Şəkər insanın ən qiymətli qida məhsuludur, əsas karbohidratlardan biridir. Bədən tərəfindən yaxşı əmilir və fiziki və zehni yorğunluq zamanı performansının qorunmasına və sürətli bərpasına kömək edir (Vasilenko, 2003). Qida sənayesində şəkərdən geniş istifadə olunur.

Hazırda çuğundurçuların qarşısında nəinki şəkər çuğundurundan yüksək məhsul əldə etmək, həm də iqtisadi cəhətdən təmiz, yəni. pestisid qalıqları olmadan, çünki Şəkər çuğundurunun kökləri təkcə şəkər istehsalı üçün deyil, həm də onun emal məhsullarından yüksək qiymətli yem kimi geniş istifadə olunur.

Yüksək səviyyədə əkinçilik şəraitində şəkər çuğundurunun ən yaxşı sortları və polihibridləri hər hektardan 8,0 tondan çox şəkər toplamaq qabiliyyətinə malikdir; onun zirvələri hər hektardan orta məhsulu olan çoxillik otlar kimi eyni miqdarda yem vahidi və həzm olunan protein verir.

2012-ci ildə Stavropol diyarında şəkər çuğundurunun ümumi məhsulu təxminən iki milyon ton təşkil etmişdir. Bununla belə, bölgəmizdə kifayət qədər yağıntının olmaması məhsul qıtlığına səbəb olur, buna görə də kifayət qədər rütubət olmayan ərazidə şəkər çuğundurunun sənaye üsulu ilə becərilməsi suvarma ilə iqtisadi cəhətdən məqsədəuyğundur .

Qeyri-sabit rütubət zonasında şəkər çuğundurunun məhsuldarlığı böyük dalğalanmalara məruz qalır, buna görə də çuğundur sahələrinin məhsuldarlığının sabitləşdirilməsi məsələləri əsasən məhsulun becərilməsi üçün müasir texnologiyaların differensial şəkildə istifadəsindən asılıdır (Kalakura, 2005).

Şəkər çuğunduru becərilməsi dəqiq bir yanaşma və texnoloji intizam tələb edən kənd təsərrüfatının vacib bir hissəsidir. Aparılan tədqiqatlar Pivot suvarma sistemdən istifadə edərək Şemkir bölgəsində şəkər çuğundurunun böyüməsinin nəticələrini təhlil edəcəyik, həmçinin mezoelementlərin tərkibindəki dəyişiklikləri və bitkinin məhsuldarlığına və keyfiyyətinə təsir edən digər amilləri nəzərdən nəzərdən keçirəcəyik.

Bir neçə məqamı nəzərdən keçirək, niyə damcı suvarmadan istifadə etməyə dəyər: iqlim dəyişikliyi (həddindən artıq nəmlik və ya böyük çatışmazlıq), çuğundur, torpaqda ümumi nəm tutumunun 60-70% -ni su ilə təmin edir. Damcı suvarma sayəsində su təchizatını tənzimləyə bilərsiniz (Kochetkova, 2003: 8-12). Torpaq kadastrında dəyişikliklərin gözlənilməz olması səbəbindən suvarma layihələrinə uzunmüddətli investisiyalar risklidir. Kənd təsərrüfatı məhsullarının qiymətləri də qeyri-sabitdir. Ona görə də qənaətcil suvarma üsulu və məhsul tapılıb ki, suvarma şəraitində bir ildən sonra özünü doğrulda bilər. Şəkər çuğunduru bizim üçün əsas məhsuldur və iqtisadi cəhətdən ən sərfəli məhsuldur: bu kök məhsulu layihəyə qoyulmuş kapitalı ən tez qaytarmağa kömək edəcək. Şəkər çuğundurunu suvarmaq üçün sizə mobil suvarma sistemi lazımdır (mütəxəssislərimiz onun bütün funksiyalarını sizə öyrətməkdən məmnun olacaqlar). Suvarmağın böyük üstünlüyü, sistemin məhsuldan sonra köçürülməsidir.

**Texnoloji kontest.**

Bu Pivot beş il ərzində müxtəlif bitkilərin becərilməsi üçün fəaliyyət göstərir. Əkin rotasiyasına qarğıdalı, şəkər çuğunduru, arpa/yonca və 2023-cü ildə yenidən qarğıdalı daxil edilib. Bu müxtəlif məhsullar torpağın istifadəsini optimallaşdırmağa və ehtiyatlarının tükənməsinin qarşısını almağa imkan verir (Kozlova, 2006: 18-23).

**Torpaqda Mezoelementlərin miqdarının dəyişməsi.**
**Kalsium mq – ekv \ 100 q torpaq**

| Tarix | 2018 | 2019 | 2020 | 2021 | 2023 |
|---|---|---|---|---|---|
| Nəticə | 20 | 28.75 | 29.2 | - | 31.7 |

**Maqnesium mq-ekv/100 q torpaq**

| Tarix | 2018 | 2019 | 2020 | 2021 | 2023 |
|---|---|---|---|---|---|
| Nəticə | 5 | 1.05 | 4.4 | - | 3.5 |

**Kükürd mq-ekv/100 q torpaq**

| Tarix | 2018 | 2019 | 2020 | 2021 | 2023 |
|---|---|---|---|---|---|
| Miqdar | 1.88 | 0.88 | 1.4 | - | 4.75 |

**Kalsium.**

Kalsium Torpaq quruluşunun formalaşmasında və bitki böyüməsinin stimullaşdırılmasında mühüm rol oynayır. Kalsium miqdarı tədricən 20-dən (2018) 31.7-ə (2023) qədər artır, bu da texnoloji dəyişikliklərin torpaq quruluşuna müsbət təsirini göstərə bilər (Magomedov, 2003: 19-26).

**Maqnezium.**

Xlorofilin sintezi üçün vacib olan maqnezium, 2018-ci ildən 2023-cü ilə qədər azalma göstərir. Bu səbəbdən, fotosintezi qorumaq üçün lazımi maqnezium səviyyəsini təmin etmək üçün əlavə tədbirlər tətbiq edilməlidir.

**Kükürd.**

Kükürd miqdarı, kükürd tərkibli gübrələrin istifadəsi ilə əlaqəli ola biləcək 2018-dən 2023-cü ilə qədər artım göstərir. Bu, torpağın sağlamlığını qorumaq və patogen mikroorqanizmlərin inkişafının qarşısını almaq üçün vacibdir.

**Torpaqda Makroelementlərin miqdarının dəyişməsi.**

| | Fosfor ($P_2O_5$) | | | | | Kalium ($K_2O$) | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İl | 2018 | 2019 | 2020 | 2021 | 2023 | 2018 | 2019 | 2020 | 2021 | 2023 |
| miqdar | 1.36 | 4.16 | 2.04 | 7.42 | 2.82 | 24.49 | 57.1 | 92 | 61.4 | 54.6 |

**Fosfor ($P_2O_5$)**

Bitkinin effektiv böyüməsi üçün tələb olunan fosfor səviyyəsi 1.36 (2018) ilə 7.42 (2021) arasında dəyişikliklər göstərir. Bu, gübrələmə texnologiyasındakı dəyişiklikləri və texniki həllərin tətbiqini əks etdirir.

**Kalium.**

Kök sisteminin inkişafı və su balansının tənzimlənməsində rolu olan kalium bəzi dəyişikliklər göstərdi, lakin ümumiyyətlə təsir edici, bitkini təmin edən səviyyədə qalır (Ivashenko, 2009: 41-50).

**Məhsuldarlıq və şəkər çıxımı.**

**Məhsuldarlıq.**

Şəkər çuğundurunun məhsuldarlığı müsbət dinamika göstərir və 2021-ci ildə (84,617 t/ha) zirvəyə çatır. Bu, optimallaşdırılmış böyümə texnologiyalarının nəticəsi hesab oluna bilər.




**Şəkər çıxımı**

Şəkər çıxımı 2021-ci ildə faizlə azaldı (%12.66), bu da iqlim şəraiti və ya böyümə texnologiyasının xüsusiyyətləri kimi müxtəlif amillərlə əlaqəli ola bilər.

**Nəticə**

Şəmkir bölgəsində Pivot suvarma sistemi ilə şəkər çuğunduru becərilməsinin nəticələrinin təhlili optimallaşdırılmış texnologiyaların torpaqdakı mezoelementlərin səviyyəsinə və bitkinin məhsuldarlığına müsbət təsiri barədə nəticə çıxarmağa imkan verir.

Lakin, şəkər çıxımı müşahidə olunan dəyişikliklər əlavə tədqiqatların və nəticələrin artırılması üçün optimal becərmə üsullarının tədbiq olunmasının vacibliyini vurğulayır (Stogniyenko, 2009: 25-36).

Məlumatların təhlili kənd təsərrüfatı müəssisələri üçün düzgün qərarlar qəbul etməyə və məhsul yetişdirmə təcrübələrini inkişaf etdirməyə kömək etmək üçün vacib bir vasitə olaraq qalır.

**Ədəbiyyat**

1. Cəfərov, Ş.H. (2009). Tarla bitkiləri. Bakı: "Elm", 314 s.
2. Yusifov, M.A. (2011). Bitkiçilik. Bakı, 368 s.
3. Cəfərov, Ş.H. (2001). Kənd təsərrüfatı fitopatologiyası. Bakı: "Elm", 250 s.
4. Hümbətov, H.S., Xəlilov, X.Q. (2010). Texniki bitkilər. Bakı: "Aytac", s.100 -115.
5. Pişnamazov, Ə.M. (1964). Şəkər çuğunduru və onun yem üçün yetişdirilməsi. Bakı: Azərnəşr, 45 s.
6. Vasilenko, Z.V. (2003). Ispolzovaniye netraditsionnogo syrya v proizvodstve biskvitnogo testa. Tekhnika i tekhnologiya pishchevykh proizvodstv: tez.dokladov IV Mezhdunarod.konf., Mogilev.
7. Kalakura, M.M. (2005). Tekhnologiya biskvita lechebno-profilakticheskogo naznacheniya. Tekhnika i tekhnologiya pishchevykh proizvodstv: tez.dokladov V Mezhdun.konf., Mogilev.
8. Kochetkova, A.A. (2003). Funktsionalnyye pishchevyye produkty: nekotoryye tekhnologicheskiye podrobnosti v obshchem voprose. Pishchevaya promyshlennost. № 5, s.8-12.
9. Kozlova, A.V. (2006). O novom sposobe polucheniya biskvitnogo polufabrikata. Khlebopecheniye Rossii. № 3, s.18-23.
10. Magomedov, G.O. (2003). Pechenye na osnove obogashchennykh muchnykh kompozitnykh smesey. Konditerskoye proizvodstvo. №3, s.19-26.

11. Ivashenko, A.A., Ivashchenko A.A. (2009). Nadezhnaya zashchita sakharnoy svekly ot sornyakov pri lyuboy pogode. № 4, s.41-50.
12. Stogniyenko, O.I. (2009). Kompleksnaya zashchita sakharnoy svekly ot bolezney. № 2, s.25-36.

Göndərilib: 04.08.2023 Qəbul edilib: 16.10.2023

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**İlahə Əliyeva**
Ərzaq məhsullarının marketinqinin idarə edilməsi ....................................................................7
**Seyidmahir Zəkizadə**
Azərbaycanın işğaldan azad edilmiş ərazilərində səhiyyə infrastrukturunun qiymətləndirilməsi ....................................................................11
**Gülnar Quluzadə**
İngilis dilinin tədrisində islahatların vacibliyi ....................................................................16
**Səbuhi Məmmədov**
Rüstəm İbrahimbəyov fenomeni ....................................................................19
**Aynur Məmmədova**
Azərbaycanın maliyyə sisteminin hazırki vəziyyəti ....................................................................24
**Sevinc Hacıyeva**
Qloballaşma prosesində dilçiliyin əsas ünsürü kimi kommunikativ əlaqələrin rolu və Azərbaycan dilçiliyində təzahürü ....................................................................28
**Kifayət Dolxanova**
Riyaziyyat - təhsil metodunda rəqəmsallaşma ....................................................................31
**Gözəl Quliyeva**
Azərbaycan gənclərinin xaricdə təhsilində Heydər Əliyevin rolu ....................................................................38
**Kərim Novruzov**
Hüquq, azadlıq, ədalət və millilik: qısa fəlsəfi yanaşma ....................................................................41
**Yeganə Məmmədova**
Məktəbəqədər dövrdə uşaqların nitqinin inkişaf etdirilməsində ətraf aləmlə tanışlıq məşğələlərinin təşkili ....................................................................48

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Gülnarə Abbasova**
Şəmkir regionunda şəkər çuğundurunun pivot suvarma sistemi ilə becərilməsinin məhsuldarlığa və mezo-makro-elementlərinə təsiri ....................................................................53

İmzalandı: 27.10.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 7,5 ç.v.
Sifariş: 679

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az